

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

Dövlət dili

Rafiq İsmayılov
Ülkər Nurullayeva
Reyhan Həbibli

# Azərbaycan dili

# 7

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
dərslik

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# İÇİNDƏKİLƏR


## 1 bölmə Qayğı və mərhəmət

| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 6-7 |
| Fəsil 1 | Vətənə qayğı | Vurğu | 8-17 |
| Fəsil 2 | Empatiya | Rus-Avropa mənşəli sözlərin yazılışı | 18-25 |
| Fəsil 3 | Xeyirxahlıq | Mürəkkəb şəxs və yer adlarının yazılışı | 26-30 |
| | Ümumiləşdirici təkrar | | 31 |

## 2 bölmə İncəsənət

| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 32-33 |
| Fəsil 1 | Dahi bəstəkar | Hiponimlərdən yaranan mürəkkəb sözlər | 34-43 |
| Fəsil 2 | Əsrin dahisi – sənətin fədaisi | Tərəfləri qrammatik şəkilçi ilə işlənən mürəkkəb sözlər | 44-53 |
| Fəsil 3 | Cığır açan qadınlar | Ayrı yazılan mürəkkəb sözlər | 54-56 |
| | Ümumiləşdirici təkrar | | 57 |

## 3 bölmə Təbiət

| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 58-59 |
| Fəsil 1 | Təbiətin mühafizəsi | Qoşma | 60-70 |
| Fəsil 2 | Təbii fəlakətlər | Bağlayıcıların funksiyaları | 71-77 |
| Fəsil 3 | Planetimizi birlikdə qoruyaq | | 78-83 |
| | Ümumiləşdirici təkrar | | 84-85 |

## 4 bölmə Fərdi inkişaf

| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 86-87 |
| Fəsil 1 | Özünə inan | Ədat | 88-93 |
| Fəsil 2 | Təslim olma | Modal sözlər | 94-99 |
| Fəsil 3 | Mütaliə et | Nida | 100-105 |
| | Ümumiləşdirici təkrar | | 106-107 |

## 5 bölmə Vətənin keşiyində


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 108-109 |
| Fəsil 1 | Tarixi yaddaş | Feilin şəkilləri (əmr, xəbər) | 110-117 |
| Fəsil 2 | Qəhrəmanlıq | Feilin şəkilləri (lazım, arzu) | 118-125 |
| Fəsil 3 | Qələbə | Feilin şəkilləri (vacib, şərt) | 126-131 |
| | Ümumiləşdirici təkrar | | 132-133 |


## 6 bölmə Adlar və deyimlər


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 134-135 |
| Fəsil 1 | Şəhər və ölkə adları | Eyniköklü sözlər | 136-143 |
| Fəsil 2 | Deyimlər | Bəzi şəkilçi və qoşmaların deyilişi, yazılışı | 144-150 |
| Fəsil 3 | Tarixi ifadələr | | 151-156 |
| | Ümumiləşdirici təkrar | | 157 |
| | İzahlı sözlük | | 158-160 |


**Dinləmə** 01

Audiomətnləri sağda göstərilən QR kodu oxutmaqla trims.edu.az saytından əldə edə bilərsiniz.

QR kodu oxut

bölmə 1

# Qayğı və mərhəmət

**a** **“Qayğıkeş” və “mərhəmətli” sözlərinin mənasını lüğət vasitəsilə araşdırın. Bu sözləri cümlələrdə işlətməklə mənaları arasındakı fərqi izah edin.**

**b** **Aforizmlərdə ifadə olunan fikirləri şərh etməklə qayğı və mərhəmət haqqında danışın.**

**1.** Mərhəmət olmayan yerdə insanlıq da yoxdur. *(Əli ibn Əbu Talib)*
**2.** Torpağa mərhəmət xeyirdir, inan,
Lütf etsən, gül verər, zülm etsən – tikan. *(Nizami Gəncəvi)*
**3.** İnsan nə qədər mərhəmətlidirsə, bir o qədər insandır. *(Dostoyevski)*
**4.** Mərhəmət əxlaqın təməlidir. *(Artur Şopenhauer)*
**5.** Mərhəmət göstərən hər zaman uğur qazanacaqdır. *(Riçard Şeridan)*

**c** **Sxem əsasında cəmiyyətdə qayğıkeşlik haqqında danışın.**




**Nümunələr:**

- *COVID-19 pandemiyası zamanı könüllülər yaşlı və xəstə insanlara yardım göstərirdilər.*
- *Təbii fəlakətlər (zəlzələ, daşqın) zamanı insanlar bir-birinə kömək etmək üçün birləşirlər.*
- *Gənclərin iştirakı ilə keçirilən sosial layihələr (ağacəkmə, təmizlik, qocalar və ya uşaq evlərinə yardım kampaniyaları və s.) mərhəmət və qayğı dəyərlərini aşılamağa kömək edir.*
- *Uşaqlar dərslərində çətinlik çəkən sinif yoldaşlarına dəstək olurlar.*

**ç** **Verilmiş nümunələrdən də istifadə edərək aşağıdakı fikirləri genişləndirin və xeyriyyə aksiyalarının cəmiyyətin dəyişməsində rolu haqqında danışın.**

- Sosial problemlərin həllinə kömək edir.
- Empatiya hissini artırır.
- Gənclərə müsbət dəyərlər aşılayır.
- Birlik və həmrəylik yaradır.

**d** **Vətənə qayğı ilə bağlı keçirilmiş sorğunun nəticələrini əks etdirən diaqrama baxın. Diaqrama istinad etməklə sualları cavablandırın.**

**Vətənə qayğı nə deməkdir?**




**1.** Diaqramda hansı fəaliyyət növünü seçən yaş qruplarına aid insanların sayı təxminən eynidir?

**2.** Sizin aid olduğunuz yaş qrupu vətənə qayğı üçün hansı fəaliyyət növünə daha çox, hansına daha az önəm verir? Siz bu mövqe ilə razısınızmı?

- **Diaqramda əks etdirilmiş məlumatları rabitəli mətnə çevirib nəql edin.**

**e** **Verilmiş anketə əsasən sinfinizdə sorğu aparın. Sorğunun nəticələrinə uyğun diaqram hazırlayın və onu şərh edin.**

**SORĞU ANKETİ**

**Gün ərzində qayğı və mərhəmət göstərmək üçün hansı fürsətləri dəyərləndirərdiniz? Cavab variantlarından 3-nü seçə bilərsiniz.**

- ☐ küçə heyvanlarını yemləmək
- ☐ ailə üzvlərinə kömək etmək
- ☐ avtobusda yaşlı insanlara yer vermək
- ☐ sinif yoldaşıma dərslərində kömək etmək
- ☐ kimsəsiz, yaşlı insanlara yardım etmək
- ☐ məktəbimizin həyətindəki ağacları sulamaq
- ☐ sosial layihələrə qoşulmaq
- ☐ başqa: ____________________________________

**1 a** **Xalqın tarixini, qədim abidələrini və mədəni dəyərlərini qorumaq nə üçün vacibdir? Sizcə, bu məqsədlə hansı işlər görülməlidir?**

## UNUDULMUŞ QALA



Mən hündür dağların zirvəsində sükuta bürünmüş, küləklə söhbətləşən, yağışın pıçıltılarını dinləyən qədim bir qalayam. Kim bilir, neçə-neçə tarixi hadisənin, unudulmuş hekayələrin şahidi olmuşam. Səssiz-səmirsiz dayanıb əsrlərin **axarını** izləmişəm, zamanın necə axıb keçdiyinə, **nişanələrimin** yavaş-yavaş silinməsinə şahidlik etmişəm.

Zaman məni **sınağa çəkib,** küləklər daşlarımı **ovub,** yağış divarlarımdakı izləri yumağa çalışıb. Lakin mən hər daşımda bir inad, hər çatımda bir direniş göstərib zamanla mübarizə aparmışam, bütün çətinliklərə dözüb dik durmağa çalışmışam.

Bir zamanlar at nallarının səsi divarlarımı titrədər, bürclərim üstündə **qalxanlar bərq vurardı.** Burada hökmdarlar qərar verər, **sazişlər** bağlayar, saray şairləri şeir oxuyardılar. Amma illər keçdikcə hər şey dəyişdi... İnsanlar məni unutdular. Divarlarımın çatlarında **qərib** otlar **boy atdı,** quşlar məni öz yuvalarına çevirdi. Mən isə susdum... Nəhayət, bir səhər...

Bir səhər addım səsləri eşitdim. Ayaq səsləri torpağı titrədirdi, sanki keçmişin qapıları yavaş-yavaş aralanırdı. O gəldi. Üz-gözü toz içində, gözlərində işıq olan bir gənc. Ətrafa baxdı, divarlarıma toxundu. Sanki unudulmuş dostunu tapmış kimi gözlərini yumub dərindən nəfəs aldı:

– Sən hələ də buradasan, – deyə pıçıldadı.

**Söz mücrüsü**

- axar
- sınağa çəkmək
- ovmaq
- qalxan
- bərq vurmaq
- saziş
- boy atmaq
- sığallamaq
- axın-axın
- qərib
- nişanə

Mən susdum, amma ruhum titrədi. O, divarlarımdakı daşları **sığalladı,** çatlara toxundu. Hər toxunuşunda hiss edirdim ki, o məni anlayır, tarixin torpağa qarışmış izlərini yenidən canlandırmağa çalışır. Gənc sakitcə divarlarımın uçuq-sökük parçalarını diqqətlə müşahidə etdi, əlindəki dəftərçəsinə nələrsə qeyd edib getdi.

Həmin gündən bu gənc tez-tez məni yoxlamağa gəlirdi. Günlər geçdikcə ona başqa insanlar da qoşuldular.



Gənc məni hər kəsə tanıtdı. Jurnallarda haqqımda məqalələr yazıldı, turistlər **axın-axın** ziyarətimə gəldilər. Artıq özümü tənha saymırdım, unudulmuş deyildim.

İndi mənim divarlarımda yenidən səslər əks-səda verir. İnsanlar şəkillər çəkdirir, tarixçilər haqqımda danışır, yazırlar. Mən yenidən yaşayıram. Artıq tək deyiləm. Tariximə sahib çıxanlar var. Mənim hekayəm davam edir...

## Söz ehtiyatı

**b** **Mətndən seçilmiş ifadələrin qarşılığını verilmiş cümlələrdə tapın.**

**1. bərq vurmaq**
**2. sınağa çəkmək**
**3. boy atmaq**

**a.** Bağda əkdiyim fidanlar bir neçə ilə çox böyüyüb.
**b.** Həqiqət almaz kimidir: qaranlıqda daha çox parıldayır.
**c.** Ustad bununla şagirdinin səbrini yoxlayırdı.

**c** **Cümlələrdə fərqləndirilmiş sözlərin sinonimini "Söz mücrüsü"ndən seçin.**

**1.** O, pişiyini qucağına alıb asta-asta ***tumarlayırdı.***
**2.** Keçmişin ***izləri*** hələ də yaddaşımda yaşayır.
**3.** İki şirkət arasında yeni əməkdaşlıq ***müqaviləsi*** imzalandı.
**4.** Bu yerlərdə özünü ***yad*** hesab edirdi.

**ç** **"Nostalji" sözünün izahını oxuyun. Mətndən nümunələr söyləməklə qalanın nostalji hisslər keçirdiyini əsaslandırın.**

***Nostalji*** [nastalji] – keçmiş günlər, xoş anlar, vətən və s. ilə bağlı həsrət, xiffət.

**d** **Aşağıdakı cümlələri müqayisə edin. Hansı fikir daha ifadəlidir?**

**a.** Divarlarımın çatlarında yaşıl otlar boy atdı.
**b.** Divarlarımın çatlarında qərib otlar boy atdı.

> **Xatırla**
>
> **Məcaz** – həqiqi mənada deyil, oxşarlığı və ya əlaqəsi olan başqa bir mənada işlədilən söz və ya ifadədir. Məcazlar vasitəsilə fikir daha ekspressiv, yəni təsirli çatdırılır.

**e** **Mətndən seçilmiş cümlələrdə hansı söz və ifadələr məcaz kimi işlənib?**

**1.** Səssiz-səmirsiz dayanıb əsrlərin axarını izləmişəm.
**2.** Zaman məni sınağa çəkib, küləklər daşlarımı ovub.
**3.** Ayaq səsləri torpağı titrədirdi, sanki keçmişin qapıları yavaş-yavaş aralanırdı.

## Nə anladın?

**ə** **Mətnə istinad etməklə suallara cavab verin.**

**1.** Qala keçmişi ilə bağlı hansı hadisələri xatırlayırdı?
**2.** Qala özünü niyə unudulmuş hiss edirdi?
**3.** Gəncin qalanı ziyarət etməkdə məqsədi nə idi?
**4.** Sizcə, bu qala nə üçün tərk edilmişdi? Tarixi abidələr hansı hallarda tərk edilir?

## Düşün və cavab ver

**2** **a** **Mətnin müvafiq hissələrinə istinad edərək qalanın keçirdiyi hisslər haqqında danışın. Mətndə qalanın şəxsləndirildiyini əsaslandırın.**

> **Xatırla**
>
> Bədii əsərdə insana xas keyfiyyətlərin cansız varlıqlara və heyvanlara aid edilməsi **şəxsləndirmə** adlanır. Məsələn: ***Qala*** yağışın pıçıltılarını ***dinləyirdi***.

**b** **Mətnin sonunda qala yenidən yaşadığını və hekayəsinin davam etdiyini söyləməklə hansı fikri vurğulayır?**

**c** **"Unudulmuş qala" mətnini təhlil edin.**

- Mətnin mövzusunu müəyyənləşdirin.
- Əsas xarakterləri səciyyələndirin.
- Müəllifin qaldırdığı problemi şərh edin.
- Müəllifin oxucuya çatdırmaq istədiyi fikir nədir?

**ç** **Aşağıdakı bayatını oxuyun və mətnin ideyası ilə əlaqələndirib şərh edin.**

Bu ***qala*** bizim ***qala,***
Həmişə bizim ***qala.***
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala.
*(Xudu Məmmədov)*

**Sözlərin izahı**

**Bayatı** – hər misrasında 7 heca olan 4 misradan ibarət şeir şəkli.

**d** **Bayatıda fərqləndirilmiş sözlərin kökünü müəyyənləşdirin və mənasını izah edin. Sizcə, bu sözlər omonimdirmi?**

**e** **Nümunələrdə fərqləndirilmiş sözlərin omoform və ya omonim olduğunu müəyyən edin və fikrinizi əsaslandırın.**

Əzizinəm ***gündə*** mən,
Kölgədə sən, ***gündə*** mən.
İldə qurban bir olar,
Sənə qurban ***gündə*** mən.

Aşığam, yaxşı ***qala,***
Ocağı yaxşı ***qala.***
İstərəm bu dünyada
Pis ölə, yaxşı ***qala.***

Xoşdur bu dağların sərin ***havası,***
Çal, qarışsın ona gürcü ***havası.***
*(S.Vurğun)*

Keçək Kür çayını, Araz ***çayını,***
İçək Lənkəranın pürrəng ***çayını.***
*(S.Vurğun)*

Sürüdən ayırıb tez əlli ***qoyun,***
Dedi ki, bunları yol üstə ***qoyun.***
*(S.Ə.Şirvani)*

**Yadda saxla**

**Çoxmənalı söz** – həqiqi mənası ilə yanaşı, məcazi mənası olan söz. Məsələn:
- *insanın **ağzı***
- *qapının **ağzı***

**Omonim** – deyilişi və yazılışı eyni, mənaları tamamilə fərqli olan sözlər. Məsələn:
- ***kök*** *(sifət) – şişman, gonbul*
- ***kök*** *(isim) – ağacın torpaq altında olan hissəsi*

**Omoform** – yazılışı və tələffüzü eyni, lakin qrammatik formaları müxtəlif olan sözlər.
*Bu işdə **kəsir** çoxdur.* (isim, adlıq hal)
*O, ipi **kəsir**.* (feil, indiki zaman)

**ə** **Verilmiş nümunələrdə omoformları müəyyənləşdirin. Sözlərin leksik və qrammatik mənalarını izah edin.**

Dağdan yel əsir yenə,
Səbrimi kəsir yenə.
Gəldin məni eylədin
Yolunda əsir yenə.

Bu yurdun tacı bağlar,
Meyvəsi acı bağlar.
Ağrısa qardaş başı,
Yenə də bacı bağlar.

Mən aşiqəm bir ata,
Bir oğuldur, bir ata.
Qırx dəvə, səksən qatır
Yüklənibdi bir ata.

**3 a** **Qruplarla iş. Sizcə, Qarabağda əsirlikdən azad edilən bir tarixi abidə danışa bilsəydi, nə deyərdi? Abidələr haqqında məlumatlarla tanış olun. Abidənin dili ilə plana uyğun mətn yazın.**

***Plan***

- Mən kiməm? (hansı abidəyəm?)
- İşğal zamanı başıma nə gəldi? Nələr gördüm, hansı hissləri keçirdim?
- Zəfər günündə nə hiss etdim?
- İndi nə görürəm, nə istəyirəm?

**Sözlərin izahı**

**Vandalizm** – maddi və mədəni sərvətlərin, mədəniyyət abidələrinin vəhşicəsinə məhv edilməsi.

## I qrup

## GÜLLƏLƏNMİŞ HEYKƏLLƏR





**Yer:** Şuşa şəhəri

**Heykəllər:**
- Üzeyir Hacıbəyli
- Xurşidbanu Natəvan
- Bülbül

**Ucaldılma tarixi:** 1982-ci il (Heydər Əliyevin təşəbbüsü ilə)

**Vandalizm:** 1992-ci il – Birinci Qarabağ müharibəsi zamanı erməni qəsbkarlarının abidələri Ermənistana aparıb əridərək satmaq istəyi

**Xilas:**
- Polad Bülbüloğlunun Heydər Əliyevə müraciəti
- 1993-cü ildə heykəllərin Bakıya gətirilməsi və İncəsənət Muzeyinə təhvil verilməsi

**Şuşaya qayıdışı:** 2020-ci il, 8 noyabr – Şuşanın azad edilməsi
2021-ci il – Heykəllərin yenidən Şuşaya qaytarılması

II qrup

# AĞDAM ÇÖRƏK MUZEYİ



**Yer:** Ağdam şəhəri

**Açılış tarixi:** 25 noyabr 1983-cü il

**Təşəbbüskar:** Sadıq Murtuzayev

**Yerləşdiyi bina:** XIX əsrin sonlarında tikilmiş dəyirman

**Quruluşu:** yay salonu, sərgi salonları və taxılçılıq bölməsi

**Ekspozisiyalar:** dən üyüdən dəyirman, toxumtəmizləmə maşını, II əsrə aid əl dəyirmanı (kirkirə), xış, taxıldöyən vəl, bıçaq, oraq, qədim kuzələr, mətbəx avadanlıqları

**Ən qədim eksponat:** eramızdan əvvəl VII minilliyə aid daşlaşmış buğda toxumları

**Vandalizm:** 12 avqust 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən tamamilə dağılması, 1500-ə yaxın eksponatın məhv olması

**Xilas:** 20 noyabr 2020-ci il – Azərbaycan Ordusunun Ağdam rayonunu işğaldan azad etməsi

**Əhəmiyyəti:**
- Dünyada ikinci çörək muzeyi
- Çörək və əkinçiliyin xalqın həyatındakı yerini nümayiş etdirməsi
- Erməni qəsbkarlarının törətdiyi vandalizmə şahidlik edən abidələrdən biri

III qrup

# YUXARI GÖVHƏR AĞA MƏSCİDİ



**Yer:** Şuşa şəhəri

**İnşa tarixi:** • 1-ci məscid – 1750-ci illər (Pənahəli xan)
• 2-ci məscid – 1768–1769 (İbrahimxəlil xan)
• 3-cü məscid – XIX əsrin 1-ci yarısı (Gövhər ağa – İbrahimxəlil xanın qızı)
• 4-cü məscid – 1883-cü il (Gövhər ağa)

**Memarlıq xüsusiyyətləri:** • Qarabağ memarlıq məktəbi, iki minarəli
• Ölçüləri: 26,5 x 21,5 metr

**Vandalizm:** 1992-ci ildə Şuşanın işğalı zamanı dəymiş zərər

**Bərpası:** 2020–2023-cü illər – Şuşanın azad edilməsindən sonra restavrasiya işləri, Azərbaycan Respublikası tərəfindən ölkə əhəmiyyətli tarixi mədəniyyət abidəsi kimi tanınması

**Hazırkı vəziyyəti:** tam bərpa olunması və ziyarət üçün açılması

IV qrup

# XAN QIZI NATƏVANIN EV MUZEYİ



**Yer:** Şuşa şəhəri

**İnşa tarixi:** XVIII əsr

**Tip:** tarix-memarlıq abidəsi

**Sahibi:** Xurşidbanu Natəvan (şair, xeyriyyəçi, İbrahimxəlil xanın nəvəsi, Mehdiqulu xanın qızı)

**Ölçüləri:** 24 x 12,5 m,
hündürlüyü: 8,5 m

**Tarixi faktlar:** 1932 – Bülbülün təşəbbüsü ilə ilk uşaq musiqi məktəbinin açılması
1984-cü ildən – Şuşa şəhər Niyazi adına Uşaq İncəsənət məktəbi
1987 – Restavrasiya olunması və Natəvanın ev-muzeyi kimi fəaliyyətə başlaması

**Vandalizm:** Şuşanın işğalı (8 may 1992-ci il) zamanı muzeydə toplanmış yüzlərlə nadir sənət incilərinin işğalçılar tərəfindən dağıdılması

**Hazırkı vəziyyət:** Vətən müharibəsindən (2020-ci il) sonra restavrasiya

## Yazı

**4 a Nöqtələrin yerinə hansı hərf yazılmalıdır?**

**"ü", yoxsa "i"**

*üm...d, müd...r, müns...f, müh...t, müdr...k, münb...t, müfl...s*

**"a", yoxsa "ə"**

*pillək...n, qəhr...man, həy...can, həş...rat, təl...bat, t...başir, nəq...rat*

**"ü", yoxsa "u"**

*n...munə, g...nah, r...tubət, s...but, m...hazirə, m...nasibət*

**"o", yoxsa "a"**

*k...nqres, avt...mat, kosm...navt, ş...kolad, sam...var, f...ntan*

**b Sözləri orfoqrafik normalara uyğun yazaraq cədvəl üzrə qruplaşdırın.**

*[kayinat], [inşa:t], [mə:tdəl], [təbiyət], [bədi:], [diyalok'], [Səyidə], [radiyo], [stadiyon]*

| Eynicinsli qoşasaitli sözlər | Müxtəlifcinsli qoşasaitli sözlər |
|---|---|
| | |

**c Sözləri orfoqrafik normalara uyğun yazın.**

[əmoğlu], [bacoğlu], [əlaçıx]

**ç Sözlərə hal və mənsubiyyət şəkilçisi əlavə edərək qaydalara əsasən qruplaşdırın. Sözlərin kökündə hansı dəyişiklik baş verdi?**

*ağıl, cisim, nəsil, sətir, qoyun (qucaq), fəsil, isim, beyin, burun, boyun, ömür, alın çiyin, ovuc, zehin, könül, qayın, əyin, səbir, oğul, xeyir, qarın, eyib, ətir, sinif*

| Həm mənsubiyyət, həm də hal şəkilçisi qoşulduqda ikinci sait düşür. | Yalnız mənsubiyyət şəkilçisi qoşulduqda ikinci sait düşür. |
|---|---|
| | |

**d Sözləri düzgün tələffüz edin. Hansı hecalar daha qüvvətli deyilir?**

*opera, qalaktika, dəyirman, nəvaziş, yadelli, antonim, aksiya, eksperiment, avtobus*

**Bunları bilməliyik** VURĞU

Sözdəki hecalardan birinin daha qüvvətli tələffüz edilməsi **vurğu** adlanır. Vurğu qəbul edən hecaya vurğulu heca deyilir. Milli mənşəli sözlərimizdə vurğu, əsasən, sözün son hecasına düşür: *qonáq, yaşíl, soyúq* və s. Lakin dilimizdə vurğusu əvvəlki hecalara düşən alınma sözlər də çoxdur: *diréktor, qrammátika, heróqlif, rádio* və s.

**e** **Sözlərdə vurğunun yerini müəyyənləşdirin və cədvəl üzrə qruplaşdırın.**

*hərbi, mexanika, benzin, hospital, marşal, Afrika, lirika, coğrafiya, fonetika, flora, deputat, nağməkar, məktəbli, bəzi, kitablar, ürəklə, sənətçi, memar*

| Vurğusu birinci hecaya düşən sözlər | Vurğusu ikinci hecaya düşən sözlər | Vurğusu üçüncü hecaya düşən sözlər |
|---|---|---|
| | | |

**Bunları bilməliyik** SÖZLƏRDƏ "O" SAİTİNİN TƏLƏFFÜZÜ

Sözlərdə "o" saiti vurğulu hecada olduqda deyildiyi kimi yazılır. Digər hecalarda isə onun deyilişi ilə yazılışı fərqlənə bilər. Məsələn:
*pomidór [pamidor], fórma [forma], formát [farmat]* və s.

**ə** **Nöqtələrin yerinə "o" və ya "a" hərfini artırmaqla sözləri tamamlayın.**

bi...l...giya, m...vz...ley, f...v...rit, lab...r...t...riya, pr...t...tip, astr...n...miya, ...rf...qrafiya

**f** **Fərqləndirilmiş sözlərdə vurğunun yerini müəyyən edin.**

**1.** Anası Leylaya təzə ***çəkmə*** aldı.
**2.** Leyla, bura şəkil ***çəkmə*.**

**Bunları bilməliyik** VURĞUSU DƏYİŞMƏKLƏ MƏNASI DƏYİŞƏN SÖZLƏR

Elə sözlər var ki, eyni cür yazılır, lakin vurğuya görə fərqli tələffüz edilir. Belə sözlərin mənası fərqli olur. Məsələn: *vúrma* (inkar feil), *vurmá* (isim), *álın* (feil), *alín* (isim), *qálın* (feil), *qalín* (sifət) və s.

**g** **Fərqləndirilmiş sözlərdə vurğunun yerini tapın və həmin sözlərin mənalarını aydınlaşdırın. Hansı nitq hissəsinə aid olduğunu müəyyən edin.**

**a.** ***Alma*** çox faydalı meyvədir.
**b.** Çürük meyvələri ***alma*.**

**a.** Traktorlar ***əkin*** sahələrini şumladı.
**b.** Bu sahələrə buğda ***əkin*.**

**a.** Mirzə Ələkbər Sabir məşhur ***satirikdir*.**
**b.** O, ***satirik*** şeirlərin müəllifidir.

**1 a Özünüzü aşağıdakı situasiyalara düşmüş insanların yerində təsəvvür edin. Onların hisslərini 5-6 cümlə ilə ifadə edin.**

**1.** İlk dəfə məktəbə gəlmiş utancaq bir şagird
**2.** Ev heyvanını itirmiş bir uşaq

# İDMAN AYAQQABISI

Məktəbin yaxınlığında balaca bir ayaqqabı dükanı var idi. Sahibinin adı Əşrəf idi. O özü satıcılıq edirdi. Satışdan gəliri **cüzi** olduğuna görə əlavə işçi saxlaya bilmirdi.

Yay tətilinin başlanmasına az qalmışdı. Ona görə də yüngül idman ayaqqabılarına **tələbat** artmışdı.

Dükanın qarşısında 11-12 yaşlı bir oğlan dayanıb vitrindəki ayaqqabılara baxırdı. Oğlanın sol ayağı dizdən aşağı yox idi. **Qoltuqağacının** köməyi ilə gəzirdi.

Əşrəf əmi yeni gətirdiyi malları vitrinə düzürdü. Bu zaman dükanın qarşısında duran oğlanı gördü. Uşaq gözünü bir cüt gözəl idman ayaqqabısına **zilləmişdi.**




– Ey, balaca, – deyə dükan sahibi onu səslədi, – xoşuna gəlir? Builki modeldir. Gözəldir, elə deyilmi?

– Həqiqətən, çox gözəldir! – deyə oğlan utancaq bir təbəssümlə cavab verdi.

Əşrəf əmi oğlanı içəri çağırdı, vitrindən ayaqqabını götürüb dedi:

– Gəl, əyləş. Bax gör ölçüsü uyğun gəlirmi?

– Amma...

– Nə amma?

– Mənə ayaqqabının bir tayı lazımdır. Axı bir ayağım yoxdur...

– Nə olsun, oğlum? Kiminin ayağı yoxdur, kiminin əli, kiminin ağlı, kiminin də **əqidəsi.** Məncə, əqidəsi olmamaqdansa, ayağı olmamaq daha yaxşıdır.

– Əqidə nədir?

– Hələ balacasan. Böyüyəndə başa düşərsən.

Bunu deyib Əşrəf əmi ayaqqabını uşağa uzatdı. Oğlan ayaqqabının üstünə yapışdırılmış qiymət kağızına baxıb tez geri qaytardı:

– Yox, bağışlayın. Ala bilmərəm.

– Niyə, pulun çatmır? Problem deyil. Nəzərə alaq ki, sən ayaqqabının bir tayını alacaqsan. Deməli, pulun yarısını verəcəksən. Bu eləyir... – Əşrəf əmi kalkulyatoru götürüb hesabladı, – on iki manat əlli qəpik. İki aydan sonra bu ayaqqabılara 20% endirim olacaq. Sənin üçün endirim **mövsümünü** qabağa çəkərəm...

**b** **Oğlanın almaq istədiyi ayaqqabının ilkin satış qiyməti neçə manat idi?**

– Bəs ayaqqabının o biri tayını nə edəcəksiniz?

– Dostum, söhbəti uzatdın ha! – Əşrəf əmi ərklə dedi. – Mən sənin işlərinə qarışmıram ki. Sən də mənim işimə qarışma. Onu da sağ ayağı olmayan adama satacağam. Hə, yeri gəlmişkən, sən bu məktəbdə oxuyursan, eləmi? Mən bu məktəbin uşaqlarına hər ayaqqabıda beş manat **güzəşt** edirəm. Deməli, sənin mənə borcun beş manatdır.




Dükan sahibi uşağın çaşqın nəzərlərinə fikir vermədən onun köhnə ayaqqabısını çıxarıb yenisini geydirdi.

– Əla! – deyə öz işindən razı halda ayağa qalxıb ayaqqabıya baxdı. – Uşaqlar sənə **həsəd aparacaqlar.**

Sonra Əşrəf əmi uşağın köhnə ayaqqabısını götürüb ora-burasına baxdı:

– Bu ayaqqabını daha geyinməyəcəksən?

– Yox.

– Mən bu ayaqqabını alardım. Neçəyə deyirsən?

Uşaq heyrətlə dükan sahibinə baxdı:

– Siz nə danışırsınız?! Onun dabanı **yırtılmaq** üzrədir.

**Söz mücrüsü**

• cüzi • tələbat • qoltuqağacı • əqidə • qənaət • yırtılmaq • yırtıq • zilləmək • mövsüm • güzəşt • həsəd aparmaq

Əşrəf əmi gülümsündü:

– Dostum, sənin ayaqqabı alverindən başın çıxmır. Heç mağazada satılan cins şalvarları görmüsən? Ağarmış, dizi **yırtıq** şalvarları. Bəziləri belə geyim üçün əldən-ayaqdan gedirlər. Güman edirəm ki, sənin bu ayaqqabını ən azı on beş manata sata bilərəm. Beş manat mənim satıcılıq haqqım, beş manat da təzə ayaqqabı üçün sənin borcun. Deməli, mənim sənə beş manat borcum qalır.

Bunu deyib Əşrəf əmi cibindən beş manat çıxartdı və uşağa uzatdı.

Balaca oğlan hadisələrin bu cür gedişindən özünü tamam itirmişdi. Hər şey ona yuxu kimi gəlirdi. Anasının ayaqqabı üçün verdiyi 15 manata **qənaət** etmişdi. Hələ üstəlik ona pul da təklif edirdilər.

– Yox, götürmərəm, – dedi. – Siz mənim üçün endirim etdiniz. Mən də sizin üçün endirim edirəm.

– Nə yaxşı! Çox sağ ol. Vallah, bu gün mənim üçün çox uğurlu gündür.

Əyilib uşağın üzündən öpdü. Oğlan da qoltuqağacını buraxıb iki əli ilə onun boynunu qucaqladı. Bu zaman o, Əşrəf əminin gözlərinin necə yaşardığını görmədi.

*Rafiq İsmayılov*

## Söz ehtiyatı

**c** **Mətndə “əqidə” sözünü hansı cümlədəki fərqləndirilmiş sözlə əvəz etmək olar?**

**a.** Müəllimin şagirdlərinə olan ***inamı*** onların uğur qazanmasında mühüm rol oynadı.
**b.** O hər zaman öz ***məslək*** yoldaşları ilə birlikdə xalqın yanında olub.
**c.** Xalqının azadlığı uğrunda mübarizə aparmaq onun ***amalına*** çevrilmişdi.
**d.** İnsanlar müxtəlif dini ***etiqadlara*** malik olsalar da, birgə yaşamağı bacarmalıdırlar.

**ç** **“Mövsüm” sözünün izahları ilə cümlələrdəki mənaları arasındakı uyğunluğu müəyyən edin. Mətndə bu söz hansı mənada işlənmişdir?**

***1.*** *İlin bölündüyü dörd fəsildən hər biri*
***2.*** *İlin müəyyən təbiət hadisəsi ilə xarakterizə edilən dövrü*
***3.*** *Hər hansı fəaliyyətin icrası üçün əlverişli şərait olan müddət*

***a.*** *Ekvatora yaxın ərazilərdə ildə iki dəfə yağışlar mövsümü müşahidə edilir.*
***b.*** *Azərbaycanda çimərlik mövsümü, adətən, iyunun 15-də açılır.*
***c.*** *Giləmeyvələrin çoxu yay mövsümündə yetişir.*

**d** **Mətnə əsasən aşağıdakı ifadələrin mənasını izah edin. Bu ifadələri yaxınmənalı sözlərlə əvəz edin.**

- ***həsəd aparmaq***
- ***gözlərini zilləmək***

## Nə anladın?

**e** **Mətndə hansı suala cavab yoxdur?**

**a.** Ayaqqabı mağazası harada yerləşirdi?
**b.** Hadisələr hansı fəsildə baş vermişdi?
**c.** Oğlanın neçə yaşı var idi?
**d.** Oğlan hansı səbəbdən sol ayağını itirmişdi?

## Düşün və cavab ver

**ə** **Kalkulyatorun ekranında Əşrəf əminin apardığı hesab təsvir olunub. Şəkillərdən istifadə etməklə satıcının hesablamasını şərh edin.**

*Nümunə*

Əşrəf əmi deyir:
– Onu da nəzərə alaq ki, sən ayaqqabının bir tayını alacaqsan. Deməli, pulun yarısını verəcəksən. Bu eləyir...




**f** **Əşrəf əminin nitqinə aid cümləni bir daha oxuyun. Sizcə, həqiqətən də, Əşrəf əmi uğurlu alver etmişdi? O nə üçün həmin günü uğurlu hesab edirdi?**

*– Nə yaxşı! Çox sağ ol. Vallah, bu gün mənim üçün çox uğurlu gündür.*

**g** **Mətnin giriş hissəsi neçə abzasdan ibarətdir? “Xatırla” rubrikasındakı məlumatlara istinad edərək fikrinizi əsaslandırın.**

**Xatırla**

Mətnin giriş hissəsində, adətən, bu məlumatlar verilir:
- hadisələrin yeri
- zaman
- əsas obraz

**2 a** **“İdman ayaqqabısı” mətnindəki hadisələri oğlanın dilindən nəql edin. Oğlanın duyğu və düşüncələrini əks etdirməklə mətni genişləndirin.**

- Mağazanın vitrinindəki idman ayaqqabısını görəndə duyğuları
- Ayaqqabının qiyməti haqqında fikirləri
- Dükan sahibinin təklifi qarşısında keçirdiyi hisslər
- Dükan sahibinə qarşı münasibəti

**b** **Sizcə, Əşrəf əmi oğlana yardım etmək istəyərkən onun haqqında nə düşünürdü? Mətn Əşrəf əminin dilindən nəql olunsaydı, o, düşüncələrini necə ifadə edərdi?**

**c** **Sizcə, Əşrəf əmi nə üçün uşağın köhnə ayaqqabısını satın alır? Niyə ona yardım etmək istədiyini birbaşa söyləmir?**

**ç** **Mətnə istinad edərək dükan sahibinin xarakterini səciyyələndirin. Mətnin əsas ideyasını Əşrəf əminin xarakteri ilə əlaqələndirib şərh edin.**

- sadə • zəhmətkeş • nəcib • həssas • xeyirxah

**d** **Sizcə, Əşrəf əminin davranışı oğlanın bir şəxsiyyət kimi formalaşmasına necə təsir edəcək? Şəklə və təxəyyülünüzə əsasən oğlanın gələcək həyatı və cəmiyyətdəki yeri haqqında danışın.**




**e** **Təsəvvür edin ki, sahibkarsınız. Xeyriyyə məqsədilə hansı tədbirlər görərdiniz?**

- “Uşaq kitabları və məktəb ləvazimatı” mağazasının sahibi
- Özəl klinikanın sahibi
- Özəl təhsil ocağının direktoru
- Restoranlar şəbəkəsinin sahibi

## Dinləmə 01

**ə** **Sizcə, bir insana heç bir qarşılıq gözləmədən edilən yardımın dəyəri nədir? Heç tanımadığınız birinə kömək edərdinizmi?**

**f** **“Asqıda qəhvə” mətnini dinləyin. Mətnə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edin.**

**1.** Hadisələr İzmirdə bir kafedə baş verir.
**2.** Bəzi müştərilər içdikləri qədər deyil, daha çox qəhvə sifariş edirdilər.
**3.** Kasıb adam kafedə süpürgəçi işləyirdi.
**4.** Kafedə üç fincan qəhvə alana ikisi hədiyyə edilirdi.
**5.** Müştərilər tanımadıqları insanlara yardım edirdilər.
**6.** İzmirdə insanlar qarşılıq gözləmədən bir-birini yeməyə də qonaq edirlər.

**g** **Mətnə əsasən “Asqıda qəhvə” ifadəsini izah edin. İzmirdə bu ənənə nə məqsədlə tətbiq olunur?**

**ğ** **Aşağıdakı atalar sözünü “Asqıda qəhvə” mətninin ideyası ilə əlaqələndirib şərh edin.**

*Yaxşılıq elə, at dəryaya, balıq bilməsə də, Xaliq* biləр.*

***Xaliq** – xəlq edən, yaradan, Allah*

## Yazı

**3 a** **Aşağıdakı şəkillər və plan nümunəsi əsasında təmənnasız yardım mövzusunda “Rəfdə kitab” adlı kiçik hekayə yazın.**

### Hekayənin planı:

***Giriş***
- Ucqar dağ kəndi
- Mütaliəni sevən imkansız uşaq

***Əsas hissə***
- Kənd meydanında üzərində “Rəfdə kitab” yazılmış bir qutu
- Uşağın “Rəfdə kitab” qutusundan istifadə etməsi

***Nəticə***
- İllər sonra
- Uşağın naşir olması
- “Rəfdə kitab” layihəsini davam etdirməsi



## Yazı

**4 a** **Lüğətin köməyi ilə cümlələrdə fərqləndirilmiş sözlərin yazılışındakı səhvi müəyyən edin.**

**1.** Audio və video ***apparatlardan*** müxtəlif məqsədlərlə istifadə edilir.
**2.** Yük maşını çınqıl döşənmiş ***şosse*** yolu ilə ağır-ağır irəliləyirdi.
**3.** ***Kompyuter*** sözünün mənası “mexaniki hesablama qurğusu” deməkdir.
**4.** ***Xobbilər*** insan həyatında çox müsbət dəyişikliklər yarada bilir.

**Bunları bilməliyik** RUS-AVROPA MƏNŞƏLİ SÖZLƏRİN YAZILIŞI

Azərbaycan dilinə rus və Avropa dillərindən keçmiş bir çox sözlər mənbə dildəkindən fərqli yazılır. Məsələn, tərkibində eyni qoşa samit olan bəzi alınma sözlər mənbə dildə olduğu kimi, qoşa samitlə, bəziləri isə bir samitlə yazılır.

**Azərbaycan dilində bir samitlə yazılan sözlər:**

| İngilis dilində | Rus dilində | Azərbaycan dilində |
|---|---|---|
| di**ff**erential | ди**фф**еренциальный | di**f**erensial |
| acce**ss**ory | аксе**сс**уар | akse**s**uar |
| proce**ss** | проце**сс** | prose**s** |

**Azərbaycan dilində qoşa samitlə yazılan sözlər:**

| İngilis dilində | Rus dilində | Azərbaycan dilində |
|---|---|---|
| sy**mm**etry | си**мм**етрия | si**mm**etriya |
| e**ff**ect | е**фф**ект | e**ff**ekt |
| aggre**ss**ion | агре**сс**ия | aqre**ss**iya |

**b** **Lüğətin köməyi ilə aşağıdakı sözlərin bir və yaxud qoşa samitlə yazıldığını müəyyənləşdirib sözləri tamamlayın.**

ka...et (**s, ss**)
qra...atika (**m, mm**)
ma...aj (**s, ss**)
spage...i (**t, tt**)
a...estat (**t, tt**)
o...onent (**p, pp**)
para...el (**l, ll**)
a...ord (**k, kk**)
a...likasiya (**p, pp**)

**c** **Uyğun hərf(lər)i əlavə edib sözləri tamamlayın. Lüğət vasitəsilə dəqiqləşdirin.**

stre... (**s,** yoxsa **ss**)
konqre... (**s,** yoxsa **ss**)
ekspre... (**s,** yoxsa **ss**)
teleqra... (**m,** yoxsa **mm**)
kro... (**s,** yoxsa **ss**)
diaqra... (**m,** yoxsa **mm**)

**Bunları bilməliyik** RUS-AVROPA MƏNŞƏLİ SÖZLƏRİN YAZILIŞI

Mənbə dildə "u" və ya "ю" [yu] saiti ilə yazılan sözlər dilimizdə "ü" hərfi ilə yazılır:

| İngilis dilində | Rus dilində | Azərbaycan dilində |
|---|---|---|
| aluminum | алюминиум | alüminium |
| etude | этюд | etüd |

Rus dilində sonu "a" ilə bitən alınma sözlər iki cür yazılır: "a" ilə və "a"sız:

| İngilis dilində | Rus dilində | Azərbaycan dilində |
|---|---|---|
| norm | норма | norma |
| planet | планета | planet |

**ç** **Sözləri orfoqrafik normalara uyğun yazın.**

**1.** Müəllim müzakirədən qabaq bizə sorğu ***anketası*** payladı.
**2.** Usta evimizin damında yeni ***antena*** quraşdırdı.
**3.** O, sənədləri imzalatmaq üçün ***byuroya*** getdi.
**4.** Oxuduğu informativ mətnin ***strukturasını*** müəyyənləşdirdi.
**5.** O, ***kompyuter*** mühəndisliyi ixtisasını seçdi.

**Bunları bilməliyik**

Avropa mənşəli bir sıra sözlər Azərbaycan dilinə rus dili vasitəsilə keçib. Avropa dillərindəki bir çox sözlərdə işlənən "h" hərfi rus dilində "г" (q) və ya "x" (x) hərfi ilə, "g" hərfi isə "г" (q) hərfi ilə işarə olunur. Azərbaycan dilində bu samitlər əksər hallarda mənbə (Avropa) dillərdə olduğu kimi yazılır:

| Mənbə dildə | Rus dilində | Azərbaycan dilində |
|---|---|---|
| hectare | гектар | hektar |
| hymn | гимн | himn |
| hobby | хобби | hobbi |
| agent | агент | agent |
| generator | генератор | generator |

**d** **Uyğun hərfi əlavə edib sözləri tamamlayın. Lüğət vasitəsilə dəqiqləşdirin.**

**"h", "q", yoxsa "x":**
...ektar, ...okkey, ...ot-doq, ...ipotez, ...ibrid, ...ospital, ...egemon, ...idrogen, ...uliqan
**"g", yoxsa "q":**
...eneral, ...itara, ...enetika, ...imnastika, ...eolo...iya, ...i...iyena

**1 a “Güvənc” sözünün izahına əsasən aşağıdakı ifadələrin mənasını şərh edin.**

*arxalanmalı, etibar olunmalı, güvəniləsi adam*

- *güvənmək*
- *güvənsiz*
- *güvənini qazanmaq*
- *Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış.*

**b İnsanların bir-birinə güvənməsi münasibətlərə necə təsir göstərir? Başqasının güvənini qazanmaq üçün nə etmək olar?**

## MƏHƏLLƏ DÜKANINDA

Sadə geyimli yad bir adam məhəllə dükanına girir. Bir qədər satıcıya, **piştaxtaya** baxandan sonra deyir:

– Qardaş, mən səndən **nisyə** çörək, çay, yumurta istəsəm, verərsənmi?

Satıcı ilk dəfə gördüyü bu adamın xahişindən bir qədər təəccüblənsə də, çörək verməyi **vəd edir** və səbəbini də belə açıqlayır:

– Qardaş, bu dəftəri görürsənmi, borc dəftəridir. Bu məhəllədə tanıdığım adamlara ay boyunca nisyə ərzaq verirəm. Eləsi var ki, üç aydan bəri pulsuz çörək aparır. Doğrusu, heç onun bu haqqı ödəyəcəyinə də inanmıram. Amma neyləyim, üç uşağa baxır, balalarının ac qalmağına razı ola bilmərəm axı. Allah kərimdir, bizim də ruzimizi yetirər. Sənə verdiyim çörəyə görə də heç haqq istəmirəm. Götür, get, halal xoşun olsun.



Yad adamın üz-gözündə təbəssüm dolaşır. Axtardığını tapmış kimi görünür:

– Sənin o dəftərində nə qədər borc var?

Satıcı bir qədər təəccüblə soruşur:

– Bunu bilmək sənin nəyinə gərəkdir?

Gələn adam rahatlıqla, bir qədər də güvənverici bir tərzdə söhbəti davam etdirir:

– Sənin o dəftərini satın alacağam. Xahiş edirəm ki, oradakı bütün borcları elə indicə hesablayıb deyəsən.

Satıcı bir qarşısındakı adama, bir də dolub-daşan dəftərə baxır. Deyəsən, etiraz etmək istəmir. Yanındakı kalkulyatoru götürüb birinci səhifənin başından üzüaşağı hesablamağa başlayır. Məlum olur ki, məhəllə camaatı bu dükana min üç yüz qırx beş manat səksən qəpik borcludur.

Gələn adam pencəyinin cibindən bir dəstə pul çıxarıb o məbləği satıcının qarşısına qoyur və deyir:

– Qardaş, Allah səndən razı olsun! Sən bu camaata bu qədər güvənirsənsə, Allahı düşünüb imkansızları ac qoymursansa, demək, yaxşı adamsan. Mən hər kəsin borcunu ödədim. Bu da mənim bu camaata Ramazan payım olsun. İndi o dəftəri mənə ver. Mən onu aparıb basdıracağam və inanıram ki, gün gələcək, bu dəftərin **savabı** mənim köməyim olacaq.

Adam dəftəri götürüb mağazadan çıxdı.

Dükançı qarşısındakı pulları sayıb daxılın gözünə qoydu. O, hələ də baş verənləri tam anlaya bilmirdi. Dükanın balaca pəncərəsindən çölə baxdı. Yad adam görünmürdü. İftar saatına az qaldığı üçün hər kəs evinə tələsirdi. Bu zaman əri vərəm xəstəliyindən ölmüş Sürəyyanın yeddi yaşındakı qızı qapının ağzında göründü və utana-utana dedi:

– Əhməd əmi, anam deyir ki, **iftara** bir çörək, üç yumurta versin. Gələn ay dayım bizə gələndə pulunu verərik.

Dükançı kiçik qızın sözlərindən elə bil ki yuxudan ayıldı. Adəti üzrə dəftəri çıxarmaq üçün əlini piştaxtanın altına atdı. Bir an dayandı, gülümsündü və dedi:

– Gəl, ay qızım, nə istəyirsənsə, götür. Anana da de ki, bu gündən sonra sizin borcunuz yoxdur. Nə yaxşı ki, həyatda xeyirxah, mərhəmətli insanlar var.

*“Tumurcuq” jurnalından*



**Söz mücrüsü**

- nisyə
- piştaxta
- vəd etmək
- iftar
- savab

## Söz ehtiyatı

**c** **“Söz mücrüsü”ndən izahlara uyğun sözləri seçin.**

**1.** Bir şeyin nağd pul olmadan alınması və ya satılması
**2.** Dükanda satıcı ilə alıcını bir-birindən ayıran uzun stol
**3.** Oruc açma, oruc açdıqda yeyilən yemək
**4.** Bir işi edəcəyinə söz vermək, öhdəsinə götürmək
**5.** İslam dininə görə yaxşı, xeyirxah iş

**ç** **“Savab” sözünün izahına əsasən “savab qazanmaq” ifadəsinin mənasını izah edin və mətnin məzmunu ilə əlaqələndirib bu haqda danışın.**

**d** **Aşağıdakı ifadələrdə “nisyə” sözünün mənasını izah edin. Hansı ifadədə bu söz məcazi mənada işlənmişdir?**

- *nisyə mal*
- *nisyə söhbət*

**“Nisyə” sözünün məcazi mənasına əsasən aşağıdakı ifadələri izah edin və lüğət vasitəsilə dəqiqləşdirin. Sizcə, bu ifadələr hansı situasiyalarda işlənə bilər?**

- *nağdı qoyub nisyə dalınca getmək*
- *nağdı nisyəyə satmaq*

## Nə anladın?

**2 a** **Mətnə əsasən suallara cavab verin.**

**1.** Mətndəki hadisələr harada baş verir?
**2.** Yad adam satıcıdan hansı ərzaqları nisyə istədi?
**3.** Satıcı yad adama nisyə çörək verməyə niyə razı oldu?
**4.** Satıcının borclulara qarşı münasibəti necə idi?
**5.** Satıcının dəftərində ümumilikdə nə qədər borc vardı?

## Düşün və cavab ver

**b** **Yad adam və dükançı obrazlarını müqayisə edin. Onların davranışlarında hansı oxşar cəhətlər var? Hər iki obraz insanlara hansı dəyərləri aşılayır? Aşağıdakı fikri obrazların davranışı ilə əlaqələndirib şərh edin.**

***Əsl səxavət heç kəs görməyəndə və qarşındakının qürurunu sındırmadan edilən yaxşılıqdır.***

**c** **Mətnin əsas ideyası nədir? Bu hekayə cəmiyyətdə hansı dəyərlərin önəmli olduğunu göstərir?**

## Dinləmə 02

**ç** **“Müqəddəs bayramlar” mətnini dinləyin və tapşırıqları yerinə yetirin.**

**d** **Aşağıdakı plan bəndlərindən biri mətnə aid edilə bilməz:**

**A.** milli-mənəvi dəyərlərin yaşadılıb gənc nəslə ötürülməsi
**B.** cəmiyyətdə həmrəylik, xeyirxahlıq və qarşılıqlı anlayışın möhkəmlənməsi
**C.** milli dəyərlərin qorunması
**D.** bağışlama və savab qazanma
**E.** maddi qazancın artması

**e** **Aşağıdakı fikirlərdən uyğun olanları seçərək “Məhəllə dükanında” (MD) və “Müqəddəs bayramlar” (MB) mətnlərini müqayisə edin.**

| | | |
|---|---|---|
| **1.** Müəllifin əsas məqsədi obrazın daxili aləmini açmaq, oxucunu müəyyən mənəvi dəyərlər haqqında düşündürməkdir. | **MD** | **MB** |
| **2.** Müəllifin məqsədi mövzu haqqında fikir bildirməkdir. | **MD** | **MB** |
| **3.** Mətndə dialoqlara geniş yer verilib. | **MD** | **MB** |
| **4.** Müəllif fikirlərini nümunələrlə izah edir. | **MD** | **MB** |

**ə** **Yad adamın və dükançının düşüncələrini “Müqəddəs bayramlar” mətnində verilmiş fikirlərlə əlaqələndirərək şərh edin.**

## Təqdimat

**3** **a** **Qruplarla iş.** **Təlimata əsasən “Dünya xalqlarının müqəddəs bayramları” mövzusunda araşdırma aparın və təqdimat hazırlayın.**

**I qrup:** Ramazan (islam)
**II qrup:** Pasxa (xristianlıq)
**III qrup:** Milad (xristianlıq)
**IV qrup:** Divali (induizm)

**Təlimat:**
- Bayramın adı və qeyd edilmə məqsədi
- Bayramın qeyd olunduğu vaxt
- Bayramın özünəməxsus ənənələri
- Xeyriyyə və yardımlaşma ilə bağlı ənənə və mərasimlər

**b** **Təqdimatlara əsasən bayramları mənəvi dəyərlər və mərasimlər baxımından müqayisə edin.**

**1.** Oxşar cəhətlər
**2.** Fərqli cəhətlər

## Yazı

**4 a** **Cümlələrdəki fərqləndirilmiş ifadələrə əsasən uyğunluğu müəyyən edin.**

**1.** ***Azərbaycan Respublikasının*** ərazisi 86.6 min km$^2$-dir.
**2.** ***Ramazan bayramında*** süfrələrdə bol şirniyyat və yeməklər olur.
**3.** ***"Sirlər xəzinəsi"*** Nizami Gəncəvinin ilk poemasıdır.
**4.** ***Bakı Dövlət Universiteti*** Azərbaycanın ilk ali təhsil ocağıdır.

**a.** təşkilat **b.** əsər **c.** dövlət **ç.** bayram

**Bunları bilməliyik** MÜRƏKKƏB ŞƏXS ADLARININ YAZILIŞI

Söz birləşməsi şəklində olan adlara **mürəkkəb adlar** deyilir.
Ad, soyad, təxəllüsdən ibarət mürəkkəb şəxs adlarının tərkibindəki bütün sözlərin ilk hərfi böyük yazılır: *Məhəmməd Füzuli, Mübariz İbrahimov.*
Bəzi mürəkkəb şəxs adlarının tərkibində ***mirzə, hacı, şeyx, seyid, şah, sultan, ağa, bəyim, xatun, bəy, xan*** və s. kimi titul bildirən sözlər olur. Bu sözlər mürəkkəb adın əvvəlində gələndə böyük, sonda və ya ortada gələndə kiçik hərflə yazılır: *Şah İsmayıl, Hacı Qara, Abbasqulu ağa Bakıxanov, Ağa Məhəmməd şah Qacar.*

**b** **Mürəkkəb şəxs adlarını orfoqrafik normalara uyğun yazın.**

*cəlil məmmədquluzadə, mirzə fətəli axundov, Fətəli Xan Xoyski, ibrahimxəlil xan, seyid əzim şirvani, həsən bəy zərdabi, sultan süleyman qanuni*

**Bunları bilməliyik** MÜRƏKKƏB YER ADLARININ YAZILIŞI

Yer adlarının tərkibindəki küçə, ada, çay, şəhər, dağ və s. məkan bildirən sözlər kiçik hərflə yazılır: *Xəzər dənizi, Mil düzü, Kür çayı, Böyük Qafqaz dağları.*
Bəzi mürəkkəb yer adlarının tərkibində işlənən ***cənubi, şərqi, aşağı, orta, uzaq*** və s. kimi cəhət, istiqamət, ərazi bildirən sözlər böyük hərflə yazılır: *Cənubi Afrika, Orta Asiya, Şimali Koreya, Yaxın Şərq, Yuxarı Quşçu, Aşağı Güzdək.*

**c** **Mürəkkəb yer adlarını orfoqrafik normalara uyğun yazın.**

*isa bulağı, şuşa şəhəri, şəhidlər xiyabanı, azadlıq prospekti, araz çayı, muğan düzü, azov dənizi, cənubi azərbaycan, orta anadolu, böyükşor gölü, şərqi zəngəzur*

**ç** **Cümlələrdə səhv yazılmış sözləri seçib düzgün yazın.**

**1.** Zəngin sualtı aləminə malik Qırmızı Dəniz dalğıclar üçün ideal məkandır.
**2.** Çox hissəsi buzla örtülmüş şimal buzlu okeanı Avrasiya və şimali Amerika materiklərinin sahilləri ilə əhatə olunur.
**3.** Sara Xatun Azərbaycanın ilk diplomat qadınıdır.

## Ümumiləşdirici təkrar

**1** **Sözlərdə vurğunun yerini müəyyənləşdirin və cədvəl üzrə qruplaşdırın.**

*empatiya, biznes, antivirus, ekologiya, defis, diqqətlə, kosmos, monoloq, hamı, esse, kenquru, bomboş, dizayner, lotereya, kompüter, bankomat, çünki, qlobus*

| Vurğusu birinci hecaya düşən sözlər | Vurğusu ikinci hecaya düşən sözlər | Vurğusu üçüncü hecaya düşən sözlər |
|---|---|---|
| | | |

**2** **Sözləri orfoqrafik normalara uyğun yazın.**

*[madel], [persanaj], [aperator], [mantaj],*
*[k'arrek'tor], [paravoz], [arnament], [k'anstruk'siya]*

**3** **Vurğunun yerini dəyişməklə hər sözü iki fərqli cümlədə işlədin.**

*yazdır, elektrik, dondurma, güldür, dimdik, komik, qazma, bildir*

**4** **Fərqləndirilmiş sözlərdən yazılışı səhv olanları müəyyən edin.**

1. ***Applikasiya*** uşaqların yaradıcılıq bacarıqlarını inkişaf etdirməyə kömək edir.
2. ***Attestat*** alan məzunlar üçün məktəbdə təntənəli tədbir keçirildi.
3. Mağazada müxtəlif növ saç ***aksessuarları*** satılır.
4. Bu ***diaqramm*** statistik məlumatları daha aydın şəkildə göstərir.
5. Musiqi dərsində müəllim bizə çətin bir ***etüd*** ifa etdirdi.
6. Məqalənin ***strukturu*** giriş, əsas hissə və nəticədən ibarətdir.

**5** **Aşağıdakı şəxs adlarını qaydaya uyğun olaraq düzgün yazın.**

*hacı zeynalabdin Tağıyev, Yusif Ağa, şah təhmasib, Məhəmməd hadi, Əhməd Bəy Cavanşir, əli bəy hüseynzadə, Məhəmməd Şah*

**6** **Mürəkkəb yer adlarını seçin və düzgün yazın.**

1. Şuşaya gedəndə yuxarı gövhər ağa məscidini də ziyarət etdik.
2. Biz kür çayı sahilində düşərgə qurduq, gözəl bir həftə keçirdik.
3. Efes kiçik asiyanın ən qədim şəhərlərindən biridir.
4. Təbriz şəhəri cənubi Azərbaycanın əsas mədəniyyət mərkəzlərindəndir.
5. Azərbaycanın şimal-şərq sərhədi Xəzər Dənizi ilə əhatə olunur.

bölmə **2** # İncəsənət

**a** **Azərbaycan incəsənəti haqqında nə bilirsiniz? Onun hansı sahələri sizi daha çox maraqlandırır? Ən çox sevdiyiniz sənətkarlar və sənət əsərləri haqqında danışın.**

**b** **Dahilərin sənət haqqında söylədikləri fikirləri bölmənin mövzusu ilə əlaqələndirib şərh edin.**

*Sənət xalq üçündür. Xalqın qəlbinə yol tapmayan sənət sənət deyil. (Üzeyir Hacıbəyli)*
*Mən təbiətin hər daşında, hər budağında bir sirr görürəm. Rəssam bu sirri rənglə açmalıdır. (Səttar Bəhlulzadə)*

**c** **Qruplarla iş. Məlumat vərəqlərindən və əlavə biliklərinizdən istifadə etməklə Azərbaycanda incəsənətin müxtəlif sahələri ilə bağlı təqdimatlar edin.**

**I qrup**

## AZƏRBAYCAN MUSİQİSİ



### *Aşıq musiqisi*

- **İfaçı** – aşıq
- **Məşhur aşıqlar:** Qurbani (XVI əsr), Aşıq Abbas Tufarqanlı (XVII əsr), Aşıq Valeh (XVIII əsr), Aşıq Ələsgər (1821–1926) və s.
- 2009-cu ildə aşıq sənəti UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.



### *Muğam*

- **Muğam triosu:** tarzən, kamançaçı, xanəndə
- **Muğamlar:** Rast, Segah, Şur, Bayatı-Şiraz və s.
- 2003-cü ildə Azərbaycan muğamı UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.



### *Klassik musiqi*

- **Tarixi:** XX əsrin əvvəlləri
- **Banisi:** Üzeyir Hacıbəyli
- **Bəstəkarlar:** Qara Qarayev, Fikrət Əmirov, Niyazi və s.

### *Musiqi alətlərimiz*

- **Simli:** tar, kamança, saz
- **Nəfəs:** balaban, zurna
- **Zərb:** nağara, qaval, dəf

### II qrup

## AZƏRBAYCAN TƏSVİRİ İNCƏSƏNƏTİ



***Ən qədim nümunələr:***
- Qobustan qaya təsvirləri
- Gəmiqaya dağındakı qayaüstü təsvirlər

***Əsas istiqamətlər:***
- Tətbiqi incəsənət (geyim, xalçaçılıq, memarlıq və s.)
- Ornament və kalliqrafiya
- Miniatür sənəti: əlyazma kitablara çəkilən illüstrasiyalar
- Avropa incəsənətinin təsiri (XIX əsrdən başlayaraq)



***Azərbaycan rəssamlığının tanınmış nümayəndələri:***
- Bəhruz Kəngərli (mənzərə və məişət səhnələri)
- Əzim Əzimzadə (karikatura)
- Səttar Bəhlulzadə (mənzərə)
- Toğrul Nərimanbəyov (böyük kompozisiyalar)
- Mikayıl Abdullayev (portret)

### III qrup

## AZƏRBAYCAN TEATRI



***Azərbaycan teatr sənətinin ən qədim nümunələri:***
- xalqın adət-ənənəsi ilə bağlı mərasimlər
- xalq oyunları

***İlk tamaşa:***
- Mirzə Fətəli Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran” komediyası, 1873-cü il

***İlk professional teatr kollektivi:***
- Həsən bəy Zərdabinin Bakıda təşkil etdiyi “Birinci müsəlman dram truppası” (1896-cı il)

***Dramaturqlar:***
- Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə və s.

**1 a** **Məşhur Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli haqqında bildiklərinizi danışın. Bu şəxsiyyətin həyat və yaradıcılığı haqqında daha nələri öyrənmək istərdiniz?**

## ÜZEYİR HACIBƏYLİ



Üzeyir Hacıbəyli Azərbaycanın dahi bəstəkarıdır. O, eyni zamanda **musiqişünas** alim, **publisist,** dramaturq, **pedaqoq** və ictimai xadim olmuşdur.

Üzeyir Hacıbəyli 18 sentyabr 1885-ci ildə anadan olmuşdur. O, Azərbaycan mədəniyyətinin ən böyük mərkəzlərindən biri olan, ***"Qafqazın konservatoriyası"*** adlandırılan Şuşa şəhərində böyümüşdür. Buranın zəngin musiqi mühitində Üzeyir xalq musiqisini və muğamatı dərindən mənimsəmişdir.

Üzeyir Hacıbəyli ilk təhsilini Şuşada ikisinifli rus-Azərbaycan məktəbində almışdır. 1899–1904-cü illərdə Gürcüstanda yerləşən Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir. Seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuş, klassik musiqi əsərlərini mənimsəmiş, musiqi alətlərində çalmağı öyrənmişdir.

XX əsrin əvvəllərindən başlayaraq Üzeyir bəy Azərbaycanın inkişafı üçün çoxcəhətli fəaliyyət göstərmişdir.

**Söz mücrüsü**
- musiqişünas
- publisist
- pedaqoq

**b** **Qruplarla iş. Üzeyir Hacıbəylinin yaradıcılığı haqqında mətnləri oxuyun. Hər hissəyə aid açar sözləri müəyyən edin və yarımbaşlıqla adlandırın. Hər bir hissə ilə bağlı məlumat vərəqi hazırlayıb sinfə təqdim edin.**

### I qrup

Üzeyir Hacıbəylinin pedaqoji fəaliyyəti Azərbaycan xalqının maariflənməsində mühüm rol oynamışdır. O, müəllim kimi fəaliyyət göstərməklə kifayətlənməmiş, dərsliklər yazaraq təhsilin inkişafına böyük **töhfə** vermiş, təhsil ocaqlarının yaradılmasında iştirak etmişdir.

1904-cü ildə Qori Müəllimlər Seminariyasını bitirən Üzeyir bəy bir il Cəbrayıl bölgəsində müəllimlik etmişdir. 1905-ci ildə Bakıya köçərək əvvəlcə Bibiheybət məktəbində, sonra isə "Səadət" məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir. O, burada ana dili, rus dili, hesab və musiqi fənlərindən dərs demişdir.

Üzeyir bəy xalqın ana dilində təhsil almasını son dərəcə vacib hesab edirdi. Bu məqsədlə o, bir sıra dərsliklər hazırlamışdı. Onun Azərbaycan dilində yazdığı “Hesab məsələləri” dərsliyi riyaziyyatın tədrisində vacib rol oynamışdır. Sadə və aydın dildə təqdim olunan məsələlər şagirdlərin riyazi təfəkkürünün formalaşmasına kömək etmiş, ana dilində elmi biliklərin mənimsənilməsini asanlaşdırmışdır.



**Söz mücrüsü**

- töhfə
- siyasi
- iqtisadi
- hüquqi
- mətbuat

Bəstəkar həmçinin “**Mətbuatda** istifadə olunan **siyasi, hüquqi, iqtisadi** və hərbi terminlərin türk-rus və rus-türk lüğəti”ni nəşr etdirmişdir. Bu lüğət o dövrün mətbuat işçiləri, müəllimləri, tələbələri və dövlət qulluqçuları üçün dəyərli vəsait olmuşdur. Lüğət vasitəsilə oxucular müxtəlif sahələrə aid terminləri daha yaxşı anlayırdılar. Azərbaycanda tərcümə ədəbiyyatının inkişafında bu lüğətin böyük rolu olmuşdur.

Üzeyir Hacıbəyli 1920-ci illərdə Bakı Musiqi Texnikumunun, 1921-ci ildə isə Azərbaycan Dövlət Konservatoriyasının yaradılmasında fəal iştirak etmişdir. O bu təhsil ocaqlarında Azərbaycan xalq musiqisinin əsasları və bəstəkarlıq üzrə dərs demiş, çoxsaylı istedadlı bəstəkar və musiqişünaslar yetişdirmişdir.

### II qrup

Üzeyir Hacıbəyli Azərbaycan **peşəkar** musiqisinin banisi, Yaxın Şərqdə ilk operanın müəllifi və milli musiqi məktəbinin yaradıcısıdır. O, bəstəkar kimi Azərbaycan xalq musiqisinin zəngin ənənələrini Qərb musiqisi ilə birləşdirərək klassik musiqinin xalq arasında sevilməsinə nail olmuşdur.

Üzeyir Hacıbəyli 1908-ci ildə “Leyli və Məcnun” operasını yaratdı. O bu əsərlə Şərq aləmində opera sənətinin **təməlini qoydu.**



ОПЕРА НА МУСУЛЬМАНСКОМЪ ЯЗЫКѢ.

ТЕАТРЪ Г. З. А. ТАГІЕВА.

Въ субботу, 12-го января 1908 года

Оперными артистами театральной секціи О-ва „НИДЖАТЪ“ подъ наблюденіемъ авторовъ и при участіи любителей представлено будетъ первый разъ на мусульманской сценѣ ОПЕРА

ЛЕЙЛИ И МЕДЖНУНЪ

въ 5 дѣйств. и 6 картинахъ, передѣланная изъ поэмы ФИЗУЛИ и переложенная на музыку братьями У. и Дж. Гаджибековыми.

Восточный оркестръ подъ управленіемъ Курбана. При полныхъ обстановкахъ и новыхъ костюмахъ, сшитыхъ спеціально для этой пьесы.

Для дамъ-мусульманокъ имѣются закрытыя ложи. | Цѣны мѣстамъ бенефисн.

Начало ровно въ 8½ часовъ вечера.

Билеты заблаговременно продаются въ читальнѣ О-ва „Ниджатъ“, а въ день спектакля отъ 10 до 2 и отъ 5 час. до окончанія спектакля.

АНОНСЪ: Въ понедѣльникъ, 14 января пред. будетъ „ГЯВЭ“.

Общія расп. А. Вели. Режиссеръ Араблинскій.

Въ субботу, 12 января 1908 г.,

въ залахъ Бакинскаго Общественнаго Собранія

состоится

*“Leyli və Məcnun” operasının afişası, 1908-ci il*

Ü.Hacıbəyli öz məqalələrindən birində “Leyli və Məcnun”un yaranma tarixini işıqlandıraraq yazırdı ki, təxminən 1897–1898-ci illərdə hələ on üç yaşında olarkən doğma şəhəri Şuşada “Məcnun Leylinin məzarı üstündə” adlı musiqili səhnəyə baxır. Bu musiqili tamaşa onu çox həyəcanlandırır və yaddaşına **həkk olunur.** Bir neçə ildən sonra Qori Müəllimlər Seminariyasını bitirib Bakıya gələrkən o məhz Füzulinin “Leyli və Məcnun” poeması əsasında opera yazmaq haqqında düşünür və tezliklə bu fikrini həyata keçirir.

Ardınca bəstəkar “Şeyx Sənan”, “Rüstəm və Söhrab”, “Əsli və Kərəm”, “Koroğlu” kimi operalar, “Arşın mal alan”, “O olmasın, bu olsun” kimi operettalar bəstələmişdir. Xüsusilə “Koroğlu” operası Üzeyir Hacıbəyli yaradıcılığının zirvəsi sayılır. Bu opera dünyanın bir çox səhnələrində tamaşaya qoyulmuşdur.

**Söz mücrüsü**
- peşəkar
- həkk olunmaq
- təməlini qoymaq

### III qrup

Üzeyir Hacıbəyli həm də istedadlı publisist kimi Azərbaycan mətbuatının inkişafında mühüm rol oynamışdır.



Üzeyir bəyin publisistik fəaliyyəti, əsasən, XX əsrin əvvəllərindən — milli oyanış və mətbuatın canlandığı bir dövrdən başlayır. O, “Azərbaycan” qəzetinin redaktoru kimi fəal ədəbi yaradıcılıqla məşğul olurdu. Üzeyir bəy dövrünün bir çox qəzet və jurnallarında müxtəlif məqalələr, **felyetonlar** dərc etdirmişdir. Yazıları çox kəskin olduğuna görə “Millət tərəfdarı”, “Namuslu”, “Rəhmsiz”, “Yalançı”, “Zurnaçı” və s. gizli imzalarla **dərc olunurdu.**

**Söz mücrüsü**
- felyeton
- dərc etmək

Görkəmli publisist qələmi ilə cəmiyyətin düşüncəsinə təsir göstərməyə çalışmış, savadsızlığa, geriliyə qarşı mübarizə aparmış, xalqın maariflənməsi, qadın azadlığı və milli musiqinin inkişafı üçün çalışmışdır. O, xalqı düşünməyə, öz hüquq və dəyərlərinə sahib çıxmağa çağırırdı. Onun məqalələri sadə və anlaşılan dildə yazıldığı üçün geniş oxucu kütləsi tərəfindən qəbul edilirdi.

### IV qrup




XX əsrin əvvəllərində bir çox xalqlar kimi, Azərbaycan da çar Rusiyasının **əsarətində** idi. 1917-ci ildə çar Rusiyası dağıldı. Azərbaycan öz müstəqil dövlətini qurdu. Bütün müstəqil dövlətlər kimi, milli hökumətini, ordusunu yaratdı. Azərbaycan öz gerbi, üçrəngli bayrağı və himni ilə müstəqil dövlət kimi digər dövlətlər arasında öz layiqli yerini tutdu.

1918–1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövründə Üzeyir Hacıbəyli dövlət müstəqilliyinin möhkəmlənməsi üçün **təbliğat** və maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur. Azərbaycan Respublikasının Dövlət Himni bəstəkarın yaradıcılığında xüsusi yer tutur. 1992-ci ildə müstəqil Azərbaycan Respublikası da bu marşı yenidən dövlət himni olaraq qəbul etmişdir. Bu himn milli qürur və vətənpərvərlik hisslərinin **təcəssümüdür.**

**Söz mücrüsü**
- təcəssüm
- təbliğat
- əsarət

Bəstəkarın başqa bir məşhur əsəri – "Çırpınırdı Qara dəniz" – türk dünyasının birliyi və qardaşlığı ideyasını əks etdirir. Bu mahnı XX əsrin əvvəllərində Azərbaycan və Türkiyə xalqları arasında mənəvi körpü rolunu oynamış, sonradan bütün türk dünyasının rəmzi himninə çevrilmişdir.

## Söz ehtiyatı

**2 a Verilmiş izahlara əsasən "bəstəkar" və "publisist" sözlərinin mənalarını müəyyən edin.**

***bəstə*** *– musiqi, mahnı, nəğmə, hava*
***-kar*** *– sözlərə qoşularaq hər hansı peşə sahibi və ya keyfiyyət mənası əmələ gətirən şəkilçi*
***publik*** *(lat. publicus) – ictimai, ümumi*
***-ist*** *– sözlərə qoşularaq hər hansı sahədə fəaliyyət göstərən şəxs mənası yaradan şəkilçi*

**b "Musiqişünas" sözündə *-şünas* şəkilçisinin funksiyasını izah edin. Bu şəkilçini *-çi* şəkilçisi ilə əvəz etsəniz, sözün mənası dəyişərmi? Sizcə, bu şəkilçilər həmişə bir-birini əvəz edə bilərmi? Aşağıdakı nümunələr əsasında fikrinizi əsaslandırın.**

*sabirşünas, şərqşünas, hüquqşünas, qapıçı, odunçu, üzgüçü, dilçi*

• **Sözlərlə şəkilçiləri uyğunlaşdırın.**

| | |
|---|---|
| **1.** ədəbiyyat | **a.** -kar |
| **2.** dəniz | **b.** -şünas |
| **3.** peşə | **c.** -ist |
| **4.** ideal | **ç.** -çı$^4$ |

**c** **Aşağıdakı cümlələrdə "təməlini qoymaq" ifadəsinin mənasına diqqət edin. Bu ifadə hansı cümlədə mətndəki mənasında işlənmişdir?**

**1.** "Əsrin müqaviləsi" Azərbaycanda iqtisadi yüksəlişin təməlini qoymuşdur.
**2.** Keçən il yaz aylarında daha bir yaşayış binasının təməli qoyuldu.

**ç** **Musiqi fənnindən aldığınız bilgilərə istinad edərək Venn diaqramı qurmaqla opera ilə operetta arasındakı fərqi izah edin.**

## Düşün və cavab ver

**d** **Mətnə əsasən Üzeyir Hacıbəylinin fəaliyyət sahələrinə aid nümunələr söyləyin.**

- bəstəkar
- publisist
- pedaqoq
- ictimai xadim

**e** **Sizcə, Şuşanı nə üçün "Qafqazın konservatoriyası" adlandırırlar? Mətndə bu ifadə nə üçün dırnaq içərisində yazılıb? Aşağıdakı məlumatlara və "konservatoriya" sözünün izahına əsasən fikrinizi şərh edin.**

**Sözlərin izahı**

**Konservatoriya** – musiqi təhsili verən ali məktəb.

**Sadıqcan** – Azərbaycan musiqiçisi, tarzən, bəstəkar
*1846-cı ildə Şuşada anadan olmuşdur. Tar alətini təkmilləşdirmiş, simlərin və pərdələrin sayında dəyişiklik etmiş, beləliklə, tarın səslənmə və virtuoz ifaçılıq imkanlarını genişləndirmişdir. O, Şuşada məşhur müğənni və ifaçılardan ibarət ilk musiqi ansamblı yaratmışdır.*



**Cabbar Qaryağdıoğlu** – xanəndəlik sənətinin görkəmli nümayəndəsi
*1861-ci ildə Şuşada anadan olmuşdur. 500-dən artıq Azərbaycan xalq mahnısını işləmiş, İran, Türkiyə dövlət başçılarının məclislərində ifa etmişdir. Azərbaycan xanəndəlik sənətinin yaradıcılarından hesab olunur. İlk opera aktyoru kimi də yaddaşlarda qalmışdır.*



**Bülbül** – Azərbaycan opera müğənnisi, peşəkar vokal sənətinin banisi
*1897-ci ildə Şuşada anadan olmuşdur. 1927-ci ildə Bakı Konservatoriyasını, 1931-ci ildə Milan (İtaliya) Konservatoriyasını bitirmişdir. Bir çox operalarda əsas rolların, o cümlədən "Koroğlu" rolunun ən mahir ifaçısı olmuşdur.*



**Xan Şuşinski** – xanəndə, Azərbaycan muğamlarının mahir ifaçısı
*1901-ci ildə Şuşada anadan olmuşdur. Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski kimi muğam ustalarından dərs almışdır. Bakıda "Muğam studiyası" yaratmış və burada gənc xanəndələrə muğamın sirlərini öyrətmişdir.*



**3 a** **Sizcə, bir sənətkarın həyat və yaradıcılığının öyrənilməsində müasirlərinin xatirələri nə üçün əhəmiyyətlidir?**

**Sözlərin izahı**

**Xatirə** – müəllifin şahidi olduğu, yaxud iştirak etdiyi hadisələr haqqında yazısı.

**b** **Üzeyir Hacıbəylinin və onun müasirlərinin xatirələrini oxuyun. Hansı faktlar "Üzeyir Hacıbəyli" mətnindəki məlumatları təsdiq edir? Xatirələrdən Üzeyir bəyin yaradıcılığı və şəxsiyyəti haqqında daha hansı məlumatları aldınız?**

"Mən seminariyanın ikinci sinfində idim ki, il yarımdan sonra müəllim olacaqdım. Bizə "Mən gələcəkdə nə iş görəcəyəm?" sərlövhəsi altında bir məqalə yazmağı tapşırdılar. Mən yazdım ki, məktəblərimiz üçün ana dilində tədris olunmaqdan ötrü dərs kitabları tərtib edəcəyəm. Mənim bu fikrim direktorun xoşuna gəlməmişdi. Məni çağırıb dedi: "Müəllimlər sənin yazdığına "3" qiyməti qoyublar, amma mən sənə "2" yazıram. Çünki qanmıram ki, sən nə deyirsən...".



***Üzeyir Hacıbəyli***



Ü.Hacıbəylinin dərsləri çox maraqlı və cəlbedici idi. Müəllim kimi o çox istedadlı idi. Üzeyir bəy elə edirdi ki, tələbə, bir növ, onun elmi axtarışlarının yaradıcısına çevrilsin. O, tələbənin səhvlərini çox ustalıqla, onun üzünə vurmadan, qürurunu tapdalamadan düzəldirdi.

***Bəstəkar Cövdət Hacıyev***

Üzeyir bəylə tanışlığımız "Molla Nəsrəddin" jurnalı ilə başladı. Onun özü satiraçılıqda qüdrətli qələmə malik olduğu üçün satira yazanlarla tanış olmağı da sevirdi. O mənə yazdığı məktubunda deyirdi: "Səid! Təəccüb edirəm ki, nə üçün Ordubadda qapanıb qalmısan. Sən yığışıb Bakıya gəlsən, öz yazılarına çox geniş səhifələr tapa bilərsən. Sənin "Molla Nəsrəddin" məcmuəsində oxuduğum satiran çox xoşuma gəldi. Yorğun olduğum vaxt onları götürüb oxuyuram. Mən məsləhət görürəm ki, belə şeyləri yazanda oxucunu yalnız güldürməyə diqqət vermə, onları düşündürməyə də çalış".



***Yazıçı Məmməd Səid Ordubadi***

Üzeyir bəy musiqi əsərlərinin dili haqqında belə deyərdi:

– Hər xalqın, hər ədəbiyyatın milli dili olduğu kimi, musiqi əsərlərinin də milli dili var. Necə ki danışıqda, yazıda dil gərək sərrast olsun, söz, cümlə boğazdan rahat keçsin, elə də musiqi əsərinin dili aydın, rəvan, axıcı olmalıdır ki, xalq onu anlasın, başa düşsün.



Mən soruşdum:

– Bəs onda, Üzeyir bəy, biz Bethoven, Motsart, Çaykovski kimi böyük bəstəkarların əsərlərini necə anlayırıq?

– Çünki hər xalqın musiqi əsəri onun öz dilində olanda başqa xalqlara da anlaşıqlı olur. Sən deyən böyük bəstəkarların hamısı öz xalqlarının musiqisini, musiqi dilini yaxşıca öyrəniblər. Ondan istifadə ediblər, elə şeylər yazıblar, xalq onları başa düşsün, qəbul etsin, sevsin. Uydurma şeyləri, ahəngdən, melodiyadan məhrum olan əsərləri öz xalqın da, başqa xalqlar da çətin sevərlər.

***Yazıçı Mirzə İbrahimov***



...Müharibə illəri idi. Bir gün Üzeyir bəy dərsdə rəngimi solğun görüb soruşdu: "Bəlkə, acsan?" "Yox", – deyə utanıb üzümü yana çevirdim. O özü üçün gətirdiyi yağ-çörəyi çıxarıb mənə verdi. Üstəlik çay da gətizdirdi.

Müharibə illərində Üzeyir müəllim öz qonorarından mənimlə Ağabacı Rzayevaya maddi yardım kəsdirirdi.

***Bəstəkar Şəfiqə Axundova***

## Nə anladın?

**C** **Aşağıdakı cümlələri hansı sənətkarların xatirəsinə əlavə etmək mümkündür?**

**1.** O hər bir tələbəyə suallar verir, müzakirələr açır, onları öz fikirlərini sərbəst söyləməyə və yaradıcılığa təşviq edirdi.
**2.** O vaxtdan bəri mən müəllimlik fəaliyyətimdə ana dilinin tədrisinə xüsusi önəm verməyə və milli dərsliklər yaratmağa çalışdım.
**3.** Biz Üzeyir bəyi yalnız böyük sənətkar kimi deyil, həm də mehriban və qayğıkeş insan kimi xatırlayırıq.
**4.** Musiqinin dili haqqında danışanda xalq mahnılarından misallar çəkirdi.
**5.** Üzeyir bəyin bu sözləri yaradıcılığımda böyük rol oynadı, satiralarımın təsirli olması üçün xeyli çalışdım.

## Dinləmə 03

**4 a** **Qeydlər götürməklə “Unudulmaz obraz” mətnini dinləyin və tapşırıqları yerinə yetirin.**



**b** **Şəklə və mətnin məzmununa əsasən “natura” sözünün mənasını izah edin.**

*Xeyli danışıqdan sonra Üzeyir bəy portretinin naturadan çəkilməsinə razılıq verdi.*

**c** **Mətnə əsasən aşağıdakı suallara cavab verin.**

**1.** Mətn kimin dilindən nəql edilir?
**2.** Mətndəki hadisələr nə vaxt baş vermişdi?
**3.** Dəftərxana işçiləri nəyə təəccübləndilər?
**4.** Dəftərxana müdiri anlaşılmazlığa necə son qoydu?
**5.** Üzeyir bəy nə üçün portretin naturadan çəkilməsinə narazılıq edirdi?

**ç** **Mətnə əsasən doğru və ya yanlış fikirləri müəyyən edin.**

**1.** Mikayıl Abdullayev Üzeyir bəyin portretini foto əsasında çəkmişdi.
**2.** Üzeyir bəyin portretini Azərbaycan Dövlət Teatr Muzeyi sifariş etmişdi.
**3.** Portret tamamlandıqdan sonra birbaşa muzeyə təhvil verilmişdi.
**4.** Portret o qədər canlı alınmışdı ki, xidmətçi onu insan sanmışdı.
**5.** Üzeyir bəy hadisəyə yumorla yanaşmışdı.

**d** **Mətnin sonuncu cümləsini şərh edin.**

*Böyük bəstəkar isə deyərdi ki, bax ikinci portret özü müəllifsiz imtahandan çıxdı...*

**e** **Bu fəsildə aldığınız məlumatlara və aşağıdakı şəkillərə əsasən “Dahi bəstəkarın adının əbədiləşdirilməsi” mövzusunda təqdimat hazırlayın.**




*110 illik yubileyinə həsr edilmiş marka*




*Üzərində təsviri olan qızıl xatirə sikkəsi*




*Vyanada Üzeyir Hacıbəylinin abidəsi*

## Yazı

**5 a** **Mürəkkəb sözlərin tərkib hissələrinə diqqət edin. Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** mer-meyvə | **a.** eyni sözün təkrarı |
| **2.** irili-xırdalı | **b.** müxtəlifmənalı sözlərin birləşməsi |
| **3.** gülə-gülə | **c.** bitişdiricilərin iştirakı ilə eyni sözün təkrarı |
| **4.** dəmirağac | **ç.** əksmənalı sözlərin iştirakı |
| **5.** ağıllı-kamallı | **d.** biri ayrılıqda işlənə bilməyən sözlərin iştirakı |
| **6.** taybatay | **e.** yaxınmənalı sözlərin birləşməsi |

**b** **Cümlələrdəki mürəkkəb sözlərin yaranma yollarını müəyyən edin.**

**1.** Qarabağda aparılan bərpa-quruculuq işləri sürətlə davam edir.
**2.** Yay tətilində o, dənizkənarı istirahət mərkəzinə getməyi planlaşdırır.
**3.** Üzeyir Hacıbəyli ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmişdir.
**4.** O bilirdi ki, gec-tez bu sirrin üstü açılacaq.
**5.** Üzeyir bəy məqalələrini "Filankəs", "U", "Üzeyir" imzaları ilə yazırdı.
**6.** Ömrün əziz günləri birbəbir yada gəldi. *(S.Rüstəm)*

**c** **Verilmiş sözlərin köməyi ilə mürəkkəb sözlər düzəldib yazın.**

| | | Nümunə |
|---|---|---|
| Əksmənalı sözlər | *gündüz, get, dərə* | *gecə-gündüz* |
| Eyni sözlərin təkrarı | *tez, gülə, az* | *tez-tez* |
| Ayrılıqda işlənə bilməyən sözlər | *əyri, kağız, qara* | *əyri-üyrü* |
| Yaxınmənalı sözlər | *adət, gözəl, gül* | *adət-ənənə* |
| Müxtəlifmənalı sözlər | *göz, ayaq, dəvə* | *gözmuncuğu* |

**ç** **Nöqtələrin yerinə *a, ha, ba, bə* bitişdiricilərindən uyğun gələnini yazmaqla cümlələri köçürün.**

**1.** Müəllim məsələnin həlli yolunu addım...addım izah edirdi.
**2.** Elə gəl...gəlin belə də get...gedi olar. *(Atalar sözü)*
**3.** Birdən camaatın arasına qaç...qaç düşdü.
**4.** Azərbaycanın beynəlxalq aləmdə nüfuzu gün...gün artır.

**d** **Hər sırada səhv yazılmış sözü müəyyən edin. Mürəkkəb sözlərin yazılışına aid bilgilərinizə əsasən seçiminizi izah edin.**

| | | | |
|---|---|---|---|
| **a.** gözü-tox | **b.** qəm-qüssə | **c.** gediş-gəliş | **d.** bərli-bəzəkli |
| **a.** balacaboy | **b.** səsküy | **c.** dost-düşmən | **d.** qarabaqara |
| **a.** gethaget | **b.** qaça-qaç | **c.** ağbəniz | **d.** əzik-üzük |

**e** **Cümlələrdə azaltma və çoxaltma dərəcəsində işlənmiş sifətlərin düzgün yazılışını müəyyən edin.**

**1.** Məktubun sarı-təhər kağızı onun neçə illər öncə yazıldığını göstərirdi.
**2.** Qızın düm qara saçları ay işığında parıldayırdı.
**3.** Layihənin işləri alayarımçıq olduğu üçün vaxtında təhvil verilə bilmədi.
**4.** Tünd qırmızı güllər bağçaya xüsusi yaraşıq verirdi.

**ə** **Verilmiş sözləri ümumi mənasına görə cədvəl üzrə qruplaşdırın.**

*mişar, süd, şalvar, ayaq, kəlbətin, əmi, qatıq, nənə, qol, köynək, xama, mala, bibi, palto, çənə, don, ana, ayran, rəndə, papaq, çiyin, çəkic*

| qohum | ərzaq | əmək aləti | geyim | bədən üzvü |
|---|---|---|---|---|
| | | | | |

**f** **Verilmiş mürəkkəb sözlərin tərkibindəki sözlərin mənasını izah edin. Onların bildirdiyi ümumi mənanı müəyyənləşdirin.**

*alma-armud* *dəftər-kitab* *süd-qatıq*

**Bunları bilməliyik** **HİPONİMLƏRDƏN YARANAN MÜRƏKKƏB SÖZLƏR**

Bir çox mürəkkəb sözlərin komponentləri arasındakı məna yaxınlığı nisbidir. Məsələn, "top-tüfəng" sözünün komponentləri – "top" və "tüfəng" fərqli anlayışları ifadə edir. Bu sözlər hiponimlərdir. Onların ümumi mənası, yəni hiperonimi eynidir: silah. Belə sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözlər defislə yazılır: *toyuq-cücə, taxta-şalban, söz-söhbət, qoyun-quzu* və s.

**g** **Uyğunluğu müəyyənləşdirərək hiponimlərin iştirakı ilə mürəkkəb sözlər yaradıb yazın.**

**I**

| | |
|---|---|
| **1.** dost | **a.** kitab |
| **2.** dəftər | **b.** uşaq |
| **3.** meyvə | **c.** qanad |
| **4.** oğul | **ç.** tərəvəz |
| **5.** qol | **d.** tanış |

**II**

| | |
|---|---|
| **1.** şimal | **a.** nəticə |
| **2.** dil | **b.** qərb |
| **3.** şalvar | **c.** bıçaq |
| **4.** çəngəl | **ç.** köynək |
| **5.** nəvə | **d.** dodaq |

**ğ** **Mürəkkəb sözlər düzəldin. Həmin sözlər bitişik, yoxsa defislə yazılmalıdır? Fikrinizi əsaslandırın.**

*qara* → *qura*, *bəniz*, *göz*

*açıq* → *ürəkli*, *saçıq*, *aşkar*

*gül* → *çiçək*, *çöhrə*, *bəniz*

# Əsrin dahisi – sənətin fədaisi

**1 a** **Rəsm əsərinə diqqətlə baxın. Hər bir detalı nəzərdən keçirin. Əsər haqqında məlumatı oxuyun və suallar əsasında tablonu şərh edin.**



***"Torpağın arzusu"***

**Rəssam:** Səttar Bəhlulzadə
**Tarixi:** 1963
**Janr:** peyzaj
**Ölçüləri:** 150 sm × 225 sm
**Materialı:** kətan, yağlı boya
**Saxlanıldığı yer:** Azərbaycan Milli İncəsənət Muzeyi

**Sözlərin izahı**

**Peyzaj** – təbiətin təsviri.
Peyzaj bədii əsərdə qəhrəmanın əhvali-ruhiyyəsi, xarakteri ilə əlaqələndirilir.

1. Rəsm əsərində ilk olaraq diqqətinizi çəkən nə oldu?
2. Əsərdə hansı rənglər üstünlük təşkil edir? Bu rənglər sizdə hansı əhvali-ruhiyyə yaratdı?
3. Ön planda, orta hissədə və arxa planda nələr görürsünüz?
4. Sizcə, bu əsər hansı fəsli təsvir edir? Niyə belə düşünürsünüz?

**b** **İndi isə həmin mənzərənin sözlə təsvirini oxuyun. Mətndə işlənən bənzətmələrə əsasən cədvəli tamamlayın. Peyzajın yaradılmasında bənzətmənin rolunu izah edin.**

Ucsuz-bucaqsız bir çəmənlik uzanır göz önündə. Al-qırmızı lalələr küləyin ahəstə toxunuşuyla dəniz kimi dalğalanır. Göylərə doğru boylanan lalə tarlası sanki yerin nəfəsini, torpağın ruhunu daşıyır. Rəngbərəng çiçəklər arasına səpələnmiş yaşıl otlar mənzərəyə xüsusi gözəllik qatır. İrəlidə sakit bir göl görünür. Gölün suyu o qədər durudur ki, sanki güzgüdür. Ətrafdakı hər şeyi: buludları, quşları, yamyaşıl təpələri özündə əks etdirir.

Təpələrin arxasında mavi-bənövşəyi rəngdə dağlar ucalır. Duman içindəki dağlar sanki yorğana bürünərək yuxuya gedib. Dağların arasından qalxan incə buxar sütunları göyə yüksəlir.

Göldən o tərəfdə isə rəngbərəng əkin sahələri var. Bu sahələr rəssamın palitrası kimi görünür. Hər rəng insanda ayrı bir hiss oyadır.

Göy üzü dəstə-dəstə uçan quşlarla doludur. Onlar bu sakit mənzərəyə can verir, hərəkət və ritm qatır.

| Bənzətmə | Bənzəyən | Bənzədilən |
|---|---|---|
| Lalələr küləyin ahəstə toxunuşuyla dəniz kimi dalğalanır. | | |
| Gölün suyu o qədər durudur ki, sanki güzgüdür. | | |
| Dağlar dumana elə bürünüb ki, sanki yorğandır. | | |
| Əkin sahələri rəssamın palitrası kimi görünür. | | |

**c** **Mətnin ilk cümləsini bir daha oxuyun. Sizcə, nə üçün müəllif cümlədə söz sırasını pozub? Söz sırasını bərpa edib cümləni yenidən oxuyun. Cümlələrin təsir gücünü müqayisə edin.**

**Sözlərin izahı**

**İnversiya** – cümlədə adi söz sırasının dəyişdirilməsi ilə yaradılan bədii ifadə üsulu. Söz və ifadələrin inversiya yolu ilə yerdəyişməsi bədii dili daha güclü və təsirli edir.

**ç** **Hansı cümlələr daha yüksək bədii təsir gücünə malikdir? Səbəbini izah edin.**

**A)** Dəyişir donunu meşə, dağ, dərə.
**B)** Meşə, dağ, dərə donunu dəyişir.

**A)** Həzin nəğmə deyir indi bağça, bağ.
**B)** İndi bağça, bağ həzin nəğmə deyir.

**2 a** **“Torpağın arzusu” tablosuna bir daha nəzər salın. Siz bu əsəri necə adlandırardınız? Mətni oxuyun və mətni yazmaqda müəllifin məqsədini müəyyən edin.**

## TORPAĞIN ARZUSU



*Dünyada gözəllik yaradan sənət sahələrindən biri də rəssamlıqdır. Bu sənətin ən böyük ustalarından biri Səttar Bəhlulzadə olmuşdur. O, Azərbaycanın tanınmış rəssamı və peyzaj janrının əsl ustasıdır. Bu böyük rəssamın əsərləri rəng palitrasının zənginliyi ilə seçilir və dünyanın ən qiymətli inciləri sırasında dayanır.*

*Səttar Bəhlulzadənin sənətə verdiyi böyük töhfələrə görə 2009-cu ildə UNESCO (dünyanın mədəni irsini qoruyan beynəlxalq təşkilat) onu dünyanın ən görkəmli şəxsiyyətlərindən biri kimi tanımışdır.*

***

Səttar Bəhlulzadənin ən yaddaqalan əsərlərindən biri də “Torpağın arzusu” adlanır. Müasirlərinin xatirələrində qeyd olunur ki, əslində, rəssamın özü kətan üzərindəki yazıda əsəri “Torpağın həsrəti” adlandırıb. Maraqlıdır, görəsən, nə üçün əsər məhz bu adla tanınır?

Çoxları, yəqin ki, əsərdə Ceyranbatan gölünün təsvir olunmasından xəbərsizdir. Ceyranbatan gölü Bakı ilə Sumqayıt arasında yerləşir. Bu göl Bakını içməli su ilə təmin edən əsas mənbələrdən biri idi. Gölün quruması şəhər əhalisini, o cümlədən Səttarı çox narahat edirdi. Azərbaycan təbiətinə aşiq olan rəssam bu acı mənzərəni öz gözləri ilə görmək istəyir.

Bir gün o, Sumqayıta gedən avtobusa minir və gölün yanında maşından düşür. Elə yerə ayaq basıb gölə üz tutduğu andan buradakı **cansıxıcı** görüntü rəssamı **sarsıdır.** O, gölün suyu çəkilmiş sahili boyunca xeyli gəzişir. Birdən qurumuş torpağın altından işıqlı dünyaya baxmağa can atan bir laləyə rast gəlir. Rəssam bu zərif varlığın böyük arzusunu dərindən duyur. Hiss edir ki, buraların laləzara dönməsi bütün torpağın arzusudur. Əyilib lalənin baş qaldırmasına mane olan **kəsəyi** ehmalca götürüb kənara atır. Xeyli vaxt sinəsi xallı laləyə, bir də ətrafa – bozumtul çöllərə baxır.

Səttar emalatxanaya qayıtdıqdan sonra aləmə haray salan “Torpağın arzusu”nu ərsəyə gətirir...

**Söz mücrüsü**

- cansıxıcı • sarsıtmaq • laləzar
- səciyyəvi • kəsək • təravətli

Tabloda buralar üçün **səciyyəvi** olmayan **laləzara** bürünmüşdü Ceyranbatan! Əslində, nə o vaxt, nə də sonralar bu gölün ətrafı əsərdəki kimi laləzara dönmədi. Səttar Bəhlulzadəni bir çox digər rəssamlardan fərqləndirən əsas cəhət də məhz bu idi: gözəllik axtarmaq yox, gözəlliyi yaratmaq! O, başqalarının diqqət etmədiyi yerlərdə: qurumuş torpaqda, bozumtul çöllərdə belə ruh, ahəng və rəng tapa bilirdi. Başqalarının "cansıxıcı" saydığı Abşeron mənzərəsini o, poetik və **təravətli** bir peyzaja çevirdi.

Rəssam özü həmişə deyərdi ki, Azərbaycan torpağının hər hansı guşəsini tanımaq üçün yox, tanıtmaq üçün çəkir.

## Söz ehtiyatı

**b** **"Söz mücrüsü"ndən izahlara uyğun gələn sözləri seçin.**

**1.** bir şəxsə, ya şeyə xas olan, onu başqalarından fərqləndirən
**2.** çiçəklik, güllük, laləlik, çoxlu lalə bitən yer
**3.** darıxdırıcı, usandırıcı, bezdirici, üzücü, çox maraqsız
**4.** quruyub bərkimiş palçıq topası
**5.** gözəl, cazibəli

**c** **"Sarsıtmaq" sözünün hansı izahı mətndəki mənasına uyğundur?**

**1.** Lərzəyə salmaq, titrətmək, yerindən oynatmaq, laxlatmaq, dağıtmaq, pozmaq, alt-üst etmək. □ *Zəlzələ bir çox binaları sarsıtdı.*
**2.** Məcazi mənada: bərk həyəcanlandırmaq, narahat etmək. □ *Olub-keçənlər Əşrəf kişini bərk sarsıtmışdı.*

## Düşün və cavab ver

**ç** **Aşağıdakı fikri oxuyun və mətnin məzmunu ilə əlaqələndirib şərh edin.**

*Gözəllik axtarmaq üçün deyil, onu yaratmaq üçün yaşamışdı Səttar Bəhlulzadə. O, təbiətin səsini eşidən, dağların nəfəsini duyan, çayların rəngini hiss edən rəssam idi.*

**d** **Səttar Bəhlulzadə əsərini nə üçün "Torpağın həsrəti" adlandırmışdır? Mətnin məzmununa əsasən əsərin adını şərh edin.**

**e** **Sizcə, nə üçün insanlar sonradan bu əsəri "Torpağın arzusu" adlandırdılar? Siz bu tablonu necə adlandırardınız?**

**3 a** **Qruplarla iş.** **Səttar Bəhlulzadənin mənzərə tablolarına baxın. Təqdim edilən məlumatlardan və söz ehtiyatından istifadə edərək qısa təsviri mətn yazın.**

**I qrup**



***"Amsar bağlarında"***

**Tarixi:** 1959
**Üslubu:** peyzaj
**Ölçüləri:** 132x200 sm
**Materialı:** kətan, yağlı boya
**Saxlanıldığı yer:** Azərbaycan Milli İncəsənət Muzeyi

**Söz ehtiyatı**

dağ zirvəsi, qarlı yamaclar, sakit, çəmənlik, alatoranlıq, günəşin zəif işığı, saralmış kollar, yumşaq otlar, cərgə ilə düzülmüş ağaclar, çəhrayı buludlar

**Qeyd:** Mətn yazarkən inversiya və bənzətmələrdən istifadə edin. Məsələn:
İnversiya: *Titrəyirdi çəmənlikdəki boynubükük bənövşələr.*
Bənzətmələr:

| Bənzəyən | Bənzədilən |
|---|---|
| ağaclar | sıra ilə düzülmüş əsgərlər |
| buludlar | səmanın üzərində üzən ağ yelkənli gəmilər |
| qarlı zirvələr | pambıq tayaları |
| otlar | yumşaq xalı |

## II qrup



*"Göygöl"*

**Tarixi:** 1964
**Üslubu:** peyzaj
**Ölçüləri:** 80x100 sm
**Materialı:** kətan, yağlı boya
**Saxlanıldığı yer:** Azərbaycan Milli İncəsənət Muzeyi

**Söz ehtiyatı**

əzəmətli dağlar, uca zirvələr, dağ silsiləsi, al-əlvan yamaclar, rəngarəng təbiət, dağların arasında yerləşən göl, duman örtüyü

**Qeyd:** Mətn yazarkən inversiya və bənzətmələrdən istifadə edin. Məsələn:
İnversiya: *Duman içində itib-batırdı ucsuz-bucaqsız dağlar.*
Bənzətmələr:

| Bənzəyən | Bənzədilən |
|---|---|
| yamaclar | rəssamın rəng palitrası |
| ağaclar | al-əlvan geyinmiş toy əhli |
| gölün səthi | hər şeyi əks etdirən güzgü |
| dağlar | ağ duvağa bürünmüş gəlin |

**4 a** **“Tənqid” sözünün izahı ilə tanış olun. Sizcə, hər hansı sənət əsərini tənqid etmək onu, sadəcə, pisləmək və ya tərifləməkdən nə ilə fərqlənir?**

***Tənqid*** *– hər hansı materialın, əsərin və s.-nin yaxşı cəhətlərini üzə çıxarmaq, nöqsanlarını göstərmək məqsədi daşıyan şifahi və ya yazılı təhlil.*

# USTADIN MƏSLƏHƏTİ



Hindistanda Ranqa adlı məşhur bir rəssam var idi. O, incəsənət məktəbi açmışdı və orada tələbələrə rəssamlıq sənətinin incəliklərini öyrədirdi. Bu məktəbdə dəqiq müəyyən olunmuş təhsil müddəti yox idi. Ranqa hər hansı bir tələbənin istedadına, biliyinə tam əmin olduqdan sonra onun məktəbi uğurla bitirdiyini elan edirdi.

Ranqanın istedadlı tələbələri çox idi. Lakin Rac adlı tələbə digərlərindən çox fərqlənirdi. Müəllimi də onun biliyindən, çalışqanlığından razı idi. Rac səbirsizliklə müəlliminin onu rəssam kimi sənət dünyasına təqdim etməsini gözləyirdi.

**Söz mücrüsü**

- məzun • qapılmaq • mükəmməl
- fürsət vermək • cürət etmək

Bir gün Rac müəlliminin yanına gəlib soruşdu:

– Müəllim, mən nə zaman **məzun** ola bilərəm?

Ranqa dedi:

– Rac, sən çox qısa zamanda rəssamlıq sənətinə yiyələnmisən. Artıq sonuncu imtahanını verə bilərsən.

– Bəs bunun üçün mən nə etməliyəm?

– Sən gözəl bir əsər çəkməlisən. Bu elə bir əsər olmalıdır ki, hər kəsi heyran etsin. Get və tələsmədən əsərini yarat.

Rac gecə-gündüz çalışdı və gözəl bir əsər çəkərək Ranqaya təqdim etdi. Ranqa şəkli bəyəndi və Raca tapşırıq verdi:

– Rəsmin, həqiqətən, çox gözəldir. İndi əsərin aşağısına böyük hərflərlə bu sözləri yaz: “Rəsmdə səhv görənlərdən xahiş olunur ki, həmin yerə “x” işarəsi qoysunlar”. Sonra rəsmi aparıb şəhərin mərkəzi meydanına qoy.

Rac Ranqanın dediklərinə əməl etdi. Bir neçə gündən sonra ustad şagirdindən gedib rəsmi gətirməsini istədi. Rac böyük həyəcanla şəhər meydanına getdi. Ancaq gördüyü mənzərə onu məyus etdi: əsər “x” işarəsi ilə dolu idi. Rac istedadsız olduğunu və bunun bütün şəhər tərəfindən təsdiq olunduğunu düşündü.

O qayıdıb gördüklərini müəllliminə danışdı. Ranqa gülümsədi, ona ümidsizliyə **qapılmamağı** və yeni bir əsər çəkməyi məsləhət gördü. Lakin bu dəfə şagirdinə rəsmin yanına boya ilə fırça qoymağı və aşağısına belə bir cümlə yazmağı tapşırdı: “Ləvazimatlardan istifadə edərək rəsmdə müəyyən etdiyiniz səhvləri düzəltməyiniz xahiş olunur”.




Rac belə də etdi. Bir neçə gündən sonra yenidən şəhər meydanına gedən Rac rəsmi görüb heyrətləndi: rəsmə nə bir işarə əlavə olunmuş, nə də yanındakı ləvazimatlara toxunulmuşdu. Rac çox sevindi və ustadının yanına gəlib hər şeyi ona danışdı. Ranqa gülümsəyərək tələbəsinə dedi:

– Rac, bu gün sən sonuncu dərsini almaqla təhsilini başa vurdun. Artıq məktəbimizin məzunusan. Unutma ki, hər hansı bir sahədə sənəti **mükəmməl** bilmək kifayət deyil, həm də dözümlü olmaq lazımdır. Sən bilməlisən ki, insanlar peşəkar olmadıqları mövzularda belə tənqid etməyə hər zaman hazırdırlar. Sən əvvəlcə əsərində səhvləri göstərmələri üçün insanlara **fürsət verdin** və onlar böyük həvəslə bunu etdilər: əsərin “x” işarələri ilə doldu. Ancaq həmin insanlardan səhvləri düzəltməyi xahiş etdikdə heç kim buna **cürət etmədi.** Çünki onların heç biri bu sahədə səndən bilikli və qabiliyyətli deyil.

Əziz oğlum, sənin biliyin, qabiliyyətin çox çalışmağının, səy göstərməyinin nəticəsidir. Sənə deyilən haqlı və ya haqsız tənqidlərə görə heç vaxt həvəsdən düşmə, özünə inamı itirmə. İlk tənqidçin özün ol və özünü qiymətləndir. Amma bu zaman ədalətli və dürüst ol. Səni əmin edirəm ki, belə etsən, hər zaman uğur qazanacaqsan. Get, oğlum, Tanrı səni qorusun!

Racın gözləri yaşarmışdı. Bu sonuncu dərs onun üçün əsl həyat dərsi oldu.

*(Qədim hind hekayəti)*

## Söz ehtiyatı

**b** **“Fürsət” sözünün izahı ilə tanış olun. Aşağıdakı ifadələri cümlələrdə işlədin.**

***Fürsət*** *– bir sözü demək və ya bir işi görmək üçün əlverişli an, münasib vaxt, məqam, müvafiq hal.* □ *Fürsət qanadlı quşdur, əldən qaçırmaq olmaz. (Atalar sözü)*

• fürsət vermək • əlinə fürsət düşmək • fürsəti qaçırmaq • fürsəti əldən vermək

**c** **“Söz mücrüsü”ndən izahlara uyğun gələn sözləri seçin.**

**1.** Cəsarət göstərmək, qorxmamaq, çəkinməmək
**2.** Hər hansı bir məktəbi bitirmiş tələbə, şagird
**3.** Bir şeyə həddindən artıq aludə olmaq
**4.** Heç bir qüsuru, kəsiri, nöqsanı olmayan; kəm-kəsirsiz

**ç** **Mətndən verilmiş cümləni bir daha oxuyun. “İncəlik” sözü bu cümlədə hansı mənasında işlənmişdir?**

*Ranqa incəsənət məktəbi açmışdı və orada tələbələrə rəssamlıq sənətinin **incəliklərini** öyrədirdi.*

**1.** Zəriflik, nəfislik, qəşənglik, gözəllik
**2.** Naziklik
**3.** Ən xırda təfərrüat, bir şeyin ən spesifik cəhəti

## Düşün və cavab ver

**d** **Mətnin əsas ideyasını ifadə edən fikirləri seçin və həyatdan nümunələr gətirməklə şərh edin.**

**1.** İnsanlar tənqidə hər zaman hazırdırlar, amma düzəltməyə gəlincə çoxu susmağa üstünlük verirlər.
**2.** İnsanlar sizdən onları tənqid etmənizi xahiş edərlər, amma qəlblərində istədikləri yalnız tərifdir. *(Uilyam Somerset Moem)*
**3.** Müəllifi tənqid etmək asan, qiymətləndirmək çətindir. *(Lyuk de Klapye Vovenarq)*
**4.** Tənqid – ədəbiyyat və sənət əsərlərinin gözəlliklərini, çirkinliklərini ortaya çıxaran bir elmdir. *(Aleksandr Puşkin)*

**e** **Ranqanın Raca verdiyi məsləhəti bir daha oxuyun və mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.**

*Unutma ki, hər hansı bir sahədə sənəti mükəmməl bilmək kifayət deyil, həm də dözümlü olmaq lazımdır. Sən bilməlisən ki, insanlar peşəkar olmadıqları mövzularda belə tənqid etməyə hər zaman hazırdırlar.*

**ə** **Sizcə, Ranqanın “sonuncu imtahan”ının məqsədi nə idi? Bu hadisə Racın gələcək həyatı üçün niyə önəmli idi?**

**5 a** **Sizcə, cümlələrdə yanaşı gələn hansı sözlər vahid məna bildirir, bir suala cavab verir və defislə yazılır?**

**1.** Parka başdan başa qızılgüllər əkilmişdi.
**2.** Arılar çiçəkdən çiçəyə qonurdu.

**Bunları bilməliyik** TƏRƏFLƏRİ QRAMMATİK ŞƏKİLÇİ İLƏ İŞLƏNƏN MÜRƏKKƏB SÖZLƏR

Eyni sözün təkrarı ilə yaranan bəzi mürəkkəb sözlərin tərəfləri qrammatik şəkilçi ilə işlənir. ***Məsələn:*** *üz-üzə, gündən-günə, daban-dabana* və s. Belə mürəkkəb sözlər:

- bir suala cavab verir;
- vahid məna bildirir;
- defislə yazılır.

Bəzən cümlələrdə eyni söz təkrar olunaraq yanaşı işlənir. Bunu eyni sözün təkrarından yaranan mürəkkəb sözlərlə səhv salmaq olmaz. Müqayisə et:
1. ***Birdən-birə*** (necə?) *hava tutuldu, yağış yağdı.*
2. ***Otaqdan*** (haradan?) ***otağa*** (haraya?) *keçərək qapının açarını axtarırdı.*

**b** **Hansı cümlələrdə fərqləndirilmiş sözlər defislə yazılmalıdır?**

**1.** Eyvazla Aslan **uzaqdan uzağa** qohum idlər.
**2.** Yad adam **səkidən səkiyə** keçərək sürətlə oradan uzaqlaşdı.
**3.** Qoşun **daşı daş** üstə qoymamışdı.
**4.** Bu şəhər haqqında əfsanə tezliklə **dildən dilə** düşüb yayıldı.
**5.** Xörəyi **qabdan qaba** boşaldanda tələsmə.

**Bunları bilməliyik** TƏRKİBİNDƏ ALINMA SÖZLƏR İŞLƏNƏN MÜRƏKKƏB SÖZLƏR

Dilimizdə bir çox mürəkkəb sözlər var ki, onların komponentlərindən birinə başqa sözlərdə də rast gəlinir. Onların əksəriyyəti sözün əvvəlində gəlir və bitişik yazılır: ***aero****dinamika,* ***mikro****elektronika,* ***video****maqnitofon.*
Tərkibində *art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse-* hissəcikləri olan mürəkkəb sözlər isə defislə yazılır: ***eks****-prezident,* ***əks****-hücum,* ***qeyri****-səmimi,* ***kontr****-admiral,* ***vitse****-spiker,* ***veb****-dizayner,* ***art****-biznes.*

**c** **Aşağıdakı sözləri tərkib hissələrinə ayırın. Hansı sözlər defislə yazılmalıdır?**

*mikroorqanizm, fotomüxbir, eksçempion, supermarket, qeyriadi, makromolekul əksistiqamət, artdizayn, videoarxiv, vitseprezident, multimilyoner*

# Cığır açan qadınlar

**1 a** **Bəzən peşə seçimindən söhbət düşəndə "kişi peşəsi", "qadın peşəsi" ifadələri işlədilir. Bu cür stereotiplərə münasibətinizi bildirin.**

**Sözlərin izahı**

**Stereotip** – hər hansı məsələ ilə bağlı şüurlarda kök salmış düşüncə, münasibət.

## Yazı

**b** **Məlumat vərəqlərini oxuyun. Verilmiş plan əsasında esse yazın.**



**Adı:** *Şövkət Məmmədova*
**Yaşadığı illər:** *18 aprel 1897, Tiflis – 8 iyun 1981, Bakı*
**Peşəsi:** *Azərbaycanın ilk peşəkar qadın opera ifaçısı, musiqi pedaqoqu*
**Təhsili:** *Tiflis Musiqi məktəbi, Milan Konservatoriyası (maddi çətinliklər səbəbi ilə burada təhsili yarımçıq qalır)*
**Səhnə fəaliyyəti:** *1912-ci ildə Üzeyir Hacıbəylinin "Ər və arvad" operettasında əsas rollardan biri. Avropa ölkələrində (İtaliya, Fransa, Rusiya) çıxışlar. Milli opera sənətimizin ilk böyük qadın siması.*
**Qarşılaşdığı çətinliklər:** *İlk dəfə səhnəyə çıxan azərbaycanlı qadın olur. Cəmiyyətdə qınaq və təhdidlərə məruz qalır. Stereotiplərə qarşı çıxır, cəmiyyətin sərt qadağaları ilə mübarizə aparır.*
**Pedaqoji fəaliyyəti:** *Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.*



**Adı:** *Qəmər Almaszadə*
**Yaşadığı illər:** *10 mart 1915 – 7 aprel 2006, Bakı*
**Peşəsi:** *Azərbaycanın ilk peşəkar balerinası və ilk qadın baletmeysteri*
**Təhsili:** *1930-cu ildə Bakı Xoreoqrafiya məktəbi, 1933–1936-cı illərdə Leninqrad Xoreoqrafiya məktəbi*
**İlk səhnə fəaliyyəti:** *1940-cı ildə Azərbaycanın ilk balet tamaşası olan "Qız qalası" baletində baş rol*
**Qarşılaşdığı çətinliklər:** *Qadınların səhnədə görünməsinin, sənətə qoşulmasının yolunu açıb. Cəmiyyətin mövcud qadağalarına və stereotiplərinə qarşı çıxıb. Səhnədə "qadın rəqs edə bilməz" düşüncəsini dağıdıb.*
**Pedaqoji fəaliyyəti:** *Azərbaycan Xoreoqrafiya məktəbində dərs deyib, sonradan həmin məktəbin direktoru olub.*

**Adı:** *Xədicə Əlibəyova*
**Yaşadığı illər:** *1884-cü il, Tiflis – 1961-ci il, Bakı*
**Peşəsi:** *Azərbaycanın ilk qadın redaktoru, publisist, naşir*
**Təhsili:** *Rus Qız gimnaziyası*
**Maarifçilik və mətbuat fəaliyyəti:** *"İşıq" qəzetinin təsisçisi (1911–1912). Qadın haqları, təhsil, mədəniyyət, sağlamlıq və uşaqların tərbiyəsi mövzularında maarifləndirici yazılar. (Qadın hüquqları uğrunda mübarizəyə səsləyən "Hüquqlarımız" adlı silsilə məqalələr)*
**Qarşılaşdığı çətinliklər:** *Qəzet qadın haqlarını müdafiə etdiyi üçün dövrün mühafizəkar dairələrinin təzyiqləri ilə qarşılaşdı. Nəticədə qəzetin fəaliyyəti 68 nömrədən sonra dayandı.*



## Essenin planı:

**Giriş**

*Mövzunun açıqlanması: Stereotiplərin qadınların inkişafına, təhsilinə, peşə fəaliyyətinə və ictimai roluna təsiri.*

**Əsas hissə**

*Mühakimələr:*
- *Qadın öz hüququnu tanımadan azad ola bilməz.*
- *Maarif qadının əlində çıraqdır.*
- *Qadının səsi millətin səsidir. Onun susması millətin susması deməkdir.*

*Nümunələr:*
- *Şövkət Məmmədova – səhnədə ilk qadın opera müğənnisi kimi çıxış edib.*
- *Qəmər Almaszadə – balet sənətini Azərbaycanda inkişaf etdirərək qadınların səhnəyə çıxması üçün yol açıb.*
- *Xədicə Əlibəyova – qadınların səsinin eşidilmədiyi, hüquqlarının tanınmadığı bir dövrdə mətbuatda onların haqlarını müdafiə etmişdi.*

**Nəticə**

- *Stereotipləri qıran qadınların cəmiyyətə təsiri*
- *İctimai düşüncənin və hüquqların dəyişməsi*
- *İctimai şüurda cinsi bərabərliyin bərqərar olması*

## Yazı

**2 a** **Hansı cümlədə fərqləndirilmiş sözlər bir suala cavab verir və bir cümlə üzvü kimi çıxış edir?**

**A.** Mən yeni **ünvanınızı bilmirəm.**
**B.** Bu məqaləni yenidən **yaza bilərəm.**

**Bunları bilməliyik** AYRI YAZILAN MÜRƏKKƏB SÖZLƏR

Elə mürəkkəb sözlər var ki, ayrı yazılır. Məsələn:
**Saylar:** *əlli üç, altmış birinci, bir sıra, ikidə bir* və s.
**Əvəzliklər:** *nə isə, hər kim, hər biri, hər nə, heç nə* və s.
**Feillər:** *nail olmaq, yardım etmək, oxuya bilmək* və s.
**Zərflər:** *hər an, bu gün, bir dəfə, bir qədər* və s.
**Köməkçi nitq hissələri:** *yəni ki, doğrudan da, bəlkə də, ay aman, ay can* və s.

**b** **Ayrı yazılan mürəkkəb sözləri tapın və hansı nitq hissəsi olduğunu müəyyən edin.**

**1.** Heç kim mübarizəni görmədən uğurunu qiymətləndirə bilməz.
**2.** Bir çox insanlar uğurun yalnız bacarıqdan ibarət olduğunu düşünürlər, amma zəhmət daha vacibdir.
**3.** Mətndə çoxlu yeni söz olduğu üçün lüğətdən istifadə etdim.
**4.** Şorbaya ikidə bir stəkan süd əlavə etdim.
**5.** Bu gün dağı qaldıra bilən adam nə vaxtsa kiçik daşları daşımaqdan başlayıb. *(Çin atalar sözü)*

**c** **Hansı sözlərə “hər” sözünü əlavə etməklə mürəkkəb söz yaratmaq olar?**

***1.*** *gün* ***2.*** *sözdən* ***3.*** *dəfə* ***4.*** *kitab* ***5.*** *an* ***6.*** *zaman* ***7.*** *şey* ***8.*** *nə*

**ç** **Hansı sözlər həm *etmək,* həm də *olmaq* köməkçi feilləri ilə işlənərək mürəkkəb sözlər yarada bilir?**

*cəlb, əməl, biabır, var-gəl, qonaq, dərk, məcbur, xahiş, razı, tamaşa*

**d** **Köməkçi nitq hissələrini uyğun cümlələrə artırmaqla cümlələri tamamlayın.**

*ona görə ki, doğrudan da, daha da, ay aman*

**1.** O, ..., çox istedadlı bir musiqiçidir.
**2.** Səlimə işinə ... ciddi yanaşmağa başladı.
**3.** Gecikdim, ... avtobus uzun müddət gəlmədi.
**4.** Qorxdum, ..., bu nə gurultu idi!

## Ümumiləşdirici təkrar

**1** **Sütunlarda verilmiş sözlərin köməyi ilə mürəkkəb sözlər düzəldin və yaranma yollarına görə uyğunluğu müəyyən edin. Hansı yollarla yaranan mürəkkəb sözlər defislə, hansılar bitişik yazılır?**

| | | |
|---|---|---|
| 1. ağıllı | çöp | a. **Əksmənalı sözlər** |
| 2. yorğan | gün | b. **Eyni sözün təkrarı** |
| 3. sağ | köynək | c. **Biri ayrılıqda işlənə bilməyən sözlər** |
| 4. dönə | döşək | ç. **Yaxınmənalı sözlər** |
| 5. gün | kamallı | d. ***a, ha, ba, bə*** **bitişdiriciləri ilə** |
| 6. çör | dönə | e. **Müxtəlifmənalı sözlər** |
| 7. sarı | sol | ə. **Hiponimlər** |

**2** **Hansı cümlələrdə altından xətt çəkilmiş sözlər defislə yazılmalıdır?**

1. Həkimin məsləhətlərinə riayət etməlisən, əks halda sağalmazsan.
2. Futbolçular əks hücuma keçərək oyunun gedişatını dəyişdilər.
3. Balaca, alagöz qız nənəsinə sıxılıb utancaq-utancaq bizə baxırdı.
4. Ala çiy ətləri sacın üstünə düzüb yenidən bişirdim.

**3** **Hansı cümlələrdə fərqləndirilmiş ifadə bir suala cavab verir və bir cümlə üzvü kimi çıxış edir?**

1. ***Bu saat*** cavab ver, məndən xəbər gözləyirlər.
2. ***Bu saat*** mənə babamdan yadigar qalıb.
3. Bu otağı təmir etməyə ***bir gün*** də bəs edər.
4. ***Bir gün*** padşah vəziri çağırıb məsləhət istədi.

**4** **Biri "etmək" sözü ilə işlənərək mürəkkəb söz yaratmır:**

a. ram   b. göz-qulaq   c. darmadağın   d. dərk   e. məhv

**5** **Aşağıdakı mürəkkəb sözləri cədvəl üzrə qruplaşdırın.**

*üç-dörd, elə bil ki, filankəs, heç kəs, ay haray, pəh-pəh, gəzə bilmək, taybatay, axşamüstü, istərsə də, bir halda ki, günorta, yaxşı olmaq, deyib-gülmək, nə qədər*

| Əsas nitq hissəsi | Köməkçi nitq hissəsi |
|---|---|
| | |

**a** **Şəkillərə baxın. Nə üçün zibil qablarının üstündə tullantının növü qeyd edilib?**




**b** **Təkrar istehsal haqqında nə bilirsiniz?**
- **Sizcə, aşağıdakı işarə nəyi bildirir?**



**Sözlərin izahı**

**İdeoqrafiya** – məzmunun hərf-lərlə deyil, məna bildirən işarələr – ideoqramlar vasitəsilə ifadə olunduğu yazı.

- **"İdeoqrafiya" sözünün izahını oxuyun və bu işarənin ideoqram olduğunu əsaslandırın.**

**c** **"Tullantıdan sənətə" mətninə nəzər salın. Sizcə, bölmənin mövzusu ilə bu mətnin nə əlaqəsi var? Mətni oxuyun və tapşırıqları yerinə yetirin.**

## TULLANTIDAN SƏNƏTƏ

Gündəlik həyatda istifadə etdiyimiz bir çox əşyalar tullantıların təkrar **emalı** vasitəsilə hazırlanmışdır. Məsələn, supermarketlərdə satılan polietilen paketlər, eləcə də plastik stullar və masalar, əsasən, istifadə olunmuş plastik qablardan hazırlanmışdır. Bəzi dəftərlər və kağız məhsulları isə kağız tullantılarının emalından yaranır. Bu, **ətraf mühitin** çirklənməsinin qarşısını almağa kömək edir.

Tokioda keçirilən Paralimpiya oyunlarında idmançılara təqdim olunan medallar istifadəyə yararsız cihazların emalından **əldə edilən** metallardan hazırlanmışdı. Bu məqsədlə 48 ton cihaz toplanmış, onlardan 30 kq-dan çox qızıl, 4 kq-a yaxın gümüş və 2 kq-dan çox bürünc əldə olunmuşdu.

Əgər bu tullantılar sadəcə zibil kimi atılsaydı, təbiətə çox böyük ziyan vurulardı. Məsələn, mobil telefon batareyalarında zəhərli metallar vardır. Bu maddələr torpağı və suyu çirkləndirə və zəhərləyə bilər.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da tullantıların düzgün istifadəsi ilə bağlı mühüm layihələr həyata keçirilir. Həmin layihələrdən biri "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisindəki "Tullantıdan sənətə" muzeyidir. O, 2015-ci ildə Heydər Əliyev Fondunun **təşəbbüsü** və dəstəyi ilə yaradılmışdır. Muzeydəki əsərlər insanların lazımsız hesab etdiyi müxtəlif tullantılardan: plastik su qabları, polietilen paket, uşaq arabası, oyuncaqlar, maşın hissələri, tennis topu və s.-dən hazırlanıb.

Göründüyü kimi, tullantılar artıq sadəcə atılan bir şey deyil, onlar dəyərli xammala çevrilərək "ikinci həyat" qazanır. Bu isə bizi daha məsuliyyətli və yaradıcı **istehlakçılara** çevirir.



*Neon lampalarından düzəldilmiş qoyun fiquru*



*Avtomobil şinlərindən hazırlanmış motosiklet*

## Söz ehtiyatı

**Söz mücrüsü**
- emal • ətraf mühit
- istehlakçı • təşəbbüs
- əldə etmək

**ç** **Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** emal | **a.** xarici aləm |
| **2.** ətraf mühit | **b.** bir işi birinci olaraq başlama |
| **3.** əldə etmək | **c.** hər hansı məhsulu işlədən şəxs |
| **4.** təşəbbüs | **d.** hazırlama, düzəltmə |
| **5.** istehlakçı | **e.** bir şeyə nail olmaq, tapmaq, qazanmaq |

**d** **Nə üçün mətndə "ikinci həyat" ifadəsi dırnaqda yazılmışdır? Fikrinizi əsaslandırın.**

## Yazı

**e** **Qruplarla iş. Hər hansı tullantıdan təxəyyülünüzə uyğun əşya düzəldin. Öz təcrübənizi bölüşmək üçün aşağıdakı plana uyğun təlimat yazın.**

***Plan***
**1.** Lazım olan materiallar (tullantılar)
**2.** İstifadə olunacaq alətlər
**3.** Əşyanı düzəltmək üçün addımların ardıcıl təsviri

**1 a Aşağıdakı sözlərin morfoloji tərkibini müəyyən edin.**

*sınıq, bilik, buruq, sönük,*
*daraq, qoruq, çürük, dirək*

- **Şəkilçilər arasındakı oxşar və fərqli cəhətləri izah edin.**
- **Sizcə, bu şəkilçiləri eyni şəkilçinin variantları hesab etmək olarmı? Fikrinizi əsaslandırın.**

**Sözlərin izahı**

**Morfologiya** – nitq hissələrindən, sözlərin tərkibindən bəhs edən dilçilik bölməsi.
**Leksika** – dildə olan bütün sözlərin məcmusu, dilin lüğət tərkibi.

**b "Qoruq" sözü ilə bu sözün kökünü leksik və qrammatik məna baxımından müqayisə edin.**

## QORUQLAR VƏ MİLLİ PARKLAR

"Qoruq" – qoru(maq) sözündəndir. Qoruqlar xüsusi qorunan ərazilərdir. Mədəni **irsin,** tarix və mədəniyyət abidələrinin qorunmasını təmin etmək məqsədilə qoruqlar yaradılır. Məsələn, "Qobustan" Milli Tarixi-Bədii Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu və s.

Bundan başqa, dövlət tərəfindən nəzarət olunan təbiət qoruqları da var. Bu qoruqlar heyvanların, bitkilərin və bütövlükdə **ekosistemin** mühafizəsi üçün yaradılır. Burada alimlər təbii şəraitdə heyvan və bitkilərin inkişafını müşahidə edə bilirlər. Təbiət qoruqlarında nəsli kəsilməkdə olan bir çox canlılar **həyat sürür** və çoxalır. Bundan əlavə, qoruqlarda mağaralar, şəlalələr, buzlaqlar və s. qorunur. Əsas məqsəd nadir təbiət kompleksləri və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılmasıdır. Bir sözlə, qoruqların əhəmiyyəti çox böyükdür. Qoruq ərazisində geoloji kəşfiyyat işləri aparmaq, torpağı **şumlamaq**, mal-qara otarmaq, ov etmək, balıq tutmaq, ağac kəsmək olmaz.

Qoruqlar və milli parklar Azərbaycanın müxtəlif coğrafi bölgələrini və ekosistemlərini əhatə edir. Azərbaycanda xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasına 1910-cu ildən başlanmışdır. İlk qoruq 1925-ci ildə yaradılmış Göygöl Dövlət Təbiət Qoruğu, ilk milli park isə 2003-cü ildə yaradılmış Həsən Əliyev adına Zəngəzur Milli Parkıdır.

Milli parklarda xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət kompleksləri yerləşir. Bu parklardan təbiəti mühafizə, **maarifçilik**, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunur. Qoruqlardan fərqli olaraq, milli parklarda həm təbiət qorunur, həm də turistlərin əraziyə girməsinə, təbiətlə tanış olmasına imkan yaradılır. Milli parklar **ekoturizmin** inkişafına kömək edir. Bu ərazilərdə mühafizə işçiləri, turistlər üçün xüsusi marşrutlar, onların dincəlməsi üçün xüsusi yerlər olur.

Hər milli park səciyyəvi xüsusiyyətləri, nadir fauna və flora növləri ilə fərqlənir. Məsələn, Şirvan Milli Parkında ceyranlar faunanın əsasını təşkil edir. Ordubad Milli Parkında rast gələnən Asiya bəbiri bütün Qafqazda nadir təsadüf edilən növdür. Abşeron Milli Parkının Xəzər dənizi ərazisində isə dünyada nadir hesab olunan Xəzər suitisinə rast gəlinir.

Hirkan Milli Parkı unikal florası ilə məşhurdur. Buradakı nadir bitki növlərindən biri də dəmirağacdır. O bu adı təsadüfən qazanmayıb. Ağacın **oduncağı** dəmir kimi möhkəmdir. Başqa ağaclardan fərqli olaraq, o, suda batır. Bu ağacın oduncağından alətlərin, maşın detallarının hazırlanmasında, hətta körpülərin tikintisində istifadə olunur, çünki o, demək olar ki, çürümür.

11 yanvar – Dünya Qoruqlar və Milli Parklar Günüdür. 1917-ci il yanvarın 11-də dünyada ilk dəfə Rusiyada nadir heyvanların qorunması məqsədilə Baykal gölü üzərində Barquzin Dövlət Qoruğu yaradılıb. Həmin tarix Dünya Vəhşi Təbiət Fondunun təşəbbüsü ilə 1997-ci ildən etibarən hər il qeyd olunur.

Azərbaycanda təbiətin mühafizəsi, ekoturizmin inkişafı üçün yeni milli parkların, təbiət qoruqlarının yaradılması davam etdirilir.



*Asiya bəbiri*



*Xəzər suitisi*



*Dəmirağac*

**Söz mücrüsü**

- şumlamaq • oduncaq • irs
- maarifçilik • həyat sürmək
- ekosistem • ekoturizm

## Nə anladın?

**C Mətndə hansı suala cavab yoxdur?**

**a.** Təbiət qoruqları nə üçün yaradılır?
**b.** Milli parklar qoruqlardan nə ilə fərqlənir?
**c.** Son yaradılan milli park hansıdır?
**d.** Dəmirağac niyə belə adlanır?

**ç** **Mətnə əsasən “ekoturizm” və “ekosistem” sözlərinin mənasını müəyyən edin. Bu sözlərin tərkibindəki morfemlərin etimoloji izahından istifadə edin.**

***Eko*** – yunanca “oikos” – ev, mənzil, yaşayış yeri
***Sistem*** – latınca “systema” – qarşılıqlı əlaqədə olan hissələrin bütövü
***Turizm*** – fransızca “tour” – gəzinti, səyahət

**d** **Sizcə, insanları ekoturizmə cəlb etmək və bu sahəni inkişaf etdirmək üçün hansı təbliğat vasitələrindən istifadə etmək olar?**

**2 a** **Qruplarla iş.** **Mətndən aldığınız informasiyadan və aşağıdakı məlumat vərəqlərindən istifadə etməklə Azərbaycanın təbiət qoruqları haqqında reklam prospekti və ya buklet hazırlayın.**

**Sözlərin izahı**

**Morfem** – sözün tərkib hissəsi: kök, şəkilçi və ya bitişdirici hissəcik.
**Prospekt** – A4 ölçüsündə reklam və informasiya xarakterli çap məhsulu.
**Buklet** – paralel xətlər üzrə bir neçə dəfə qatlanmış, mətn və təsvirlərdən ibarət birvərəqlik çap məhsulu.

**• Reklam mətnini yazarkən ekoturizmin aşağıdakı xüsusiyyətlərini nəzərə alın:**

- ekosistemin müşahidə edilməsi
- ətraf mühitə təsirin minimuma endirilməsi
- təbiəti və mədəni irsi qorumağa dəstək vermək
- yerli təbiətə xas nadir flora və fauna növləri haqqında məlumatlandırma
- ziyarətçilərin ekoloji mövzularda maarifləndirilməsi

**• Reklam prospektini tərtib edərkən şəkillərdən istifadə edin. Reklam çağırışlarını və şüarları (məs.: “Dünyanın ən füsunkar gölü sizin yolunuzu gözləyir!”) iri, fərqli şriftlərlə verin.**




*Buklet nümunəsi*




*Prospekt nümunəsi*

**I qrup**

## Azərbaycanın ilk qoruğu – Göygöl qoruğu



**Yerləşdiyi ərazi:** Göygöl rayonu
**Yaradılma tarixi:** 1925-ci il
**Sahəsi:** 6 732 hektar
**Flora:** 420 növ bitki, o cümlədən 76 növ ağac və kolluq
**Fauna:** 30 növ məməli, 6 növ sürünən, 1 növ balıq, 46 növ quş
**Əlavə məlumatlar:** Ərazidə nadir bitkilər və heyvanlar var: qarmaqşəkilli şam, Cənubi Qafqaz qonur ayısı, çay və göl alabalıqları, Eldar şamı meşəliyi və s.

**II qrup**

## Azərbaycanın ən böyük qoruğu – Qızılağac qoruğu



**Yerləşdiyi ərazi:** Lənkəran rayonu
**Yaradılma tarixi:** 1929-cu il
**Sahəsi:** 88 360 hektar
**Flora:** su, bataqlıq və yarımsəhra bitkiləri
**Fauna:** 300 növə yaxın quş, 50 növdən çox balıq
**Əlavə məlumatlar:** Su-bataqlıq quşlarının yaşama yeridir. “Quşlar diyarı” adlanır. Bu ərazi qızılağacla zəngindir. Qızılağac meşələrin kənarında, çay və göl sahillərində bitən geniş qırmızı yarpaqlı bir ağacdır. Qızılağac qoruğu beynəlxalq əhəmiyyətli qoruqlar sırasına daxil edilib.

### III qrup

## Azərbaycanın ən yüksək qoruğu – Zəngəzur Milli Parkı



**Yerləşdiyi ərazi:** Ordubad rayonu
**Yaradılma tarixi:** 2003-cü il
**Sahəsi:** 42 797 hektar
**Flora:** 77 növ nadir bitki
**Fauna:** 217 növ quş, 32 növ məməli, 16 növ balıq
**Əlavə məlumatlar:** Ərazinin çox hissəsi dağlıqdır, dağ meşəsi, dağ çəmənlikləri, qayalıqları çoxdur. Əlincə qalası, Gəmiqaya abidəsi burada yerləşir. Gəmiqaya Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsidir.

### IV qrup

## Azərbaycanın ən kiçik qoruğu – Bəsitçay təbiət qoruğu



**Yerləşdiyi ərazi**: Zəngilan rayonu
**Yaradılma tarixi:** 1974-cü il
**Sahəsi:** 107 hektar
**Flora:** qoz, dağdağan, tut, söyüd, qovaq və s. ağaclar; yemişan, itburnu, murdarça, qaratikan və s. kollar
**Fauna:** canavar, çöl donuzu, porsuq, cüyür, dovşan, müxtəlif gəmiricilər və s. məməlilər; kəklik, turac, göyərçin və s. quşlar
**Əlavə məlumatlar:** Ərazinin 100 hektarını çinar meşələri tutur. Əsas ağac cinsi Şərq çinarıdır. Zəngilan çinarları dünyada bitən 8 çinar növündən biridir.

### V qrup

## Azərbaycanın ən zəngin qoruğu – Zaqatala təbiət qoruğu



**Yerləşdiyi ərazi:** Zaqatala və Balakən rayonları
**Yaradılma tarixi:** 1929-cu il
**Sahəsi:** təxminən 48 min hektar
**Flora:** 900-dən çox bitki növü
**Fauna:** 213 heyvan növü
**Əlavə məlumatlar:** Ərazinin mürəkkəb relyef quruluşuna malik olması, həmçinin dəyişən iqlim şəraiti qoruğun flora və faunasının zənginliyinə səbəb olub. Azərbaycan florasının 25 faizi burada yerləşir. Maralların sayına görə bu qoruq Cənubi Qafqazda 1-ci yerdədir.

### VI qrup

## Azərbaycanın ən "gənc" qoruğu – Korçay təbiət qoruğu



**Yerləşdiyi ərazi:** Goranboy rayonu
**Yaradılma tarixi:** 2008-ci il
**Sahəsi:** 4 833,6 hektar
**Flora:** ətirli yovşan, çaytikanı, çöl laləsi, çöl bənövşəsi və s.
**Fauna:** ceyran, turac, boz qartal, qamçı ilanı, Qafqaz kərtənkələsi və s.
**Əlavə məlumatlar:** Bozdağın təbii landşaftını qorumaq üçün yaradılıb. Qoruqda 300 ceyran məskunlaşdırılıb.

**3 a** **“Qırmızı kitab” haqqında nə bilirsiniz? Hər hansı bir canlının “Qırmızı kitab”a salınması nədən xəbər verir?**




**b** **Qeydlər götürməklə mətni oxuyun. Rəqəmlərə və adlara diqqət edin.**

## “Qırmızı kitab”

“Qırmızı kitab” məhvolma təhlükəsi olan heyvan, bitki növləri haqqında məlumatların toplandığı kitabdır. “Qırmızı kitab” miqyasına görə beynəlxalq və milli ola bilər.

Hər il dünyada minlərlə növ bitki, heyvan, həşərat, balıq, kiçik mikroorqanizmlər yox olur. Hər hansı canlının nəslinin kəsilməsi yüzillərlə davam edən gizli prosesdir. Bundan yalnız təbiətdə müşahidə və araşdırma aparan alimlər xəbər tuturlar.

1948-ci ildə müxtəlif ölkələrdən olan alimlər və ictimai təşkilatlar birləşərək Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq İttifaq yaratdılar. Bu təşkilatın əsas məqsədi təbii sərvətlərin qorunmasına kömək etmək idi. Beynəlxalq İttifaq, ilk növbədə, bütün nadir heyvan və bitkilərin siyahıya alınmasını təşkil etdi. Nəticədə həmişəlik yox ola biləcək növlərin adlarını əhatə edən 5 cildlik siyahı meydana çıxdı. Sonradan bu toplu “Qırmızı kitab” adı aldı.



*Şaquli buynuzlu orikslər əvvəllər bütün Şimali Afrikada geniş yayılmışdılar. Onların yox olmasının əsas səbəbləri həddindən artıq ovlanma və yaşayış yerlərinin itirilməsidir.*



*Yava kərgədanları dünyanın ən nadir böyük məməlilərindəndir. Onları, əsasən, buynuzlarına görə ovlayıblar.*

Dünyada ilk “Qırmızı kitab” XX əsrin 60-cı illərində çap olundu. Bu kitaba 211 heyvan və 312 quş növü daxil edildi. Həmin canlılar artıq təhlükədə idi və onları qorumaq lazım idi. Məlumdur ki, qırmızı rəng təhlükəni bildirir. Kitabı hazırlayanlar cəmiyyətin diqqətini Yer üzündəki canlılar üçün yaranan təhlükəyə cəlb etməyə çalışırdılar. O vaxtdan etibarən “Qırmızı kitab”lar dünyanın bir çox ölkələrində çap olunmağa başladı.

“Qırmızı kitab”a daha bir siyahı daxil edilmişdir ki, buna “Qara siyahı” da deyilir. Burada 1500-cü ildən bəri Yer planetindən yoxa çıxan 800-dən çox heyvan və bitki növünün siyahısı verilir. Bu canlılar ya insanlar tərəfindən tamamilə məhv edilmiş, ya da iqlim dəyişiklikləri səbəbindən yoxa çıxmışdır. Onları yalnız kitablarda, rəsmlərdə görmək olar.



*Manul yırtıcı heyvandır. Əsasən, gecə vaxtı ova çıxır. Ölçüləri təxminən ev pişiyi boydadır. Yarımsəhra ərazilərdə, hündür dağ qayalıqlarında yaşayır. Azərbaycanda yalnız Naxçıvanda rast gəlinir.*

Azərbaycanda “Qırmızı kitab” ilk dəfə 1989-cu ildə çap olunmuşdur. Buraya Azərbaycan florasında mühafizəsi tələb olunan 140, fauna üzrə isə 108 növ daxil edilmişdir. Fauna növlərindən 14-ü məməli, 36-sı quş, 13-ü sürünən və suda-quruda yaşayan, 5-i balıq, 40-ı həşəratdır. Məsələn: çöl qartalı, ceyran, vaşaq, ağ durna və s. Respublika “Qırmızı kitab”ına fauna və flora növləri 2 kateqoriya üzrə daxil edilib: yoxa çıxmaq təhlükəsi olanlar və nadir növlər. “Qırmızı kitab”ın son nəşrində (2023-cü il) nadir, nəsli kəsilmək təhlükəsi altında olan 241 fauna və 460 flora növü öz əksini tapmışdır.

*Şahin quşlar aləminin ən mahir ovçularından sayılır. Əla görmə qabiliyyəti var: göydə uçarkən bir neçə kilometr məsafədən ovunu görür. Şahin Azərbaycanda təhlükədə olan quşlar siyahısına daxil edilib.*



“Qırmızı kitab” zamanla yenilənir və daha da zənginləşir. Məhz bu kitabın sayəsində nadir heyvanlar və bitkilər bu gün də mövcudluğunu qoruyur.

## Nə anladın?

**c** **Mətnə əsasən suallara cavab verin.**

**1.** “Qırmızı kitab” nə üçün hazırlanıb və rənginin mənası nədir?
**2.** Niyə bəzi heyvan və bitkilər yox olmaq təhlükəsi ilə üz-üzədir?
**3.** Hər il təxminən nə qədər canlı növü yox olur?
**4.** İlk beynəlxalq “Qırmızı kitab” nə vaxt çap olunub?

## Düşün və cavab ver

**4 a “Qırmızı kitab” mətni ilə “Qoruqlar və milli parklar” mətnini müqayisə edin.**

- Mətnlərdəki mövzu və məzmun yaxınlığını izah edin.
- Hər mətndə müəllifin məqsədini müəyyənləşdirin.

**b Mətnin abzaslarını məzmuna uyğun yarımbaşlıqlarla adlandırın.**

**c Aşağıdakı diaqrama baxın və sualları cavablandırın.**




- 1989-cu ildə “Qırmızı kitab”da neçə fauna və flora növü yer alıb?
- 2023-cü ildə flora növlərinin sayı fauna növlərindən nə qədər çoxdur?
- 1989-cu ildən 2023-cü ilə qədər flora və fauna növlərinin sayı neçə dəfə artmışdır?
- Sizcə, bu artımın səbəbləri nələr ola bilər?

**ç Cədvəldəki məlumatlardan istifadə etməklə “Qırmızı kitab”da heyvanların təsnifatı haqqında rabitəli mətn qurub nəql edin.**

| Kateqoriya | İzah | Nümunə |
|---|---|---|
| Nəsli tükənmiş | Yer üzündə bir dənə də fərd qalmayıb. | mamont, dodo quşu |
| Təbiətdə nəsli tükənmiş | Təbii mühitdə mövcud deyil. Yalnız zoopark və qoruqlarda yaşayır. | şaquli buynuzlu oriks |
| Kəskin təhlükə altında olan | Çox az sayda fərd qalıb, nəsli yaxın zamanda tamamilə tükənə bilər. | dəniz donuzu, Yava kərgədanı |
| Təhlükə altında olan | Sayları sürətlə azalır, nəsli kəsilmək riski yüksəkdir. | Benqal pələngi, Afrika fili |
| Həssas | Əgər qorunmasalar, yaxın gələcəkdə təhlükə altında ola bilərlər. | Qütb ayısı, Komodo əjdahası |

## Yazı

**5 a** **Aşağıdakı cümlələrdə fərqləndirilmiş hansı sözlərin yalnız qrammatik mənası var?**

**1.** Oxuduğun əsər **haqqında** mənə danış.
**2.** Uşaq **bərkdən** qışqırırdı.
**3. Bəh-bəh,** nə dadlı yeməkdir!
**4. Dinlədiyim** mahnı çox xoşuma gəldi.

**b** **Cümlələri müqayisə edin. İkinci cümlələrə əlavə olunan *başqa* və *tərəf* sözlərinin yaratdığı məna çalarını müəyyən edin.**

**1.** Mənim dostlarımdan heç kim gəlmədi.
**2.** Mənim dostlarımdan başqa, heç kim gəlmədi.

**1.** Maşın kəndə yola düşdü.
**2.** Maşın kəndə tərəf yola düşdü.

**Bunları bilməliyik** QOŞMA

Köməkçi nitq hissələrindən biri olan qoşma ismin adlıq, yiyəlik, yönlük, çıxışlıq hallarında olan sözlərə qoşularaq müəyyən məna çalarları (*bənzətmə, istiqamət, zaman, məsafə, səbəb-məqsəd, birgəlik* və s.) yaradır. Məsələn:

- *Ayan da sənin **kimi** gözəl şəkillər çəkir.* ***(bənzətmə)***
- *Dünəndən **bəri** hava çox soyuyub.* ***(zaman)***
- *İlk günlər məktəbə ana **ilə** gedirdim.* ***(birgəlik)***
- *Evə **qədər** piyada gedək?* ***(məsafə)***

**c** **Qoşmaları seçin, onların yaratdığı məna çalarını müəyyən edin.**

**1.** Yarışda qardaşımdan başqa, qalib gələn olmadı.
**2.** Səndən əvvəl buraya kim gəlmişdi?
**3.** O da sənin qədər xeyirxahdır.
**4.** Bu əşyaları bizdən ötrü gətiriblər.

**a.** bənzətmə
**b.** fərqləndirmə
**c.** səbəb-məqsəd
**ç.** zaman

**Bunları bilməliyik** QOŞMALARIN ORFOQRAFİYASI

Birhecalı qoşmalar **(-can, -cən, -ca, -cə, -dək, -tək)** aid olduqları sözə bitişik yazılır. İki və daha artıq hecadan ibarət qoşmalar isə qoşulduğu sözdən ayrı yazılır. Məsələn: *Buradan vağzala**can** bir saatlıq yoldur. Mən uşaq **kimi** sevinirdim.*
"İlə" qoşması isə samitlə bitən sözlərdə həm ayrı, həm də sözə bitişik yazıla bilər. Məsələn: *Qəbələyə qatar **ilə** gedəcəksən? / Qəbələyə qatar**la** gedəcəksən?*

**ç** **Qoşmaların düzgün yazılışına əməl etməklə cümlələri köçürün.**

**1.** Məni qapıya (-dək) ötürərsən.
**2.** Onlar gəmi (ilə) səyahətə çıxacaqlar.
**3.** Yalançını evinə (-cən) qovarlar. *(Atalar sözü)*
**4.** Bizə (sarı) gələn adam kimdir?

**6 a** **Cümlələrdə qoşmaların ifadə etdiyi məna çalarını müəyyən edin. Onlar bir-birini əvəz edə bilərmi?**

**1.** Axşama kimi bütün işlərimizi qurtararıq. **2.** Döyüş səhərə qədər davam etdi.

**Bunları bilməliyik** QOŞMALARIN QRAMMATİK SİNONİMLİYİ

Köməkçi nitq hissələrinin leksik mənası olmadığına görə onların sinonimliyi və omonimliyi **qrammatik sinonimlik və omonimlik** adlanır. Bəzi qoşmalar eyni məna çaları yaradır və cümlədə bir-birini əvəz edə bilir. Məsələn:
*səndən* ***əvvəl,*** *səndən* ***qabaq*** *(zaman);*
*mənə* ***doğru,*** *mənə* ***sarı,*** *mənə* ***tərəf*** *(istiqamət);*
*ondan* ***ötrü,*** *onun* ***üçün*** *(səbəb-məqsəd).*

**b** **Verilmiş cümlələrdə qoşmaları tapın və sinonimləri ilə uyğunlaşdırın.**

| | |
|---|---|
| **1.** İmtahana qədər mövzuları öyrənməlisən. | **a.** dair |
| **2.** Mətnə aid sualınız var? | **b.** qabaq |
| **3.** Sabah təmir üçün ustalar gələcəklər. | **c.** -tək |
| **4.** Azarkeşlər stadiona tərəf gedirdilər. | **ç.** doğru |
| **5.** Tarlada pambıq qar kimi ağarırdı. | **d.** kimi |
| **6.** İmtahandan əvvəl mövzuları təkrarladım. | **e.** ötrü |

**c** **Verilmiş cümlələrdə "kimi" qoşmasının qrammatik mənalarını fərqləndirin.**

**1.** Bacın da sənin **kimi** geyinib. **2.** Qatar növbəti stansiyaya **kimi** sürətlə getdi.

**Bunları bilməliyik** QOŞMALARIN QRAMMATİK OMONİMLİYİ

Bir çox qoşmaların omonimlik xüsusiyyəti vardır. Onların deyilişi və yazılışı eyni olsa da, müxtəlif qrammatik funksiyası olur. Məsələn:
*Dərsdən sonra məşqə gedəcəyəm. (qoşma)*
*Gəzinti barədə sonra danışarıq. (zərf)*
*Rəfiqəmlə xeyli söhbət etdik. (birgəlik mənalı qoşma)*
*Qeydlərimi karandaşla dəftərə yazdım. (vasitə mənalı qoşma)*

**ç** **Fərqləndirilmiş sözlərin hansı nitq hissəsi olduğunu müəyyən edin.**

**1.** Nərgiz sevindiyindən quş**tək** uçmaq istəyirdi.
**2.** Bu gün məktəbə **tək** gedəcəyəm.

**1.** Ordu düşmənə **qarşı** hücuma keçdi.
**2.** **Qarşı** tərəf öz arqumentlərini irəli sürdü.

2-ci fəsil

# Təbii fəlakətlər

**1 a** **Şəkillərdə təsvir olunmuş hər bir təbii fəlakətə uyğun gələn sözü seçin.**

**1. Sunami** – okean səthində yaranan nəhəng dağıdıcı gücə malik dalğalar.
**2. Daşqın** – yatağından çıxan çay və ya dəniz suyunun ətraf əraziləri basması.
**3. Tornado** – atmosferin yuxarı qatlarında yaranan və Yerə qədər uzanan xortumşəkilli hava burulğanı.
**4. Zəlzələ** – Yerin daxilində gedən tektonik proseslər nəticəsində onun səthində baş verən təkan və titrəyişlər.
**5. Sel** – güclü leysan yağışları, qar və buzların əriməsi nəticəsində yaranan palçıqlı-daşlı su axını.
**6. Vulkan** – zirvəsindəki çökəklikdən Yerin səthinə lava, kül, palçıq və qazlar püskürdən dağ.

a


b


c


ç


d


e


**b** **Digər fənlərdən əldə etdiyiniz biliklərə əsaslanaraq aşağıdakı suallara cavab verin.**

- Bu fəlakətlərin səbəbləri haqqında nə bilirsiniz?
- Təbii fəlakətlərin qarşısını almaq mümkündürmü? Cavabınızı əsaslandırın.
- Təbii fəlakətlərin təsirini azaltmaq üçün hansı qabaqlayıcı tədbirlər görmək olar?
- Hansı fəlakətə qarşı qabaqlayıcı tədbir görmək daha çətindir?

**c** **Sizcə, aşağıdakı xüsusiyyətlər daşqına, yoxsa selə aiddir?**

**Əsas səbəblər:** intensiv yağış, dağ yamaclarında torpaq sürüşməsi.
**Vaxt:** ani və sürətli baş verir (dəqiqələr və ya saat ərzində).
**Əhatə dairəsi:** daha dar, lakin daha təhlükəlidir.

**ç** **Diaqramı şərh edin.**




- Sizin fikrinizcə, niyə sunami ən təhlükəli təbii fəlakət hesab olunur?

**d** **Sizcə, Azərbaycan üçün hansı təbii fəlakətlər daha xarakterikdir?**

**e** **Təbii fəlakətlərdən biri ilə bağlı maarifləndirici plakat hazırlayın.**
*(Məsələn: Zəlzələ zamanı necə davranmalı? / Daşqına qarşı tədbirlər)*

- Fəlakətin adı
- Təhlükə haqqında qısa məlumat
- Özünü necə qorumalısan?

**2 a** **Coğrafiya fənnindən vulkanlar haqqında əldə etdiyiniz bilikləri xatırlayın. Bu təbiət hadisəsi haqqında daha nəyi öyrənmək istərdiniz?**

**b** Cütlərlə iş. **Aşağıdakı mətnləri oxuyun və birgə işləyərək verilmiş plana uyğun mətn yazın.**

**Sözlərin izahı**

**Maqma** – Yer qabığının alt qatlarında olan ərimiş qaya maddəsi, qaynar kütlə.
**Lava** – Yer qabığını yararaq onun səthinə çıxmış maqma.

### MAQMATİK VULKANLARLA PALÇIQ VULKANLARININ FƏRQİ

*Plan*

- Vulkanın baş vermə səbəbi
- Püskürən maddə (tərkibi və temperaturu)
- Partlayış gücü, dağıdıcı təsiri
- Baş verdiyi ərazi

**1-ci şagird**

## Maqmatik vulkan



Maqmatik vulkan Yer qabığının dərinliklərindəki maqmanın **tektonik** hərəkətlərlə yer səthinə çıxması ilə baş verir. Bu zaman ərimiş qaya **süxurları,** tüstü və kül lava şəklində havaya **püskürür.** Lavanın temperaturu 1000 dərəcəyə çatır.

Maqmatik vulkan zamanı çox güclü partlayışlar ola bilər. Püskürən lava sel kimi axaraq kəndləri, şəhərləri dağıda bilər.

Maqmatik vulkanlara daha çox Amerika və Asiyanın Sakit okean sahillərində və İtaliyada rast gəlinir.

**Söz mücrüsü**

- tektonik
- süxur
- püskürmək

**2-ci şagird**

## Palçıq vulkanı



Azərbaycan, Xəzər dənizi ətrafı, Qafqaz və bəzi digər ərazilərdə palçıq vulkanlarına rast gəlinir. Palçıq vulkanlarının ocağı Yer səthinə yaxın olur, ona görə də bu vulkanlar zəif və ya orta gücdə püskürür. Bu vulkanlar böyük dağıdıcı təsirə malik deyil.

Adından da göründüyü kimi, vulkan zamanı havaya palçıq, qaz və su qarışığı püskürür. Bu maddələrin temperaturu yüksək olmur. Palçıq vulkanı neft-qaz yataqlarının olduğu ərazilərdə yeraltı qaz təzyiqi nəticəsində baş verir.

**3 a** **Palçıq vulkanları haqqında bildiyiniz və bilmək istədiyiniz məlumatları aşağıdakı cədvəldə qeyd edin.**

**Palçıq vulkanları haqqında**

| Bilirdim | Bilmək istəyirdim | Öyrəndim |
|---|---|---|
| | | |

**b** **Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.**

# Palçıq vulkanları – yer altında qaynayan möcüzə

### Azərbaycan – palçıq vulkanlarının paytaxtı

Dünyada 2 mindən çox palçıq vulkanı var və onların 350-dən çoxu Azərbaycanda yerləşir. Bu səbəbdən Azərbaycan "palçıq vulkanlarının paytaxtı" adlanır. Palçıq vulkanlarının "pilpilə", "yanardağ", "qaynarca" və s. kimi yerli adları da var. Xəzər dənizi sahillərində və Abşeron yarımadasında bu vulkanlara daha çox rast gəlinir.



Xəzər dənizində 100-dən çox sualtı palçıq vulkanı var. Bakı **arxipelaqında** bir neçə ada (Xəzər-Zirə, Zənbil, Qarasu, Gil, Səngi-Muğan, Çigmil və s.) vulkan **mənşəlidir.**

İlk baxışdan sakit görünən palçıq vulkanlarının püskürməsi təhlükəli ola bilər. Belə ki, XV əsrdə püskürən palçıq vulkanı Azərbaycanın Köhnəgədi kəndini tamamilə palçıq altında qoymuşdu.

### Lava, yoxsa yanan qaz?

Azərbaycandakı palçıq vulkanları aktivliyinə və püskürmə gücünə görə də dünya vulkanları siyahısında birinci yerdədir. 2001-ci ildə Bakı yaxınlığındakı Lökbatan palçıq vulkanı dünyanın ən aktiv vulkanlarından biri kimi tanınıb. Qobustanda yerləşən Torağay vulkanı hündürlüyünə görə Ginnesin Rekordlar Kitabına düşmüşdür (400 metr).

Palçıq vulkanında püskürmənin gücü Yerin dərinliyindən çıxan qazın təzyiqindən və torpağın strukturundan asılıdır. Bu qazlar atmosferə çıxan zaman yanarsa, səmada qısamüddətli alov müşahidə edilə bilər. Lakin bu alovu maqmatik vulkanların püskürdüyü odlu lava ilə səhv salmaq olmaz.

Vulkanın püskürdüyü palçığın hündürlüyü çox dəyişkəndir: adətən, 2 metrdən 20 metrə qədər. Lakin nadir hallarda güclü püskürmə zamanı palçıq 100 metr və daha çox hündürlüyə qalxır.

### Palçıq vulkanlarının faydaları

Bu vulkanlar təkcə maraqlı təbiət hadisəsi deyil, həm də insan sağlamlığı və elm üçün əhəmiyyətlidir. Vulkanlardan çıxan mineral tərkibli palçıq bir çox xəstəliklərin müalicəsində istifadə olunur. Onlar yer qabığının dərin qatlarındakı prosesləri öyrənmək üçün alimlərə mühüm məlumat verir. Palçıq vulkanları təbiətin xəbərçiləridir. Onlar qaynadıqları ərazidə neftin və qazın varlığından xəbər verir. Püskürmə məhsullarında 100 dəfə artıq mineral və 30-a qədər mikroelementə (bor, civə, manqan, mis, barium, stronsium, litium və s.) rast gəlmək olar.

Palçıq vulkanları təbiətin bizə **bəxş etdiyi** sirli və maraqlı möcüzələrdən biridir. Bu vulkanlar həm görənləri **heyrətləndirir,** həm də elm üçün dəyərli **mənbə** rolunu oynayır.

**Söz mücrüsü**

- heyrətləndirmək
- mənbə
- arxipelaq
- bəxş etmək
- mənşə

## Söz ehtiyatı

**c** **İzahlara uyğun sözləri seçin.**

**1.** heyrət doğurmaq, təəccübləndirmək
**2.** qaynaq; başlanğıcı təşkil edən şey
**3.** bir şeyin çıxdığı, əmələ gəldiyi yer
**4.** bağışlamaq, vermək
**5.** bir-birinə yaxın adalar qrupu

**a.** mənşə
**b.** bəxş etmək
**c.** arxipelaq
**ç.** heyrətləndirmək
**d.** mənbə

**ç** **Verilmiş terminlərin hansı elm sahələrinə aid olduğunu müəyyən edin.**

**“arxipelaq”, “atmosfer”, “lava”, “mineral”, “mikroelement”**

## Nə anladın?

**d** **Mətndə hansı suallara cavab yoxdur?**

**1.** Palçıq vulkanları necə yaranır?
**2.** Palçıq vulkanlarının temperaturu nə qədərdir?
**3.** Azərbaycanda neçə palçıq vulkanı var?
**4.** Lökbatan vulkanı niyə məşhurdur?
**5.** Palçıq vulkanlarının püskürməsi hansı təhlükələr yarada bilər?
**6.** Palçıq vulkanlarının faydaları nədir?
**7.** Hansı ölkələr palçıq vulkanları ilə zəngindir?

## Düşün və cavab ver

**e** **Mətnə əsasən “Vulkanlar yalnız məhv etmir, həm də həyat verir” fikrini izah edin.**

## Yazı

**4 a** **Verilmiş cümlələrdə məna fərqinin hansı vasitələrlə yarandığını müəyyənləşdirin.**

**1.** Kitabları və dəftərləri çantanıza qoyun.
**2.** Nə kitabları, nə də dəftərləri çantanıza qoyun.
**3.** Ya kitabları, ya da dəftərləri çantanıza qoyun.

**Bunları bilməliyik** — **BAĞLAYICILARIN FUNKSİYALARI**

Bağlayıcı – sözləri və cümlələri bir-birinə bağlayan köməkçi nitq hissəsidir. “Aygün və Gülşən söhbət edirlər” cümləsində “və” bağlayıcısı sözləri, “Aygün danışır və Gülşən dinləyir” mürəkkəb cümləsində isə sadə cümlələri bir-birinə bağlayır.
Bağlayıcı müxtəlif məna əlaqələrini ifadə edir. Məsələn:
***1.*** *Mən Gəncəyə **həm** təyyarə, **həm də** avtobusla getmişəm. (iştirak)*
***2.*** *İçəridə adam çox idi, **amma** heç kəs danışmırdı. (qarşılaşdırma)*
***3.*** *Qızlar **gah** söhbət edir, **gah da** musiqiyə qulaq asırdılar. (bölüşdürmə)*
***4.*** ***Əgər** məni görməsən, kitabı qardaşıma verərsən. (şərt)*
***5.*** *Nəzrin **ilə** rəfiqəsi sinfin əlaçı şagirdlərindəndir. (birləşdirmə)*

**b** **Cümlələrdəki bağlayıcıları onların yaratdığı məna əlaqələri ilə uyğunlaşdırın.**

| | |
|---|---|
| **1.** Fərəh də, Nərminə də imtahanda yüksək bal topladılar. | **a.** bölüşdürmə |
| **2.** İşim çoxdur, ona görə də səninlə görüşə bilməyəcəyəm. | **b.** aydınlaşdırma |
| **3.** Ya sahildə gəzək, ya da gəmiyə minək. | **c.** şərt |
| **4.** Əgər hər şey qaydasındadırsa, başlaya bilərik. | **ç.** səbəb |
| **5.** Babam və nənəm bayramda bizə gələcəklər. | **d.** iştirak |
| **6.** Məncə, bu fikir tamamilə absurddur, yəni cəfəngiyyatdır. | **e.** birləşdirmə |

**c** **Nöqtələrin yerinə uyğun gələn bağlayıcını seçin.**

**1.** İlqar ... ingiliscə, ... ispanca yaxşı danışır. (ya / ya da, həm / həm də)
**2.** Bu gün uşaqlar ..., böyüklər ... çox sevinirdilər. (da / də, ilə)
**3.** Mən evə tez çatmaq istədim, ... mümkün olmadı. (yaxud, amma)
**4.** Uşaqların çıxışı uğurlu oldu, ... onlar ciddi hazırlaşmışdılar. (çünki, ona görə də)
**5.** Yer sürüşkən idi, ... ehtiyatla yeriyirdik. (və, ona görə də)
**6.** Səbinə deyir ..., böyüyəndə uşaq həkimi olacaq. (ki, əgər)
**7.** ... mən danışdım, ... o bir söz dedi. (nə / nə də, istər / istərsə də)

**5 a** **Hansı bəndlərdə bağlayıcı cümlələr arasında işlənmişdir?**

**1.** Sinif otağının qapısı açıldı və müəllim içəri girdi.
**2.** Mən də, İnci də eyni məktəbdə oxuyuruq.
**3.** Azər ilə İlkin uşaqlıqdan dostluq edirlər.
**4.** Gün çıxmışdı, amma hava sərin idi.

**Bunları bilməliyik** BAĞLAYICILARDA VERGÜLÜN İŞLƏNMƏSİ

Cümlədə bir çox bağlayıcılardan əvvəl vergül qoyulur, məsələn: ***amma, çünki, ona görə də*** və s.: *O, dərslərinə yaxşı hazırlaşır, ona görə də nəticələri yüksəkdir.*

Mürəkkəb cümlənin komponentləri arasında işlənən ***ki*** bağlayıcısından sonra vergül qoyulur: *Hamımız inanırdıq ki, yarışda qalib gələcəyik.*

Təkrarlanan ***ya ... ya da, gah ... gah da*** *və s.* bağlayıcılardan əvvəl (birincidən başqa) vergül qoyulur: *Bacım gah kitab oxuyur, gah da dəftərə nəsə yazırdı.*

**Və, və ya, və yaxud, ilə** bağlayıcıları vergülsüz işlənir: *İstirahət günü Mərkəzi Nəbatat Bağına və ya dəniz kənarına gedə bilərik.*

**b** **Hansı cümlədə bağlayıcıdan sonra vergül qoyulur?**

**1.** Heç kim içəri daxil ola bilmədi çünki qapılar bağlı idi.
**2.** Elə hərəkət et ki sonra xəcalət çəkməyəsən. *(Atalar sözü)*
**3.** Sabah parka yaxud kinoya gedə bilərik.

**c** **Verilmiş cümlələrdə vergülün işlənməsi ilə bağlı uyğunluğu müəyyən edin.**

**1.** Biz bu layihəni tamamladıq yəni artıq təqdimata hazırıq.
**2.** Bu yerlərə yayda da qışda da çoxlu turist gəlir.
**3.** Bu suala sən və yaxud başqa şagird asanlıqla cavab verəcək.
**4.** Mən ya kitabxanaya gedəcəyəm ya da internetdən məlumat toplayacağam.

**a.** Bağlayıcıdan nə əvvəl, nə də sonra vergül qoyulur.
**b.** Təkrarlanan bağlayıcıdan əvvəl (birincidən başqa) vergül qoyulur.
**c.** Bağlayıcıdan əvvəl vergül qoyulur.
**ç.** Təkrarlanan bağlayıcıdan sonra (sonuncudan başqa) vergül qoyulur.

**ç** **Hansı cümlələrdəki bağlayıcıda vergül düzgün işlənib?**

**1.** Nihad səhvini başa düşdü lakin, artıq gec idi.
**2.** Tez gedək, yoxsa avtobusa çatmarıq.
**3.** Biz vətənimizi çox sevirik, və onunla fəxr edirik.
**4.** Həmin ərazidə nə dağ nə də, meşə var.
**5.** Məktəbdə ingilis, alman, habelə başqa xarici dillər tədris olunur.

# Planetimizi birlikdə qoruyaq

**1 a** **Verilmiş izahlardan çıxış edərək *ekologiya* sözünün mənasını müəyyən edin.**

***Eko*** – yunanca “oikos” – ev, yaşayış yeri
***Logos*** – yunanca “söz”, “elm, təlim”

- **Sizcə, burada *ev* sözü hansı mənada işlənib?**

**b** **Ekoloji problem dedikdə nə başa düşürsünüz? Müasir dövrdə hansı ekoloji problemlər var?**

**c** **Aşağıdakı mətndə fərqləndirilmiş ifadənin mənasını müəyyən edin.**

Ekologiya elmi insanın təbiətlə düzgün münasibət qurmasına xidmət edir. Əgər biz təbiətə zərər verəriksə, bu, gec-tez sağlamlığımıza da təsir edəcək. **Ekoloji tarazlıq** pozulduqda su, hava, torpaq çirklənir və bu, canlıların həyatını təhlükəyə salır.

**a.** insanların və digər canlıların təbiətdən sərbəst istifadə etməsi
**b.** təbiətdəki canlılar və mühit arasında yaranan düzgün və sabit münasibət
**c.** insanların texnologiyadan düzgün istifadə etməsi
**d.** ekologiya elminin inkişafı

**ç** **Təbiət fənnindən istixana effekti haqqında öyrəndiklərinizi xatırlayın və sxemi izah edin.**

- İstixana effekti nədir?
- Hansı qazlar istixana qazları adlanır?
- İstixana effektinin artması hansı ekoloji problemlərə səbəb ola bilər?



**d** **Aşağıdakı şeir parçasını oxuyun. “Təbiət özü hər şeyi düşünür” nə deməkdir?**

Gəlin təbiəti biz də düşünək,
O özü hər şeyi düşünən kimi. *(Hüseyn Arif)*

## Dinləmə 04

**e** **Qeyd götürməklə “Yer Günü – dünyanın təbiət bayramı” mətnini dinləyin. Mətndəki əsas fikirlərdən çıxış edərək yaddaş xəritəsi hazırlayın.**

**Yaranma yeri və tarixi**

______________________

______________________




**Məqsəd**

______________________

______________________

**Tədbirlər**

______________________

______________________

**Simvollar**

______________________

______________________

**ə** **Mətndə hansı suala cavab yoxdur?**

**1.** Yer Günü ilk dəfə nə vaxt qeyd olunub?
**2.** Yer Günü neçə ölkədə qeyd edilir?
**3.** Həmin gün hansı işlər görülür?
**4.** Yer Gününün hansı simvolları var?
**5.** Yer Günü nəyə həsr olunub?

**f** **Mətnə əsasən cümlələri tamamlayın.**

**1.** Yer Günü ilk dəfə ... qeyd olunub. *(harada?)*
**2.** Yerin bayrağındakı fotonu ... çəkmişdir. *(kim?)*
**3.** Dünya zəngi ... quraşdırılmışdır. *(harada?)*

**g** **Mətnə istinad edərək aşağıdakı yunan hərflərindən hansının teta olduğunu müəyyənləşdirin.**

# Ο Θ Φ Ω

**ğ** Nə üçün mətndə Yer Günü “teta” simvolu ilə əlaqələndirilir?

• Sizcə, Yer Günü üçün daha hansı simvol uyğun olardı? Öz simvolunuzu düşünün və nəyə görə məhz bu simvolu seçdiyinizi izah edin.

**h** Mətnin əvvəlində “qəti tədbirlər haqqında düşünməsək, qlobal fəlakət ola bilər” deyilir. Sizcə, bu “qəti tədbirlər” nələr ola bilər?

**x** “Dünya zəngi”nin Yer Günü ilə əlaqəsi nədən ibarətdir və o hansı fikirləri insanlara çatdırır?

**ı** Sizcə, Yer Gününün qeyd olunması insanların təbiətə münasibətinə necə təsir edir? Fikirlərinizi əsaslandırın.

**i** Mətndəki faktlara istinad edərək “Beynəlxalq Yer Gününün əsas təşəbbüskarı BMT-dir” fikrini əsaslandırın.

## Təqdimat

**2 a** Araşdırma aparmaqla “Qlobal iqlim dəyişiklikləri” mövzusunda təqdimat hazırlayın. Aşağıdakı sxemdən istifadə edin və suallara cavab verin.




• Ətraf mühitin çirklənməsi həyatımıza necə təsir edir?

• İnsanlar iqlim dəyişikliyi qarşısında hansı məsuliyyəti daşıyırlar? (Nümunələr gətirməklə fikrinizi əsaslandırın)

• Sizcə, dünya ölkələri iqlim dəyişikliyi ilə birgə mübarizə aparmaq üçün nə etməlidirlər?

**3 a Aşağıdakı mətni oxuyun. Sizcə, mətn niyə belə adlanır? “Yaşıl dünya” ifadəsi nəyi bildirir?**

## “Yaşıl dünya” naminə

İqlim dəyişikliyi Yerin orta temperaturu və hava şəraitinin uzunmüddətli dəyişməsidir. Əvvəlki dövrlərdə də iqlim dəyişikliyi olmuşdur. Amma 20-ci əsrin ortalarından bəri insan fəaliyyəti iqlimə güclü təsir göstərmişdir.

> **Sözlərin izahı**
>
> **Konvensiya** – beynəlxalq müqavilə.
> **Sammit** – dövlət başçılarının zirvə toplantısı.
> **Meteorologiya** – hava və atmosferdə baş verən hadisələr haqqında elm.

Atmosferdəki istixana qazlarının artması qlobal istiləşməyə səbəb olur. Neft, kömür və təbii qaz kimi yanacaqlardan istifadə nəticəsində atmosferə böyük miqdarda zərərli qazlar yayılır. Digər tərəfdən, sənaye müəssisələrinin havaya buraxdığı qazlar da atmosferdə toplanaraq temperaturu yüksəldir, havanı çirkləndirir və insanların sağlamlığına zərər verir.



Meşələr qlobal istiləşmənin qarşısını almaqda mühüm rol oynayır. Çünki onlar atmosferdəki karbonu udur və oksigenə çevirir. Lakin meşələrin qırılması, sürətli şəhərsalma nəticəsində torpağın sement və asfaltla örtülməsi ekosistemi pozur, heyvan və bitki növlərini məhv edir.

Bunun nəticəsində təbii fəlakətlərin sayı və **şiddəti** də artır. Güclü istilər, meşə yanğınları, daşqınlar, okeanlarda güclü qasırğalar və s. milyonlarla insana təsir edir. **Buzlaqların** sürətlə əriməsi dəniz səviyyəsinin qalxmasına səbəb olur. Plastik tullantılarla çirklənmə okeanlarda bir çox canlı növlərinin məhv olmasına gətirib çıxarır. Əgər vaxtında tədbir görülməsə, gələcək nəsillər daha çətin bir dünyada yaşamalı olacaqlar.




XX əsrin 80-ci illərində Ümumdünya Meteorologiya Təşkilatı Cenevrə (İsveçrə) və Torontoda (Kanada) iqlim dəyişikliyi üzrə ilk konfransları keçirdi. 1992-ci ildə Rio-de-Janeyroda (Braziliya) keçirilən Yer Sammitində İqlim dəyişikliyi üzrə Konvensiya 154 dövlət tərəfindən imzalandı. Birləşmiş Millətlər Təşkilatının (BMT) təşəbbüsü ilə həmin konvensiyanın tərəflər konfransı (ingiliscə Conference of the Parties – COP) təşkil edildi. “Tərəflər” dedikdə Konvensiyanı imzalayan ölkələr nəzərdə tutulur.

Tərəflər Konfransı 1995-ci ildən bəri keçirilir. Bu tədbirə hər il müxtəlif ölkələr ev sahibliyi edir. İlk konfrans Berlində keçirilib. Konfranslarda istixana qazlarının azaldılması yolunda mühüm beynəlxalq sazişlər imzalanıb: Kioto Protokolu (1997) və Paris Sazişi (2015).

29-cu konfrans 2024-cü ildə Bakıda keçirilmişdir. Bu konfransda ölkələr razılaşdılar ki, iqlim dəyişikliyinin qarşısını almaq üçün daha çox səy göstərəcəklər; təmiz, “yaşıl” enerji – günəş, külək və su enerjisindən daha çox istifadə edəcəklər; meşələri qoruyacaqlar; elektromobillərin istehsalını artıracaqlar və s.

Bakıda imzalanan sənədlər gələcək illər üçün çox vacib olacaq. Artıq dünya ölkələri daha sıx əməkdaşlıq edərək Yer kürəsini qorumağa söz veriblər.

Bəs biz nə edə bilərik?

- Gündəlik həyatda enerjiyə və suya **qənaət etməliyik.**
- Tullantıları azaltmalı və təkrar emala şərait yaratmalıyıq.
- Təbiəti qorumalı və ağaclara ziyan vurmamalıyıq.

Unutmayaq ki, böyük dəyişikliklər kiçik addımlardan başlayır!

**Söz mücrüsü**

- şiddət
- buzlaq
- qənaət etmək

## Söz ehtiyatı

**b** **Verilmiş izahların “Söz mücrüsü”ndəki hansı sözlərə aid olduğunu müəyyən edin.**

**1.** çoxlu buz yığılan yer
**2.** bir şeyi ehtiyatla, az-az işlətmək
**3.** qüvvət, güc, kəskinlik, sərtlik

## Nə anladın?

**c** **Mətnə əsasən suallara cavab verin.**

**1.** İqlim dəyişikliyinin hansı səbəbləri var?
**2.** COP konfransları hansı məqsədlə təşkil olunur?
**3.** Paris Sazişi və Kioto Protokolu nə ilə bağlıdır?
**4.** COP29 harada keçirilmişdir və bu konfransda hansı qərarlar qəbul olunmuşdur?

**ç** **Mətnə əsasən doğru fikirləri müəyyən edin.**

**1.** Meşələr atmosferə zərərli qazlar buraxır.
**2.** Paris Sazişi 2015-ci ildə imzalanıb.
**3.** COP konfransları iki ildən bir keçirilir.
**4.** Elektromobillər iqlim dəyişikliyinə qarşı mübarizədə faydalıdır.
**5.** İnsan fəaliyyəti iqlim dəyişikliyinə təsir etmir.

## Düşün və cavab ver

**d** **Mətnə aid fikri seçin.**

**a.** Mətn müəllifin təxəyyülü əsasında yazılıb.
**b.** Mətnin əsas məqsədi oxucunu əyləndirməkdir.
**c.** Mətn mövzu ilə bağlı oxucuya məlumat verir.
**d.** Müəllifin məqsədi mövzu ilə bağlı öz mövqeyini əsaslandırmaqdır.

**e** **Mətni iki hissəyə bölün və uyğun yarımbaşlıqlarla adlandırın.**

**ə** **Aşağıdakı sxemdən istifadə etməklə mətnin birinci hissəsini nəql edin.**




**f** **Sizcə, insanlar birləşib tədbir görməsələr iqlim dəyişikliyi gələcəkdə Yer üzündə hansı dəyişikliklərə gətirib çıxara bilər?**

## Yazı

**4** **a** **Təsəvvür edin ki, siz COP konfransında Azərbaycanı təmsil edirsiniz. Konfransda çıxış etmək üçün qısa bir çağırış nitqi yazın. Nitqinizdə ətraf mühitin qorunması üçün məsuliyyətli olmağı vurğulayın.**

- **Çıxışınızda aşağıdakı suallara cavabları da qeyd edin.**

**1.** Azərbaycan üçün hansı təklifləri vermək olar?
**2.** Bu təkliflər iqlim dəyişikliyinin hansı fəsadlarını aradan qaldıra bilər?

- **Hər bir təklifin nə üçün vacib olduğunu qısaca izah edin.**
- **COP30 konfransı üçün şüar düşünün.**

## Ümumiləşdirici təkrar

**1** **Nöqtələrin yerinə uyğun qoşmalar yazmaqla cümlələri tamamlayın.**

*üçün, tərəf, ilə, qədər*

1. Maşın ... getsək, daha tez çatarıq.
2. İclas nahara ... davam etdi.
3. Qonaqlar ... dadlı yeməklər bişirməliyik.
4. Hamı meydana ... gedirdi.

**2** **Hansı cümlədə qoşmanın yazılışı düzgündür?**

1. Uşaqlıq illəriyçün çox darıxıram.
2. Ağacdan yarpaq düşür,
   Bir ömrün gülləri tək. *(Bəxtiyar Vahabzadə)*
3. Otaq əlvan çiçəklərlə bəzədilmişdi.

**3** **Hansı cümlədə fərqləndirilmiş söz qoşmadır? Onun omonimlərinin hansı nitq hissəsi olduğunu müəyyənləşdirin.**

1. Zalda **qabaq** sıralar dolu idi.
2. Gülər sinfə hamıdan **qabaq** gəlmişdi.
3. **Qabaq** biz tez-tez görüşürdük.

• **Həmin qoşmanın sinonimini tapın.**

**4** **Cümlələrdə işlənmiş bağlayıcıları məna növlərinə uyğun olaraq cədvəldə qruplaşdırın.**

1. Biz gəzintiyə çıxa bilmədik, çünki bərk yağış yağırdı.
2. Hamı hiss edirdi ki, bu gün nəsə baş verəcək.
3. O həm televizora baxır, həm də telefonla danışırdı.
4. Rəna nə şeir deyəcək, nə də mahnı oxuyacaq.
5. Əgər bizdə qalmaq istəsəniz, çox şad olaram.
6. Voleybolçular yaxşı oynadılar, lakin finala çıxa bilmədilər.

| iştirak | qarşılaşdırma | səbəb | şərt | aydınlaşdırma | inkar |
|---|---|---|---|---|---|
| | | | | | |

**5** **Dördündən biri fərqlidir:**

| | | | |
|---|---|---|---|
| a. çünki | b. amma | c. hərçənd | d. qədər |
| a. tərəf | b. və ya | c. yaxud | d. əgər |
| a. ona görə də | b. üçün | c. nə / nə də | d. və |
| a. lakin | b. yəni | c. bəri | d. həm də |

**6** ***Kimi* qoşmasının işlənməsi ilə bağlı hansı fikir yanlışdır?**

**1.** Bizim evin üstə yatır
Gümüş kimi ağ buludlar. *(Xanımana Əlibəyli)*
**2.** Saat 7-dən 8-ə kimi açıq havada gəzirəm.
**3.** Bayaqdan kimi gözləyirsən?

**a.** 1-ci və 2-ci cümlələrdə qrammatik omonimdir.
**b.** 2-ci və 3-cü cümlələrdə omoformdur.
**c.** 1-ci və 3-cü cümlələrdə qrammatik omonimdir.

**7** **Uyğunluğu müəyyən edin.**

**1.** "Doğru" sözü sifətdir.
**2.** "Doğru" sözü qoşmadır.
**3.** "Doğru" sözü zərfdir.

**a.** Mənə doğru söylə, nə baş verib?
**b.** Mənə doğru gələn bu adamlar kimdir?
**c.** Mənə doğru məlumatlar lazımdır.

**8** **Kontekstə uyğun olaraq qoşmaları sinonimləri ilə əvəz edin.**

**1.** Avtobusda bizdən **savayı** heç kəs yox idi. ***(ötrü, başqa, sonra)***
**2.** Hava **haqqında** məlumata diqqətlə qulaq asdım. ***(barədə, kimi, üçün)***
**3.** Bu yol Şuşaya**can** uzanır. ***(qarşı, bəri, qədər)***
**4.** Baharda hamıdan **əvvəl** qaranquşlar doğma yerlərə qayıdır. ***(qabaq, sonra, ötrü)***

**9** **Hansı cümlələrdəki bağlayıcılarda vergül düzgün işlənib?**

**1.** Kitab böyük müəllimdir,
Sinəsində min aləm var.
O səni bir insan kimi
Gah güldürər, gah ağladar. *(Bəxtiyar Vahabzadə)*
**2.** Meyvə ilə, tərəvəzi soyuducuya qoy.
**3.** Tədbirdə müəllimlər, şagirdlər, habelə valideynlər iştirak etdilər.
**4.** Sən dərslərini indi, və yaxud dincəldikdən sonra hazırlaya bilərsən.

**10** **Nöqtələrin yerinə uyğun qoşma və bağlayıcıları yazın və məna fərqini izah edin. Bağlayıcılarda vergülün işlənmə yerini müəyyənləşdirin.**

**1.** Müəllim sinfə girdi ... dərsə başlasın.
**2.** Müəllim dərsə başlamaq ... sinfə girdi.
**3.** Müəllim sinfə girdi ... dərsə başladı.
**4.** Müəllim sinfə girdi ... sinifdə heç kim yox idi.

bölmə 4

# Fərdi inkişaf

**a** **Uyğunluğu müəyyən edin və bu mövzudakı məlumatlarınızdan istifadə etməklə "Uğura gedən yol" mövzusunda danışın.**

**1.** Özünəinam uğurun yarısıdır. *(Teodor Ruzvelt)*
**2.** Uğur səbir edənlərə gəlir, təslim olanlar isə yalnız peşmanlıq görür. *(Napoleon Hill)*
**3.** Kitablar insanın qanadlarıdır. *(Viktor Hüqo)*

a MÜTALİƏ
b DÖZÜM
c İNAM

## Dinləmə 05



**b** **"Demosfen" mətnini dinləyin. Suallara cavab verin.**

**1.** Demosfen kim olub?
**2.** Demosfenin ilk çıxışı necə qarşılandı?
**3.** Demosfenin hansı qüsurları var idi?
**4.** Məşhur natiq qüsurlarından necə xilas oldu?

**c** **Sizcə, Demosfenin uğur qazanmasının əsas səbəbi nə idi?**

**ç** **Demosfenin xarakterini mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.**

**d** **Natiq olmaq istəsəniz, özünüzdə hansı vərdişləri inkişaf etdirməlisiniz? Aşağıdakı ifadələrin mənalarını araşdırın və bu haqda danışın.**

*intonasiya, diksiya, səs tonu, jest, mimika*

**e** **Mütaliə üçün tövsiyələri oxuyub şərh edin. Siz bu tövsiyələrdən hansına əməl edirsiniz?**

### SƏMƏRƏLİ MÜTALİƏ ÜÇÜN TÖVSİYƏLƏR

**Uyğun şərait**

Kitab oxumaq üçün sakit guşəyə çəkilin. Televizoru söndürün, mobil telefonunuzun səsini alın ki, səs-küy diqqətinizi yayındırmasın.

**Qeydlər etmək**

Oxuyarkən vacib cümlələrin altından xətt çəkin. Gələcəkdə o kitabı yenidən əlinizə aldıqda həmin cümləni asanlıqla tapa biləcəksiniz. Bu metod oxuduqlarınızı unutmamaq üçün də çox faydalıdır.



Qeyd üçün xüsusi dəftər də ayıra bilərsiniz. Bu dəftərə hər oxuduğunuz kitabla bağlı şərhlərinizi yazın. Vaxtaşırı bu qeydlərə yenidən baxaraq yaddaşınızı təzələyəcəksiniz.

**Kitab seçimi**

Qarşınıza çıxan hər kitabı almağa və oxumağa tələsməyin. Oxuyacağınız kitab və mənbələri müəyyən edin, maraq sahənizlə əlaqələndirməyə çalışın. Mütəxəssislər tərəfindən məsləhət görülən, sizin inkişaf etməyinizə yardımçı olacaq əsərləri seçin.

**ə** **Müzakirə. Mütaliə ilə bağlı kəlamları oxuyun. Hansı fikirlə razısınız? Seçiminizi əsaslandırın.**

- Bir neçə kitab oxumaqdansa, yaxşı kitabı bir neçə dəfə oxumaq yaxşıdır. *(Jan Kolber)*
- Ən yaxşı kitab hələ oxumadığın kitabdır. *(latın atalar sözü)*

**f** **Suallara cavab verməklə mütaliə vərdişlərinizin inkişafına yönələn plan hazırlayın.**

## Oxu planım

***Oxudan əvvəl***

- Hər gün mütaliəyə nə qədər vaxt ayırmağı planlayırsınız?
- Daha çox hansı növ əsərləri oxumağı düşünürsünüz? (bədii, elmi və s.)
- Kitab seçimində kimdən məsləhət ala bilərsiniz?
- İlin sonuna qədər neçə kitab oxumağı hədəfləyirsiniz?

***Oxu zamanı***

- Mütaliə zamanı rastlaşdığınız yeni sözləri leksikonunuza necə daxil edəcəksiniz?
- Oxuduqlarınızı unutmamaq, vaxtaşırı xatırlamaq üçün nə edəcəksiniz?

***Oxudan sonra***

- Oxuduğunuz əsərləri kiminlə müzakirə edəcəksiniz?

## Təqdimat

**g** **"Mənim oxu strategiyam" mövzusunda təqdimat hazırlayın.**

- Belə bir strategiyanın nə üçün vacib olduğunu bildirin.
- İl ərzində oxuyacağınız kitabların siyahısını tərtib edin.
- Bu kitabları seçməyinizin səbəblərini açıqlayın.
- Kitabların oxunması üçün təqvim planı və taktikanızı hazırlayın.

**Sözlərin izahı**

**Leksikon** – bir şəxsin öz nitqində istifadə etdiyi söz ehtiyatı.
**Strategiya** – müəyyən bir hədəfə çatmaq üçün uzunmüddətli tədbirlər planı.
**Taktika** – strateji məqsədlərə nail olmaq üçün düşünülmüş konkret addım və üsullar.

**1 a** **Zəif və güclü tərəfləriniz haqqında düşünün və aşağıdakı cədvəli tamamlayın.**

| | Bacarıram | Bacarmıram |
|---|---|---|
| **1.** | *Kompüterdə təqdimat hazırlaya bilirəm.* | *Auditoriya qarşısında sərbəst danışa bilmirəm.* |
| **2.** | | |
| **3.** | | |

- **Aşağıdakı suallar ətrafında müzakirə aparın.**

**1.** “Bacarıram” və “bacarmıram” sözləri insanda hansı hissləri yaradır?

**2.** “Bacarmıram” sütununa qeyd etdiyiniz cümlələri seçib “bacarmalıyam” kimi qeyd edin. Bu zəif cəhətinizi aradan qaldırmaq üçün hədəflər seçin.

## ƏLVİDA, “BİLMİRƏM”!

Bizə dərs deyən müəllimlər arasında ən çox sevdiyim Günay müəllimdir. Hətta mənim rəfiqələrimdən bir neçəsi ona oxşamağa çalışır, onun kimi müəllim olmaq istəyir. Günay müəllim hər bir fikri bizə elə tərzdə çatdırır ki, biz dərhal onu anlayır və dediklərinə əməl etməyə can atırıq.

Budur, ilk dərs günüdür. Səbirsizliklə Azərbaycan dili dərsini gözləyirik. Nəhayət, Günay müəllim sinfə daxil olur. Həmişəki kimi, üz-gözündə səmimiyyət, dodağında təbəssüm... Hamıda xoş **ovqat** yaradan təbəssümü heç vaxt simasından əskik olmur. Adama elə gəlir ki, Günay müəllim tamamilə qayğısız həyat sürür. Ancaq, yəqin ki, belə ola bilməz. Sadəcə, o, qayğılarını qapı arxasında qoyub sinfə daxil olur...

Günay müəllim sinfə daxil olub şagirdlərlə salamlaşdı. Sonra dərsin mövzusuna keçdi:

– Bugünkü dərsimiz...

Sözünə ara verib bir qədər düşündü. Sonra dedi:

– Bunu sonda birlikdə müəyyən edərik. İndi isə mən sizə vərəqlər paylayacağam. Siz orada “Nəyi bacarmıram?”, “Nəyi bilmirəm?” suallarına cavab verməklə ən zəif cəhətlərinizi qeyd edərsiniz.

Mən bir xeyli qarşımdakı ağ vərəqə baxıb fikrə daldım. Heç vaxt öz zəif cəhətlərim haqqında düşünməmişdim. Nəhayət, birinci cümləmi yazdım:

“Məsələnin tənliyini qura bilmirəm”.

Bir az da düşündükdən sonra bir-birinin ardınca yazmağa başladım:

“Sinif qarşısında sərbəst çıxış edə bilmirəm”.

“Küsdüyüm rəfiqəmlə barışmaq üçün ilk addımı ata bilmirəm”.

“Aytən kimi rəqs etmək istəyirəm, amma bacarmıram”...

Artıq səhifənin yarıdan çoxunu yazmışdım. Öz-özümə düşündüm: “Mənim nə qədər zəif cəhətim varmış!..” Başımı qaldıranda gördüm ki, bütün uşaqlar ciddi şəkildə qeydlər aparırlar. Hətta Günay müəllim də nəsə yazırdı. O, yazısını bitirib dedi:



**Söz mücrüsü**

- ovqat • anonim • qapalı
- ərköyün • təsərrüfat

– Kifayətdir. Yazınızı imzalamağa ehtiyac yoxdur. Bu sorğu **anonim** keçirilir. Vərəqləri qatlayın. İstəsəniz, yazdıqlarınızı bir-birinizlə paylaşa bilərsiniz. Sonra vərəqləri bu qutuya atın, – deyib masanın üstünə bir qutu qoydu.

Mən sinfə göz gəzdirdim... Zəif cəhətlərimi kimə etiraf edə bilərdim ki?..

Elə bu vaxt Günay müəllim mənə yaxınlaşdı və yavaşca dedi:

– Nigar, yazını mənimlə dəyişmək istəyirsən?

Əvvəlcə özümü itirdim. Sonra isə sevinc və qürur hissi keçirdim. Vərəqlərimizi dəyişdik. Sevimli müəllimimin yazdıqlarını oxuduqca onu daha yaxından tanımağa başlayırdım:

“Başladığım elmi işi tamamlaya bilmirəm”.

“Bəzən həftələrlə ata-anama baş çəkməyə vaxt tapa bilmirəm”.

“Oğlumu **ərköyün** böyüdürəm. Onunla kifayət qədər ciddi rəftar edə bilmirəm”.

“Sinfimin ən **qapalı** xarakterli uşağı Oqtaydır. Onun qəlbinə yol tapa bilmirəm”.

Qutuya vərəqi sonuncu atan mən oldum. Gözüm müəllimə sataşdı, bir-birimizə baxıb gülümsədik. Günay müəllim qutunun ağzını örtüb ayağa qalxdı və dedi ki, onun arxasınca gedək. Hamımız maraq içində məktəbin çıxış qapısına tərəf yollandıq.

Müəllim oğlanlardan birini bel gətirmək üçün **təsərrüfat** otağına göndərdi. Biz idman meydançasının yanındakı ağaclığa çatdıq. Müəllim hər tərəfə qol-budaq atmış irigövdəli bir ağacın yanında dayanıb oğlanlara çala qazmağı tapşırdı. Sonra qutunu çalaya qoydu və bizə çalanı torpaqla doldurmağı tapşırdı. Çox keçmədi ki, “bilmirəm”lərlə dolu qutu torpağın altında görünməz oldu.

Ətrafa dərin sükut çökdü. Hər kəs yarım saat əvvəl qeyd etdiyi zəif cəhətlər haqqında düşünür, sanki ürəyində onlarla vidalaşırdı.

Nəhayət, Günay müəllim sükutu pozdu:

– Uşaqlar, "bilmirəm"lər hamımızın dilində var. Evdə də, məktəbdə də bu sözü tez-tez səsləndiririk. Bu gün isə biz "bilmirəm"lərlə vidalaşırıq. İnanıram ki, siz onu "bilirəm", "bacarıram"larla əvəz edəcəksiniz.

Hamı heyranlıqla Günay müəllimə baxırdı...

Sinfə qayıtdıqdan sonra Günay müəllim təklif etdi ki, bugünkü dərsin adını müəyyən edək. Müxtəlif təkliflər oldu:

– Bacarıqsızlığa əlvida!

– Yaşasın "bilirəm"!

– Əlvida, "bilmirəm"!

Adı nə olur olsun, bu dərs ömrüm boyu yadımdan çıxmayacaq. Başqa uşaqları deyə bilmərəm, amma mən bundan sonra "bacarmıram" sözünü dilimə gətirməyəcəyəm. Bu sözü unutmaq üçün əlimdən gələni edəcəyəm.

*Rafiq İsmayılov*



## Söz ehtiyatı

**b** **"Anonim" sözünün izahını oxuyun. Bu sözü hansı sözlərlə işlətmək olar?**

***Anonim*** – müəllifi bəlli olmayan, imzasız.

***sirr*** ***arzu*** ***məktub*** ***tədbir*** ***məqalə***

**c** **Cümlələrdəki "bilmək" sözü hansı mənalarda işlənib? Uyğunluğu müəyyən edin.**

- Mən başqalarından daha bilikliyəm, çünki onlar elə ***bilirlər***[1] ki, hər şeyi ***bilirlər***[2], mən isə bilirəm ki, heç nə bilmirəm. *(Sokrat)*
- Üzməyi ***bilmək***[3] üçün üzmək lazımdır. *(Mao Tszedun)*

**a.** öyrənmək
**b.** bacarmaq
**c.** düşünmək

- **Bu mənalardan hansı oxuduğunuz mətnin adındakı "bilmirəm" sözünə uyğundur?**

**ç** **"Qapalı" sözünün mətndəki mənasını müəyyən edin. Bu sözü digər mənalarında cümlədə işlədin.**

*Sinfimin ən **qapalı** xarakterli uşağı Oqtaydır.*

**1.** Qapanmış, bağlı; qapısı və ya qapağı örtülmüş. □ *Qapalı ev.*
**2.** Qabağına sədd çəkilmiş, bağlı. □ *Qapalı yol.*
**3.** Ucları, kənarları birləşdirilmiş. □ *Qapalı dairə.*
**4.** Kənar adamların girməsinə, iştirakına icazə verilməyən; gizli. □ *Qapalı iclas.*
**5.** Hamıdan ayrı duran, ünsiyyətə girməyən, ürəyini heç kəsə açmayan. □ *Qapalı adam.*

## Nə anladın?

**d** **Mətnə əsasən suallara cavab verin.**

**1.** Bu dərsdə Günay müəllimin məqsədi nə idi?
**2.** Dərs hansı mərhələlərdən ibarət idi?
**3.** Nə üçün müəllim sorğunu anonim keçirdi?
**4.** Nə üçün Nigar öz zəif cəhətləri haqqında danışmağa tərəddüd edirdi?
**5.** Müəllim öz məqsədinə çata bildimi? Cavabınızı əsaslandırın.

## Düşün və cavab ver

**2** **a** **Mətndən müvafiq epizodları danışmaqla Günay müəllimin və Nigarın xarakterinə münasibət bildirin.**

**b** **Mətndə Günay müəllim uşaqlara deyir:** *"İstəsəniz, yazdıqlarınızı bir-birinizlə paylaşa bilərsiniz".*
**Sizcə, nə üçün müəllim bu tapşırığı göstəriş kimi deyil, təklif şəklində verir?**

**c** **Qutunun torpağa basdırılması simvolik olaraq nəyi göstərir?**

**ç** **Xarakterindəki qüsurlardan xilas olmaq üçün insan hansı keyfiyyətlərə malik olmalıdır?**

## Yazı

**d** **"Xarakterimdəki hansı zəif cəhətə *"əlvida"* deyərdim" mövzusunda esse yazın.**

**Plan:**
**1.** Xarakter nədir? Onu necə möhkəmləndirmək olar?
**2.** Mənim xarakterim: güclü və zəif cəhətlərim.
**3.** Zəif cəhətlərimdən necə xilas ola bilərəm?
**4.** Mükəmməl xarakter mənə həyatda nə qazandırar?

## Yazı

**3 a** **Cümlələri müqayisə edin. İkinci cümlələrdəki fərqləndirilmiş sözlərin qrammatik funksiyasını izah edin.**

**1.** Səni çoxdan gözləyirik.
**2.** **Axı** səni çoxdan gözləyirik.

**1.** Biz belə layihələrə üstünlük veririk.
**2.** Biz **məhz** belə layihələrə üstünlük veririk.

**Bunları bilməliyik** ƏDAT

Köməkçi nitq hissələrindən biri olan ***ədat*** söz, söz birləşməsi və cümlələrin təsir gücünü artırır, cümləyə emosionallıq gətirir. Məsələn:
- Sual mənasını gücləndirir: ***Bəs** işə getmirsən?*
- Əmr mənasını gücləndirir: ***Qoy** həmişə sülh olsun!*
- Özündən sonrakı ifadəni dəqiqləşdirir: *Mən **məhz** bu şəhəri görmək istəyirəm.*

*Ən, daha, lap* ədatları sifətin çoxaltma dərəcəsini də yaradır: ***ən*** güclü, ***lap*** uzaq və s.

**b** **Cümlələrdəki ədatları göy hərflərlə verilmiş elə sözlə dəyişin ki, məna fərqi yaranmasın.**

**1.** Məgər sən toyuqlara dən verməmisən? (qoy, ki)
**2.** Kaş yuxularım çin ola. (təki, gör)
**3.** Sabir görüşə düz vaxtında gəldi. (bircə, lap)
**4.** Elə mən istəyən xalçadır. (ən, əsl)

**c** **Verilmiş ədatları müvafiq cümlələrə əlavə edin.**

*kaş, axı, gəl, ən, bəs*

**1.** ... əvvəlcə bu mərhələni keçək.
**2.** Bu mənim həyatımda ... əlamətdar hadisə idi.
**3.** ... deməmişdim ki, bu qutuya əl vurma?
**4.** ... mən nə biləydim ki, işıqlar sönəcək.
**5.** ... həmin gün yağış yağmaya.

**ç** **Cümlələrdəki fərqləndirilmiş ədatların ifadə etdiyi məna ilə bağlı uyğunluğu müəyyən edin.**

**1.** Sual mənasını qüvvətləndirir.
**2.** Əmr mənasını gücləndirir.
**3.** Özündən sonrakı ifadəni dəqiqləşdirir.
**4.** Sifətin çoxaltma dərəcəsini yaradır.

**a.** Uşaqlar bu oyunu ***məhz*** sizinlə oynamaq istəyirlər.
**b.** Dünyanın ***ən*** duzlu dənizi Ölü dənizdir.
**c.** ***Gəlin*** birlikdə təbiəti qoruyaq.
**ç.** ***Məgər*** qeydləri diqqətlə oxumamısan?

**4 a** **Cümlədə “ki” sözünün funksiyasını müəyyən edin.**

*Xatırladaq ki, kitab uşağın emosional və zehni inkişafına önəmli təsir göstərir.*

**a.** Cümlənin təsir gücünü artırır.
**b.** Cümlələr arasında əlaqə yaradır.

**Bunları bilməliyik** **“Kİ” ƏDAT, BAĞLAYICI VƏ ŞƏKİLÇİ KİMİ**

***Ki*** bağlayıcısı, adətən, mürəkkəb cümlənin tərkib hissələri arasında işlənir. Bu bağlayıcıdan sonra ***vergül qoyulur***:

- Öyrəndik ***ki,*** müzakirə sabah keçiriləcək.

***Ki*** ədatı cümlənin ortasında və ya sonunda işlənərək ona emosionallıq və sual məzmunu gətirir. ***Ki*** ədatından sonra ***vergül qoyulmur***:

- Biz ***ki*** həmişə vaxtında gəlirik.
- Müəllimin izahını diqqətlə dinləməmişdin ***ki?***

***-ki*** həm də leksik şəkilçidir və sözə bitişik yazılır: indi***ki*** gənclər

**b** **Cümlələrdəki “ki”nin funksiyasına diqqət edin və uyğunluğu müəyyənləşdirin.**

**1.** Burada gülməli nə var ki?
**2.** O bilirdi ki, düzgün hərəkət etməyib.
**3.** Dünənki külək yeni əkdiyimiz ağacları aşırıb.

**a. bağlayıcı**
**b. ədat**
**c. şəkilçi**

**Bunları bilməliyik** **“DA”, “DƏ” ƏDAT, BAĞLAYICI VƏ ŞƏKİLÇİ KİMİ**

***Da, də*** kontekstdən asılı olaraq, həm bağlayıcı, həm də ədat kimi işlənir. Cümlədə ***da, də*** bağlayıcısı iştirak məzmunu ifadə edir:

- Parkda meyvə ağacları ***da*** var idi.

***Da, də*** ədat kimi cümlədəki fikri qüvvətləndirir, adətən, cümlənin sonunda işlənir:

- Niyə susursan, cavab ver ***də*!**

***-da, -də*** həm də yerlik hal şəkilçisidir və sözə bitişik yazılır:

- Yarış***da*** qalib gələn idmançılar arasında bizim məktəblilər də var idi.

**c** **Cümlələrdəki “da”, “də”nin funksiyasına diqqət edin və uyğunluğu müəyyənləşdirin.**

**1.** İlanın ağına da lənət, qarasına da. *(Atalar sözü)*
**2.** Adam da bu qədər tənbəl olar?
**3.** Bu həyətdə yaşayanları köçürəcəklər.

**a. şəkilçi**
**b. bağlayıcı**
**c. ədat**

**1 a Aşağıdakı aforizmləri fəslin mövzusu ilə əlaqələndirib şərh edin.**

**1.** Ən böyük qələbə ümidsizlik üzərində qələbədir. *(Bernanos)*
**2.** Həyatdakı uğursuzluqların çoxu uğura çox yaxın ikən təslim olan insanlara aiddir. *(Tomas Edison)*

• **Qruplarla iş. Qeydlər götürməklə mətnləri oxuyun və qeydləriniz əsasında məzmununu nəql edin.**

## UĞUR HEKAYƏLƏRİ

I qrup

### "Harri Potter"in yaradıcısı




Məşhur ingilis yazıçısı Coan Roulinq ədəbiyyat dünyasına "Harri Potter" romanlar seriyası ilə daxil olmuşdur.

Coan 1990-cı ildə "Harri Potter və fəlsəfə daşı" adlı ilk romanını yazmağa başlamışdı. Yazıçı romanı təxminən üç ilə bitirmişdi. Lakin uzun müddət heç bir nəşriyyat bu əsəri nəşr etməyə razılıq vermirdi. Nəhayət, 1997-ci ildə "Bloomsbury" nəşriyyatı əsər üçün müəllifə 4000 ABŞ dolları təklif edəndə 32 yaşlı yazıçı bunu əsl uğur kimi qiymətləndirdi. 1998-ci ildə roman ilin ən yaxşı uşaq kitabı seçildi və Coan Roulinqin yaradıcılıq yolunda mühüm dönüş nöqtəsi oldu. 2001-ci ildə "Uorner Brazers" kinostudiyası onun ilk romanını ekranlaşdırdı.

Qısa müddət ərzində Harri Potter obrazı dünyanın bir çox ölkələrində oxucuların sevimlisinə çevrildi. Xüsusilə də "Harri Potter və ölüm talismanları" romanı satışa çıxarıldığı gün (21 iyul 2007-ci il) dünyanın müxtəlif şəhərlərində 12 milyon nüsxə satılaraq həmin ilin bestselleri elan olundu.



Coan Roulinqin romanları 80-dən çox dilə tərcümə olunmuş və 25 il ərzində 350.000.000 nüsxə ilə satılmışdır. 2008-ci ildə o, dünyanın ən varlı qadın yazıçısı elan edilmişdir.

Yazıçı uğur qazanmağının səbəbini belə izah edir: "Mən heç vaxt kitabın nə qədər uğurlu olacağını düşünmürəm. Sadəcə, hiss etdiyim kimi yazıram. Əgər yazarkən mənim qəlbim sevinirsə, bilirəm ki, oxucum da sevinəcək. Əgər qəlbim kədərlidirsə, demək, o da qəhərlənəcək".

## Söz ehtiyatı

**b** **Mətndən verilmiş aşağıdakı cümləni bir daha oxuyun və kontekstə əsasən "bestseller" sözünün mənasını izah edin.**

*Xüsusilə də "Harri Potter və ölüm talismanları" romanı satışa çıxarıldığı gün (21 iyul 2007-ci il) dünyanın müxtəlif şəhərlərində 12 milyon nüsxə satılaraq həmin ilin **bestselleri** elan olundu.*

**c** **Mətndən aşağıdakı fikirləri sübut edən faktları müəyyən edin.**

- Coan Roulinq 1965-ci ildə anadan olmuşdur.
- Yazıçı "Harri Potter və fəlsəfə daşı" adlı romanını 4 il müddətində çap etdirə bilməmişdir.

II qrup

### Animasiya imperiyası



"Pinokyo", "Bembi", "Sinderella", "Alisa möcüzələr ölkəsində", "Piter Pen"... Görəsən, Uolt Disneyin bu cizgi filmlərinə baxmayan varmı?

Uolt Disney 1901-ci ildə Çikaqoda dünyaya gəlib. O, kiçik yaşlarından rəssamlıq qabiliyyəti ilə seçilirdi. Kağız-qələm olmadığından ilk rəsmlərini qatran vasitəsilə divarlara çəkirdi. 8 yaşında olarkən kənd həkiminin sevimli atının şəklini çəkir və özünün ilk **"qonorar"ını** qazanır. Bu kiçik təcrübə onun böyük yaradıcılıq yolunun başlanğıcı oldu.

Uolt Disney bir gündə məşhur olmayıb. İlk **animasiya** studiyasını 20 yaşında açan Disney dəfələrlə iflas etmiş, lakin heç vaxt xəyallarından vaz keçməmişdi.

1923-cü ildə Disney Hollivuda gələrək "xəyallar ölkəsini" fəth etməyə qərar verdi. O, əvvəlcə "Alisa möcüzələr diyarında", daha sonra "Osvald Dovşanı" animasiya filmləri seriyasını yaratdı. Osvald Dovşanı obrazı böyük populyarlıq qazansa da, tezliklə müəlliflik hüququ Disneydən alındı. Uğurun bir addımlığında olan Disney yenə də xəyallarından vaz keçmədi. 1928-ci ildə Mikki Maus obrazını yaratdı. Balaca siçanın macəraları milyonlarla insanın qəlbini fəth etdi və Disney studiyasını dünyaya tanıtdı. Ardınca Donald Dak, Qufi, Pluton kimi qəhrəmanlar meydana gəldi. 1937-ci ildə isə tarixdə ilk **tammetrajlı** rəngli animasiya filmi olan "Ağbəniz və yeddi cırtdan" təqdim olundu.

**Söz mücrüsü**
- qonorar
- animasiya
- tammetrajlı

Filmlərlə kifayətlənməyən Disney 1955-ci ildə Kaliforniyada Disneyland əyləncə parkını açdı. Daha sonra Florida, Paris, Tokio, Şanxay və digər şəhərlərdə yeni Disneyland parkları inşa edildi. Bu parklar Disney imperiyasını bütün dünyaya tanıtdı.

Disney uğurunun sirrini belə izah edirdi: "Həyatımdakı bütün uğursuzluqlar, problem və maneələr məni daha da gücləndirirdi. Uğursuzluğu heç kim qəbul etmək istəmir, lakin bizə dəyən zərbələr həyatımızı ən doğru istiqamətə çevirə bilər".

## Söz ehtiyatı

**ç** **Mətndə fərqləndirilmiş sözlərin işləndiyi cümlələri bir daha oxuyun. Kontekstə əsasən uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** qonorar | **a.** şəkilləri hərəkətə gətirməklə çəkilən film |
| **2.** animasiya | **b.** bir seansda göstərilmək üçün kifayət qədər uzunluğu olan kinolent |
| **3.** tammetrajlı | **c.** yaradıcı iş üçün ödənilən əməkhaqqı |

**d** **Mətndən aşağıdakı fikirləri sübut edən faktları müəyyən edin.**

**1.** Uolt Disney ilk animasiya studiyasını təxminən 1921-ci ildə açmışdır.
**2.** Dünyanın bir sıra şəhərlərində Disneyland parkları var.

III qrup

## Basketbolun əfsanəsi



Tarixin ən böyük basketbolçularından biri hesab edilən Maykl Cordan inanılmaz atışları ilə **azarkeşlərə** basketbolu sevdirən əfsanələrdəndir.

Maykl uşaq yaşlarından basketbol oyunlarına həvəs göstərirdi. Onun ən böyük arzusu peşəkar basketbolçu olmaq idi. Bu məqsədlə o, liseydəki basketbol komandası üçün seçmələrə qatılır. Onun ilk cəhdi uğursuzluqla nəticələnir. Cordanın boyu bu oyun üçün qısa (1,80 m) olduğundan komandaya seçilmir. Lakin bu uğursuzluq Mayklı hədəfindən yayındırmır. O, hər gün daha çox məşq etməyə başlayır. Yorulmadan çalışaraq növbəti il yenidən seçmələrə qatılır və bu dəfə komandaya seçilir.

Maykl Cordan sonrakı illərdə bütün dünyada basketbolun simvoluna çevrildi. Özünəməxsus zərbələr endirmə bacarığına görə **fanatları** ona "Uçan Cordan" ləqəbini verdilər. O, "Çikaqo Bullz" komandası ilə 6 dəfə NBA (National Basketball Association – Milli Basketbol Assosiasiyası) çempionu oldu. Beş dəfə "NBA-nın ən dəyərli oyunçusu" seçildi. Cordan bu uğurları ilə adını NBA tarixinə ən yaxşı müdafiəçi kimi yazdırmağı bacardı.

Maraqlıdır ki, Maykl Cordan da idmanda iz qoymuş bir çox məşhur şəxslər kimi, uğura gedən yolun məhz uğursuzluqlardan keçdiyini vurğulayır. O, müsahibələrinin birində bu haqda deyir: "Karyeram boyu 9000 dəfə səbətə atdığım top hədəfdən yayınıb. Təxminən 300 oyunu uduzmuşam. 26 dəfə komandanın mənə etibar etdiyi cərimə zərbəsini uğursuz yerinə yetirmişəm. Mən dəfələrlə uğursuz olmuşam, amma həmişə cəhd etmişəm. Və bu səbəbdən uğur qazanmışam".

**Söz mücrüsü**
• azarkeş • fanat

**e** **Mətnə əsasən "azarkeş" və "fanat" sözlərinin yaxın mənalı olduğunu əsaslandırın.**

**ə** **Maykl Cordanın fikirlərini mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.**

- Mən uğursuzluğu qəbul edə bilərəm, amma cəhd etməməyi qəbul edə bilmirəm.
- Mən həmişə uğur qazanacağıma inanırdım. Çünki uğursuzluğu ağlıma belə gətirmək istəmirdim.
- Əgər öz səviyyən səni qane edirsə, deməli, geriləməyə başlamısan.
- Uğurumun səbəbi təslim olmamağımdadır.
- Böyük işlər görmək üçün əvvəlcə özünə inanmalısan.

IV qrup

## Böyük ixtiraçı



Tomas Alva Edison dünyanın ən tanınmış ixtiraçılarından biri hesab olunur. O, 1093 patent əldə edərək elm və texnologiya tarixində mühüm yer tutmuşdur.

Onun ən böyük arzusu insanların həyatını asanlaşdıracaq, gündəlik yaşamda faydalı olacaq ixtiralar etmək idi. Edison daim yeni ideyalar axtarır, təcrübələr aparırdı.

Edisonun adını elm tarixinə qızıl hərflərlə yazdıran ixtiralarından biri də elektrik lampasıdır. Elektrik lampasını icad etmək üçün o, minlərlə sınaq keçirmiş, lakin istəyinə nail ola bilməmişdi. Bu səbəbdən həmkarları və əməkdaşları ona bu işdən əl çəkməyi məsləhət gördülər. Edison isə onlara belə cavab verirdi: "Cənablar, doğrudur, 3000 sınaq nəticəsiz oldu. Amma biz böyük bir üstünlük qazandıq: indi bilirik ki, həmin 3000 xətaya bir daha yol verməyəcəyik".

Həqiqətən də, Edison təcrübələrini israrla davam etdirərək, nəhayət, elektrik lampasını icad etdi və bununla bütün dünyanı işıqlandırdı.

**f** **Mətndən seçilmiş cümlələrdə hansı söz və ifadələr məcazi mənada işlənib?**

*1. Edisonun adını elm tarixinə qızıl hərflərlə yazdıran ixtiralarından biri də elektrik lampasıdır.*

*2. Həqiqətən, Edison təcrübələrini israrla davam etdirərək, nəhayət, elektrik lampasını icad etdi və bununla bütün dünyanı işıqlandırdı.*

**g** **Tomas Edisonun fikirlərini mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.**

- Heç vaxt işini yarımçıq qoyma, çünki uğurun açarı səbir və davamlılıqdır.
- Əldə ediləcək hər bir şeyin üç əsas sirri var: birincisi – zəhmət, ikincisi – davamlılıq, üçüncüsü isə sağlam düşüncə.
- Ən böyük zəifliyimiz tez təslim olmaqdır. Uğura aparan ən etibarlı yol isə həmişə yenidən cəhd etməkdir.
- Uğur ən çox cəhd edənlərə gəlir.

**2 a** **Oxuduğunuz və dinlədiyiniz uğur hekayələrinə istinad edərək "Uğura gedən yol" mövzusunda məruzə edin.**

### *Məruzənin formatı*

- Məruzəyə ayrılan vaxt: 3-4 dəqiqə
- Məruzənin məqsədi: dinləyiciləri məlumatlandırmaq, inandırmaq, motivasiya etmək

**Sözlərin izahı**

**Məruzə** – bir mövzu haqqında irəlicədən hazırlanıb söylənilən nitq.

**Format** – hər hansı tədbirin təşkili və təqdimatı üsulları.

### *Məruzənin planı*

- Mövzuya giriş
- Məruzənin əsas tezisi: 1 və ya 2 cümlə
- Dəlillər: fakt (mənbə), sitat, nümunələr, şəxsi təcrübə və s.
- Nəticə: mövzunu yekunlaşdıran şüar, çağırış

### *Məruzə edərkən*

1. Bütün auditoriyanın eşidə biləcəyi səs tonu ilə danışın.
2. Göz təması qurmaqla dinləyiciləri söylədiyiniz fikirlərə inandırmağa çalışın.
3. Jest və mimikalardan yerli-yerində istifadə edin.
4. Əsas mövzudan kənara çıxmayın.
5. Nitqinizi müəyyən edilmiş müddətdə bitirməyə çalışın.
6. Nitqinizin sonunda auditoriyaya təşəkkür edin.

## Yazı

**3 a** **Hansı cümlədə festival haqqında məlumat əminliklə ifadə olunub? Cümlədəki hansı söz sizin bu qənaətə gəlməyinizə səbəb oldu?**

**1.** Bəlkə, kitab festivalını növbəti həftəyə keçirək?
**2.** Əlbəttə, kitab festivalını gələn həftə keçirəcəyik.

**Bunları bilməliyik** **MODAL SÖZLƏR**

***Modal söz*** köməkçi nitq hissələrindən biridir. O, cümlənin ümumi məzmunu ilə bağlı olur: fikrə münasibət ifadə edir, fikirlər arasında əlaqə yaradır, fikrin mənbəyini bildirir.

**Danışanın fikrə münasibəti:**
***Təəssüf ki,*** *tədbir vaxtında keçirilmədi.* (təəssüf)
***Əlbəttə,*** *zəhmət çəkən insan uğur qazanacaq.* (təsdiq, əminlik)

**Fikirlər arasında əlaqə:**
*Biz planı müzakirə etdik,* ***beləliklə,*** *işə başlamağa hazırıq.* (nəticə, ümumiləşdirmə)
***Əvvəla,*** *hər kəsin fikrini dinləyək, sonra qərar verək.* (sıra, ardıcıllıq)

**Fikrin mənbəyi:**
***Fikrimcə,*** *bu xəmir hələ çox su aparacaq.*

**b** **Modal sözlərin cümlədəki məna xüsusiyyətlərini müəyyən edin.**

**1.** ***Heyif ki,*** dünənki tədbirdə iştirak edə bilmədim.
**2.** ***Məncə,*** axşama yağış yağacaq.
**3.** Bu qərar, ***şübhəsiz ki,*** hamının xeyrinə olacaq.
**4.** Sözlərindən belə başa düşdüm ki, ***sanki*** nəyisə gizlədir.
**5.** Hamı əl-ələ verdi, ***beləliklə,*** iş daha tez başa çatdı.
**6.** O artıq yola çıxıb, ***ehtimal ki,*** bir saata burada olar.

**a.** fikrin mənbəyi
**b.** əminlik
**c.** bənzətmə
**ç.** təəssüf
**d.** güman, şübhə, ehtimal
**e.** ümumiləşdirmə

**c** **Cümlələrdə modal sözləri tapın və ifadə etdiyi mənanı müəyyən edin. Uyğun yerdə vergül işarəsi qoyun.**

**1.** Sənətə olan sevgin sözsüz ki bizi heyran edir.
**2.** Demək sən bu kitabların hamısını oxumusan.
**3.** Sən bəlkə onun dediklərini düzgün anlamamısan.
**4.** Yağışın səsi elə bil musiqi sədaları kimi səslənirdi.
**5.** Yəqin ki bu qalanın beş əsrdən artıq yaşı var.
**6.** Bu hadisədən sonra onu bir daha görə bilmədik əfsus.

**Yadda saxla**

**Modal sözlər** cümlədə vergüllə ayrılır. *Sanki, guya, elə bil* modal sözlərindən sonra vergül qoyulmur.

## Mütaliə et

**1 a** **Sizcə, insan mədəni səviyyəsini yüksəltmək üçün nə edə bilər?**

**b** **Aşağıdakı epiqrafı oxuyub şərh edin. Sizcə, bu fəsildə nədən bəhs olunacaq?**

# MƏDƏNİ SƏVİYYƏNİ NECƏ YÜKSƏLTMƏLİ?

*Həqiqi xoşbəxtlik var-dövlətə sahib olmaqla deyil,*
*ağıl və fəzilətə sahib olmaqla mümkündür.*
*Aristotel*

Mədəni səviyyəsi yüksək olan insanlar həyatda başqalarından seçilirlər. Belə insanlar geniş dünyagörüşünə malikdirlər. Söhbət nədən gedirsə getsin, onlar maraqlı fikirlər yürüdə bilirlər. Nitqləri gözəldir. Mövzuları yaxşı bildikləri üçün açıqlamaları doğru, şərhləri isə ağlabatan, təsirli və aydın olur. Dünyaya tamam başqa gözlə baxırlar. Hər cəhətdən fərqli, seçilən və xoşagələndirlər. Bunlar isə çox vacib xüsusiyyətlərdir.

***

İnkişafın təməli mütaliədir. İnsan bildiklərinin böyük hissəsini oxuyaraq qazanır.

Mütaliə:

- *dünyagörüşünü genişləndirir;*
- *təxəyyülü və yaradıcı düşüncəni inkişaf etdirir;*
- *söz ehtiyatını artırır;*
- *empatiya hissini formalaşdırır;*
- *yeni dostlar və həmsöhbətlər qazandırır.*



Mütaliə ilə yanaşı, araşdırma bacarığı da inkişaf etdirilməlidir. Bəzən kitablarda bizə tanış olmayan ölkə, şəhər və ya tarixi şəxsiyyət adına, eləcə də akademik sözlərə rast gəlirik. Yaxşı oxucu müxtəlif mənbələrdən həmin sözləri araşdırır. Bu, mətni daha dərindən başa düşməyə kömək edir.

Böyük tarixi şəxsiyyətlərin həyatına nəzər salsaq, onların uğurlarının arxasında bir ortaq cəhət görürük: kitaba və biliyə sevgi. Dövlət başçısı və ya sərkərdə olsalar belə, gündəlik işlərinin çoxluğuna baxmayaraq, kitabdan ayrılmayıblar. Oxumaq onlar üçün, sadəcə, vaxt keçirmə vasitəsi deyil, düşüncələrini zənginləşdirən, qərarlarına istiqamət verən güclü silah olub.

**c** **Mətnə və şəxsi fikirlərinizə əsaslanaraq müzakirə edin: siz nə üçün mütaliə edirsiniz? Mütaliənin hansı faydası sizin üçün daha vacibdir?**

**ç** **Qruplarla iş.** **Mətndə adı çəkilən tarixi şəxs haqqında araşdırma aparın və topladığınız məlumatları da əlavə edərək mətnin məzmununu sinfə təqdim edin.**

**I qrup**



*II Sultan Mehmed 1453-cü ildə Bizans imperiyasının paytaxtı Konstantinopolu fəth etmişdir. Bir çox tarixçilər bu hadisəni Orta əsrlər dövrünün sonu, Yeni dövrün başlanğıcı kimi qiymətləndirirlər.*

I. Fateh Sultan Mehmed Osmanlı imperiyasının 7-ci padşahı olmuşdur. O, məşhur sərkərdə və dövlət xadimi kimi tarixdə iz qoymuşdur.

II. Böyük sərkərdə uşaqlığından mükəmməl təhsil almışdır. O, türk dilindən başqa 8 dildə (ərəb, fars, ivrit, italyan, yunan, latın, serb və keldani) danışırdı. Onun dil öyrənmək həvəsi müxtəlif xalqların mədəniyyətini, fəlsəfəsini və elmini yaxından dərk etmək istəyindən irəli gəlirdi.

III. Fateh Sultan Mehmed eyni zamanda mütaliə həvəskarı idi. O, kitab və biliyi oyun və əyləncədən daha dəyərli sayırdı. Bəzən səhərə qədər kitab oxuyur, oxuduqlarını qeyd edir və onlardan faydalanırdı. Onun kitabxanasında dini, fəlsəfi, elmi və tarixi əsərlər toplanmışdı. Sultan yalnız oxumaqla kifayətlənmir, həm də alimlərlə müzakirələr aparır, yeni ideyalara açıq olduğunu göstərirdi.

IV. Fateh Sultan Mehmedin geniş dünyagörüşü və öyrənmək həvəsi onun həm sərkərdə, həm də dövlət xadimi kimi tarixdə iz qoymasının əsas səbəblərindən biri olmuşdur.

**d** **Aşağıdakı cümlələrlə mətnin hansı abzaslarını genişləndirmək olar?**

**a.** Həqiqətən də, o, Avropa və Yaxın Şərqin elmi və mədəni nailiyyətlərini araşdırmış və Osmanlı dövlətinin inkişafı üçün tətbiq etmişdir.
**b.** Sultan Mehmed 30 mart 1432-ci ildə Ədirnədə dünyaya gəlmişdir.
**c.** Məhz geniş dünyagörüşü sayəsində Fateh Sultan Mehmed yalnız döyüş meydanlarında deyil, həm də elm və siyasət sahəsində öz adını əbədiləşdirmişdir.
**ç.** Sultanın kitaba olan bu sevgisi ölkəsində elm və mədəniyyətin çiçəklənməsinə, bir çox alimlərin saraya toplanmasına şərait yaratmışdı.

**e** **Haşiyədəki məlumata əsasən II Sultan Mehmedin “fateh” adlandırılmasının səbəbini izah edin.**

## II qrup



Amerika Birləşmiş Ştatlarının 16-cı prezidenti Avraam Linkoln ölkədə **quldarlığı** ləğv edərək Amerika xalqının milli qəhrəmanına çevrilmişdir.

Yoxsul ailədə böyüyən Avraam Linkolnun məktəbə getmək imkanı olmayıb. Linkoln cəmi bir il məktəbdə təhsil alıb. Uşaqlığından az sayda olan kitablarını dönə-dönə oxuyaraq özünü inkişaf etdirib. Davamlı mütaliə hesabına dərin biliklər, geniş dünyagörüşü qazanıb.

Gənc yaşlarına çatanda Avraam Linkoln ciddi şəkildə hüquqla maraqlanıb. O bu sahəyə aid bilgilərini artıraraq imtahan verib və hüquqşünas-vəkil fəaliyyəti ilə məşğul olmaq üçün rəsmi icazə əldə edib. Ölkədə quldarlığa qarşı mübarizəyə başlayan Linkoln Respublikaçılar partiyasının qurucularından biri olub. Avraam Linkoln prezident olana qədər 18 dəfə müxtəlif seçkilərdə məğlubiyyətə uğrayıb, amma hədəfindən dönməyib. Nəhayət, 1860-cı ildə prezident seçilib.

Avraam Linkoln insanın inkişaf etməsində mütaliənin əvəzsiz rolu olduğunu söyləyir. Oğlunun müəllimine yazdığı məktubunda o, mütaliənin vacibliyini vurğulayaraq deyir: “Yeri gələndə ona vaxt verin ki, təbiətin əbədi sirləri haqqında düşünsün; göydə süzən quşları, yaşıl yamaclarda bitən çiçəkləri, onların üzərində uçuşan arıları seyr etsin. Çalışın, oğlumda kitaba maraq yaradasınız. Ona bu kitablardakı müdrikliyi tapmağın yollarını öyrədin”.

**ə** **“Qul” sözünün izahına əsasən “quldar” və “quldarlıq” sözlərinin mənasını izah edin.**

***Qul*** *– bütün hüquqlarından məhrum olan və tamamilə öz sahibinin ixtiyarında olub, bir mal kimi alınıb-satılan adam; kölə.*

**f** **Avraam Linkoln hansı dəyərləri üstün tuturdu? Mətndən uyğun cümlələri oxuyaraq ona aid aforizmləri şərh edin.**

- Hökumətsiz yaşaya bilərsiniz, amma kitabsız əsla.
- Təslim olmayana qədər uğursuzluğa düçar olmaq mümkün deyil.
- Uğur qazanmaq istəyirsinizsə, heç kim sizə inanmasa belə, özünüzə inanın.
- Başqalarının azadlığını əlindən alanların özlərinin azad olmağa haqqı yoxdur.

### III qrup



Mustafa Kamal Atatürk 1923-cü ildən 1938-ci ilədək ölkəyə rəhbərlik edib və Türkiyə Cümhuriyyətinin ilk prezidenti olub.

Mustafa Kamal Atatürk böyük sərkərdə, dövlət xadimi, mütaliəyə dərin maraq göstərən ziyalı idi. Onun şəxsi kitabxanasında minlərlə kitab vardı və Atatürk onları diqqətlə oxuyaraq qeydlər aparırdı. Onun yaxın yardımçısı Camal Qranda xatirələrində yazır: "Bir gün Atatürk tarixlə bağlı kitab oxuyurdu. Kitaba başı elə qarışmışdı ki, yanında olanları görmürdü. Ölkədə o qədər problem varkən dövlət başçısının sakitcə mütaliə etməsinə əsəbiləşən müşaviri dedi: "Paşam! Tarixi oxuyaraq başınızı qarışdırmayın. Məgər 19 mayda kitab oxuyaraq Samsuna getdiniz?"[1]

Atatürk Vasif Çinarın səmimi sözlərinə belə cavab verdi: "Mən uşaq ikən yoxsul idim. Əlimə iki qəpik keçəndə bunun birini kitaba verirdim. Əgər elə olmasaydı, bu etdiklərimin heç biri olmazdı".

Atatürk mütaliəni özünün ən güclü silahlarından biri hesab edib. Onun sözlərinin təsir gücü, fikirlərinin dərinliyi və məntiqli çıxışları yalnız **fitri** bacarığın deyil, həm də illərlə davam edən oxu vərdişlərinin bəhrəsi idi. Təsadüfi deyil ki, Atatürkün 1927-ci ildə söylədiyi məşhur "Nitq" ("Nutuk") tarixin ən möhtəşəm siyasi çıxışlarından biri sayılır. Bu çıxış otuz altı saat yarım davam etsə də, dinləyiciləri yormamış, əksinə, möhtəşəm təsir bağışlamışdır.

Atatürk 10 noyabr 1938-ci ildə Dolmabağça sarayında vəfat edib.

[1] *1919-cu il mayın 19-da Mustafa Kamal Atatürk Samsuna gedərək Türk Milli Qurtuluş hərəkatının əsasını qoydu. Bu tarix Türkiyədə milli müstəqillik uğrunda mübarizənin başlanğıcı hesab olunur.*

**g** **"Fitri" sözünün izahını kontekstə əsasən təxmin edin və lüğət vasitəsilə araşdırın. "Fitri" sözü aşağıdakı sözlərdən hansı ilə işlənə bilər?**

*səs, istedad, istək, qabiliyyət, kamal, zəka*

**ğ** **Atatürkə aid aforizmləri şərh edərək onun əsas tutduğu dəyərlər haqqında danışın.**

- Yurdda sülh, cahanda sülh.
- Müstəqillik verilmir, alınır.
- Mədəni olmayan insanlar mədəni olanların ayaqları altında qalmağa məhkumdurlar.
- Əgər bir gün mənim sözlərim elmlə ziddiyyət təşkil edərsə, siz elmi seçin.

### IV qrup



Müasir texnologiyalar, kosmik tədqiqatlar və innovativ ideyalar haqqında danışarkən ilk yada düşən adlardan biri İlon Maskdır. O, “PayPal” ödəniş sistemi, “Tesla” elektrik avtomobilləri, “SpaceX” kosmik şirkəti və digər yenilikçi layihələrin müəllifi kimi dünyada böyük şöhrət qazanmışdır.

İlon Mask uşaq ikən mütaliə etməyə çox vaxt ayırırdı. O, xüsusilə elmi-fantastik ədəbiyyatı sevirdi. Gələcək ixtiraçının bu vərdişi texnologiya və innovasiya sahəsindəki uğurlarına böyük təsir göstərib.

İlon Mask öz müsahibələrində sevdiyi yazıçılar və onun inkişafına təsir edən kitablar haqqında tez-tez danışır. Müsahibələrinin birində deyir: “Ən sevdiyim müəlliflərdən biri Duqlas Adamsdır. Onun elmi-fantastik əsərləri dünya və kainat haqqında düşüncələrimi formalaşdırıb. Con Ronald Tolkinin “Üzüklərin hökmdarı” əsəri isə qəhrəmanlıq və dünyanı xilas etmək mövzusunda fikirlərimə təsir edib. Ayzek Azimovun “Təməlçilər”, “Kosmik axınlar” elmi-fantastik seriyasından ilhamlanaraq “SpaceX” layihəsinin əsasını qoymuşam”.

**h** **Mətnlərdə haqqında danışılan şəxsiyyətləri birləşdirən ümumi xüsusiyyəti müəyyən edin. Sizcə, bu şəxslərin uğur qazanmasının əsas səbəbləri hansılardır? Müəllif bu nümunələri verməklə hansı əsas fikri çatdırmaq istəyir?**

**x** **Mütaliə vərdişlərinizi necə artıra bilərsiniz? Özünüzə hansı məqsədlər seçmisiniz? Özünüqiymətləndirmə cədvəlini tamamlayın.**

| Oxu vərdişi | İndiki vəziyyətim | Necə inkişaf etdirə bilərəm? |
|---|---|---|
| *Mütəmadi oxumaq* | | |
| *Yeni mövzulara maraq* | | |
| *Kitab seçimi* | | |

## Yazı

**2 a Cümlələri oxuyun. Göy rənglə verilmiş söz cümləyə hansı məna çalarını qatır?**

**1.** Biz yenə qalib gəldik.
**2.** *Ura*, biz yenə qalib gəldik!

**Bunları bilməliyik** NİDA

Dilimizdə elə sözlər var ki, danışarkən insanın hiss və həyəcanını (sevinc, qorxu, çağırış və s.) ifadə edir. Belə sözlər nida adlanır. Məsələn:
**Qorxu:** ***Vay-vay,*** *bu nə iş idi başıma gəldi?*
**İstehza:** ***Ay-hay,*** *buna çətin iş deyirsiniz?!*
**Sevinc:** ***Ay can, ay can,*** *bəxtim gətirdi!*
Bəzi nidaların ifadə etdiyi hiss, duyğu cümlədən asılı olaraq dəyişə bilir:
***Ah,*** *o köhnə dostlarımız indi haradadır?* (nisgil, kədər)
***Ah,*** *o sözü deməsəydim, hər şey başqa cür olardı.* (təəssüf)

**b Uyğunluğu müəyyən edin.**

**1.** Pəh-pəh, nə dadlı meyvədir!
**2.** Ay haray, köməyə gəlin!
**3.** Ay-hay, məni aldadana bax!
**4.** Ax, bilsəydim, sənə heç nə deməzdim.

**a.** çağırış
**b.** istehza, kinayə
**c.** razılıq, məmnunluq
**ç.** təəssüf, peşmanlıq

**c Cümlələrdəki nidaları müəyyənləşdirin.**

**1.** Ax, bu uşaqlar necə bədzatdırlar!
**2.** Qorxdum, ay aman, yarıldı bağrım.
**3.** Bülbül bağlara səs salır: cəh, cəh, cəh!
Güllərin ətrini alır: bəh, bəh, bəh!
**4.** Ehey, atlılar, xan evinə gedərsiz...

**ç Nöqtələrin yerinə uyğun nidalar artırmaqla cümlələri tamamlayın.**

***a.*** *aha* ***b.*** *ey* ***c.*** *uy* ***ç.*** *bəh-bəh* ***d.*** *ay*

**1.** ..., mən bu kişidən qorxuram!
**2.** ... oğlum, ehtiyatlı ol da!
**3.** ... Vətən, torpağın əzizdir mənə. *(S.Rüstəm)*
**4.** Nə gözəl çaydır, ... !
**5.** ..., tanıdım səni!

## Ümumiləşdirici təkrar

**1** **Cümlələrdə fərqləndirilmiş ədatların ifadə etdiyi mənanı uyğunlaşdırın.**

1. ***Ancaq*** qeydiyyatdan keçən şəxslər qəbul ediləcək.
2. ***Elə*** mən də bu məsələ barəsində sizinlə söhbət edəcəkdim.
3. Bu, yazıçının ***ən*** maraqlı əsərlərindən biridir.
4. ***Görün*** toyuqlar bağ-bağçanı nə hala salıblar?
5. ***Bəs*** mən bu haqda niyə eşitməmişəm?

**a.** Sual mənasını gücləndirir.
**b.** Məhdudlaşdırma mənası yaradır.
**c.** Əmr mənasını gücləndirir.
**ç.** Özündən sonrakı ifadəni dəqiqləşdirir.
**d.** Sifətin çoxaltma dərəcəsini yaradır.

**2** **Aşağıdakı şeir parçasında fərqləndirilmiş sözlərin mənasına diqqət edin. Sizcə, müəllif "necə" sözünü sual vermək, yoxsa fikrini qüvvətləndirmək məqsədilə istifadə edib? Fikrinizi əsaslandırın.**

***Necə*** məlahətli, qəşəngdi səsi
Axan saf suların təranəsitək;
***Necə də*** istiydi doğma nəfəsi,
***Necə də*** böyükdü köksündə ürək!

*(Mirvarid Dilbazinin "Müəllimim" şeirindən)*

**3** **Cümlələrdəki fərqləndirilmiş sözlərin funksiyasına diqqət edin və uyğunluğu müəyyənləşdirin.**

**düz**

1. Gəlib ***düz*** mənim yanımda dayandı.
2. ***Düz*** sözə nə deyə bilərik.
3. Hal-hazırda Mil ***düz***ündə suvarma işləri aparılır.
4. Belini qabağa əymə, ***düz*** saxla.

**a.** sifət
**b.** ədat
**c.** zərf
**ç.** isim

**çox**

1. İclasda ***çox*** adam iştirak edirdi.
2. Qulu bu təsadüfdən ***çox*** sevindi.
3. Səsini eşitsinlər deyə ***çox*** bərkdən danışırdı.

**a.** say
**b.** ədat
**c.** zərf

**4** **Nöqtələrin yerinə uyğun modal sözlər artıraraq cümlələri tamamlayın.**

1. ..., şair bu misralarda hansı fikri çatdırmaq istəyib? *(güman ki, səncə)*
2. Mən bu fikirlə razılaşa bilmərəm, ... . *(təəssüf, demə)*
3. ..., çəkdiyimiz zəhmətin bəhrəsini gördük. *(sanki, nəhayət)*
4. Maraqlıdır, ..., nə üçün əsər məhz bu adla tanınır? *(yəqin ki, görəsən)*
5. ..., çoxdan gözlədiyimiz avtomat qurğu hazır oldu. *(beləliklə, birincisi)*
6. Ana ürəyindən ... bir tel qırıldı. *(elə bil, görəsən)*

**5** **Cümlələrdə modal sözləri tapın və ifadə etdiyi mənanı müəyyən edin. Uyğun yerdə vergül işarəsi qoyun.**

1. Deyəsən yolun təhlükəli hissəsi arxada qalmışdı.
2. Bəlkə də bu hadisə onun həyatında dönüş nöqtəsi olacaqdı.
3. Konsert çox maraqlı idi təəssüf ki mən gecikmişdim.
4. Filmin sonu gözlədiyim kimi olmadı əfsus.
5. Bu sözdən sonra elə bil qurbağa gölünə daş atdılar.
6. Özümüzü elə aparırdıq, guya hamımız onun sözünə inanırıq.

**6** **Nöqtələrin yerinə uyğun modal sözləri artırıb cümlələri tamamlayın.**

1. ..., mən bu işə razı deyiləm. *(ümumiləşdirmə)*
2. Xan gördü ki, usta, ..., möcüzə yaradıb. *(təsdiq)*
3. Yaz gələndə bizim yerlər ... bir cənnət olur. *(bənzətmə)*
4. ..., sən doğru qərar vermisən, narahat olmağa dəyməz. *(fikrin mənbəyini bildirən)*
5. ..., bu mövzuda məqalə də dərc olunmuşdu. *(ehtimal)*

**7** **Cümlələrdəki nidaları müəyyənləşdirin. Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| 1. Boyy, o qədər qar yağıb ki! | a. qorxu, narahatlıq |
| 2. Ay aman, ağa gəlir; dur qaç! *(Ü.Hacıbəyli)* | b. istehza, kinayə |
| 3. Uff! Ağrıdan sanki çatlayır başım. *(H.Cavid)* | c. tərif |
| 4. Bəh-bəh, nə yaxşı səsi var! | ç. razılıq, məmnunluq |
| 5. Ay-hay, səndən də qorxacağıq! | d. təəccüb, çaşqınlıq |
| 6. Oxqay, havaya bax, necə də təmizdir! | e. ağrı, əzab |

**8** **Hansı cümlədə *ay* sözü nida kimi işlənmişdir?**

1. Ay buludlar arasından siyrilib çıxdı. *(M.Hüseyn)*
2. Ay uşaqlar, bir sakit olun!
3. Bu ay hava çox soyuq keçdi.

bölmə

# 5 Vətənin keşiyində

**a** **Şeir parçalarını oxuyun. Sualları cavablandırmaqla onları şərh edin. Bölmənin mövzusuna aid açar sözləri seçin.**

Bayraqları bayraq yapan üstündəki qandır,
Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!
*(Midhət Camal Kuntay)*

- **Kontekstdən çıxış edərək 1-ci misradakı "yapmaq" sözünü izah edin.**
- **Şeir parçasını nəsrə çevirərək əsas fikri öz sözlərinizlə ifadə edin.**



Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq – öz yurduma öz hakimliyim.
*(Bəxtiyar Vahabzadə)*

**Sözlərin izahı**

**Təkrir** – nitqin bədii və emosional təsir gücünü artırmaq məqsədilə eyni sözün, yaxud ifadənin təkrarlanması.

- **Şeirdə hansı sözlər təkrar edilmişdir? Belə sözlərin şeirdəki fikirlərin təsir gücünün artırılmasındakı rolunu aydınlaşdırın.**
- **Sizcə, şeirin əsas ideyası, əsasən, hansı misralarda ifadə edilmişdir?**

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik!
Səndən qeyri biz hamımız ölə billik!
*(Məmməd Araz)*

- **Şeirin ikinci misrasında müəllif Azərbaycana müraciət edir. Sizcə, şair Azərbaycana real insan kimi müraciət etməklə nəyə nail olur?**
- **Müəllif şeirin daha hansı misrasında ritorik xitabdan istifadə edib?**

**Sözlərin izahı**

**Ritorik xitab** – nitqin ifadəliliyini gücləndirmək üçün cansız əşyaya canlı, hadisədə iştirak etməyənə iştirak edən və ya təsəvvür edilənə real insan kimi müraciət edilməsi.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə
Azadlıq tumunu əkdi şəhidlər.
*(Bəxtiyar Vahabzadə)*

- **Şeir parçasını nəsrə çevirərək əsas fikri öz sözlərinizlə ifadə edin. Sonuncu misradakı fikri izah edin.**
- **Şeirdəki bədii ifadə vasitələrini müəyyənləşdirin.**

**b** **Oxuduğunuz şeirləri birləşdirən əsas fikir nədən ibarətdir?**

**c** **Aşağıdakı aforizmlərdə ifadə olunan fikirləri genişləndirərək şərh edin.**

- *Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir. (Heydər Əliyev)*
- *Bir kərə yüksələn bayraq bir daha enməz! (Məhəmməd Əmin Rəsulzadə)*
- *Dünya tarixində ən böyük qəhrəmanlıqlar vətən naminə edilib. (Jan Jak Russo)*
- *Öz vətəninə mənsub olmayan adam bəşəriyyətə də mənsub deyil. (Vissarion Belinski)*
- *Vətənini ən çox sevən vəzifəsini ən yaxşı icra edəndir. (Mustafa Kamal Atatürk)*
- *Vətən uğrunda ölüm həyatın davamıdır. (Cambul Cabayev)*

**1 a** **“Tarixi yaddaş” ifadəsini izah edin. Sizcə, xalqın tarixi yaddaşı nə üçün qorunmalıdır?**

**b** **“Qumru yuvası” mətnini oxuyun. Bu mətndə Azərbaycanın tarixi yaddaşına həkk olunmuş hansı hadisələrdən danışılır?**

## QUMRU YUVASI

*“Gənc əsgər **kontuziya** aldıqdan sonra yalnız bərk-bərk qucaqladığı üçrəngli bayrağı hiss edirdi. Hətta hospitala gətirilərkən belə qolundakı yarasını əməliyyat etmək üçün bayrağı əlindən almaq mümkün olmadı...”*

İnternet xəbərlərindən

Bax, o görünən təpə ki var, onun o üzündəki bizim kənddir. Ermənilər oranı işğal edəndən sonra gəlib bu çöllükdə ev-eşik qurmuşuq. Neçə ildir qamışdan, sarı palçıqdan qurduğumuz daxmada qalırıq. Amma düşmən yenə də əl çəkmir. Camaatın yaşadığı əraziləri atəşə tutur. Hər dəfə birimizin evinə mərmi düşür, dağıdır, yenə sıfırdan başlayırıq...

Evimizin həyətində üzüm **çardağı** var. Havalar isinən kimi **qumrular** gəlib çardağın yuxarısında yuva qurmağa başladılar. Elə yuvanı təzəcə bitirmişdilər ki, həyətimizə **“Qrad”** mərmisi düşdü. Xoşbəxtlikdən mərmi açılmadığından elə ciddi **tələfat** olmadı. Üzüm çardağının bir hissəsi qırılıb töküldü. Bu vaxt yazıq qumruların yuvası da dağıldı.



Səhəri gün kənd ərazi nümayəndəsi bizə gəldi və dedi ki, ay qonşu, bununla ikinci dəfədir ki, sizin evi hədəf seçiblər. Bilirsən niyə? Ona görə ki evinizin üstünə bayraq taxmısınız, bu da onları qıcıqlandırır... Nə bilim, deyirəm, bəlkə, müvəqqəti də olsa...

**Söz mücrüsü**
- kontuziya • çardaq • qumru
- qrad • tələfat • bələdləmək
- sahmana salmaq

Yoldaşım onun sözünü ağzında qoyub qışqırdı:

– A kişi, sən nə danışırsan?! Heç utanmırsan?! Bilmirsən ki, o bayrağı əsgərliyə gedəndə oğlumuz Nəbi asıb? Evimizi dağıtsalar da, o bayrağı düşürdə bilmərik!..

...Qərara gəldik ki, evdən aralıdakı anbarı **sahmana salaq** və orada gecələyək. Onsuz da gündüzlər evdə olmurduq ki. Belə də etdik və anbarda soba qalayıb isitdik, ora yığışdıq. Başımız işə-gücə qarışdığından qumrular da yadımızdan çıxdı.

Bir gün evə tərəf gedəndə gördüm ki, quşlar həminki yerdən bir az kənarda – tənəklərin arasında yenidən yuva qururlar. Yayın ortaları idi. Bəzi quşlar yuvalarında balalarını yemləyərkən bizim qumrular hələ təzə yuva qururdular.

***

Bir gün top mərmisi düz evimizin üstünə düşdü, qonaq otağı darmadağın oldu, həyət-baca xarabazara döndü. Başımı qaldırıb evin salamat qalan hissəsində dalğalanan bayrağı görəndə gözüm yaşardı...

İki gün sonra qonum-qonşunun köməyi ilə həyət-bacanı təmizlədik, dağılmış qonaq otağını yenidən bərpa etməyə başladıq. Həyətin bir küncündə qumru ölüsü görəndə gözlərimə inanmadım. Yuva uçmasa da, qumrunu zərbə vurub öldürmüşdü. O biri qumru isə çardağın yuxarısında təkcə dayanaraq qəmli-qəmli oxuyurdu...

Səhər gördüm ki, tək qalmış qumru yuvanı söküb yerə tökür.



Qayınatam da gəlib dedi ki, ay bala, gəlin o bayrağı aşağı salın, yuyub-təmizləyin, odu ha, bax bir az dalda yerdən yenə asın. Amma yoldaşım atası ilə də razılaşmadı. Dedi ki, oğlumuz asan bayrağı aça bilmərik.

Qonşumuz isə bizimlə neçə vaxtdır küsülüdür. Axı onun da evinə bizə görə zədə dəyir...

Sonralar da neçə dəfə evimizə mərmi düşüb. Biz də elə hey dağılan yerləri düzəldirik. Nəbinin dirəkdən asdığı bayraq isə hələ də yerindədir. O, əsgərliyi bitirsə də, orduda xidmətini davam etdirir. Deyir, gərək erməniləri buralardan qaçaq salaq ki, bizim evlərimizi bombalamasınlar.

***

Üç gün olar, bizimkilər hücuma keçib! İndi tək bizim evin yox, bütün kənd evlərinin üstündə bayraq var. Qonşumuz da bizimlə barışıb.

Dünən nə görsəm yaxşıdır?! Tək qumru özünə təzə tay tapıb! Gəlib yenə orada – yuva üçün **bələdlədiyi** yerdə səs-səsə verib oxuyurlar. Amma, heyif ki, yuva vaxtı deyil. Yoxsa yuva da qurardılar. Eybi yox, gələn yaz qurarlar, inşallah!

*Azad Qaradərəli*

## Söz ehtiyatı

**c** **“Söz mücrüsü”ndən izahlara uyğun sözləri seçib cümlədə işlədin.**

**1.** Partlayış nəticəsində əmələ gələn beyin zədəsi, psixi fəaliyyətin pozulması
**2.** Hərbi əməliyyat, təbii fəlakət, qəza və s. nəticəsində məhv olan adam, əşya, maşın, tikili və s.
**3.** Dirəklər üzərində nazik taxtalar və ya məftil çəkilən tikili, talvar
**4.** Göyərçin cinsindən boz rəngli quş
**5.** Səliqə yaratmaq, hər şeyi öz yerində düzgün yerləşdirmək
**6.** Düşmən obyektlərini və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulmuş reaktiv yaylım atəş sistemi

**ç** **Aşağıdakı sözlərin mənasını lüğət vasitəsilə araşdırın. Azərbaycan Silahlı Qüvvələrindəki hərbi rütbələri kiçikdən böyüyə ardıcıllıqla düzün.**

• polkovnik • mayor • gizir • leytenant • kapitan • çavuş

## Nə anladın?

**d** **Aşağıdakı fikirlərə əsasən mətni təhlil edin.**

• Müharibənin sivil insanlara təsiri
• Bayrağın müqəddəsliyi
• Qarşılıqlı insan münasibətləri
• Vətənə sevgi və sədaqət
• Ümid, əzm və qələbə arzusu

## Düşün və cavab ver

**2 a** **Sizcə, müəllif aşağıdakı simvollardan istifadə etməklə oxucuya nəyi anlatmaq istəyir? Nümunəyə əsasən cədvəli tamamlayın.**

| Simvollar | İfadə etdiyi məna |
|---|---|
| Bayraq | *Milli kimlik, qürur, müqəddəslik* |
| Qumru | |
| Qumruların yenidən yuva qurması | |
| Bütün evlərdə bayrağın dalğalanması | |

**b** **“Qumru yuvası” mətninin əvvəlində kursivlə verilmiş hissəni bir daha oxuyun. Müəllif niyə bu qısa xəbəri əsərin əvvəlində verib? Bu hissə ilə hekayə arasında əlaqə varmı? Fikrinizi əsaslandırın.**

**Yadda saxla**

**Proloq** – bədii əsərdə müqəddimə; giriş hissə.
Əsərdə proloqun müxtəlif funksiyaları ola bilər:
1) oxucunu əsərdəki əhvalatla yığcam şəkildə tanış etmək;
2) əsərin yazılma səbəbini izah etmək;
3) əsərin ideyası ilə bağlı fikirlər söyləmək və s.
Epiqraf müəllifin özünə və ya digər söz ustalarına aid ola bilər. Proloq isə əsərin məzmununa daxildir, epiqrafdan fərqli olaraq, müəllifin öz sözüdür.

**c** **Sizcə, aşağıdakı mətn “Qumru yuvası” mətninin proloqu ola bilərmi? “Yadda saxla” rubrikasındakı məlumatlara əsasən fikrinizi əsaslandırın.**

*Nəbi döyüşə getməzdən əvvəl evimizin damına qalxdı. Bayrağımızı ora sancıb dedi: “Ata, Vətən torpaqlarımızı azad edəcəyik. Qoy həmin günə qədər bayrağımız burada dalğalansın”.*

- **Proloq hekayənin mövzu və ideyası haqqında hansı ipucuları verir?**
- **Bu proloq oxucuda hansı hissləri yaradır?**
- **Sizcə, bu hekayənin proloqunda niyə məhz vətənpərvərlik hissi vurğulanır?**

**ç** **Mətnin son hissəsini bir daha oxuyun. Hadisələrin gedişatında hansı dəyişikliklər baş verib?**

**Yadda saxla**

**Epiloq** – əsərin sonunda verilən yekun hissə, sonluqdur.
Epiloqda əsər boyu qaldırılan məsələlər yekunlaşdırılır və ya obrazların taleyi son söz şəklində oxucuya çatdırılır.

**d** **“Qumru yuvası” mətninin epiloqu oxucuda hansı hissləri yaradır? Əgər siz müəllif olsaydınız, epiloq hissəsini başqa cür necə yazardınız? Aşağıda hekayəyə uyğun epiloqların giriş cümlələri verilib. Onlardan birini seçib mətni tamamlayın.**

- Nəbi evə ata-anasını görməyə gələndə çardağın yuxarısında hündür bir dirək düzəltdi və bayrağı ora taxdı...
- Artıq bahar gəlmişdi. Ağaclar çiçək açmışdı, quşların şövqlə cəh-cəh vuran vaxtı idi. Qumrular...

**3 a** **“Qumru yuvası” mətninin mövzusu hansı real tarixi hadisələrə əsaslanır? Aşağıdakı faktların mətndəki məlumatlarla uyğunluğunu müəyyənləşdirin. Yeni məlumatları qeyd edin.**

## Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi

**1988–1994-cü illər**

- Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsi
- Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi tələbi
- Azərbaycanın 20%-ə yaxın ərazisinin Ermənistan Silahlı Qüvvələri və erməni separatçıları tərəfindən işğal edilməsi
- Bir milyondan artıq azərbaycanlının öz doğma yurdundan məcburi köçkün düşməsi



**Azərbaycanın işğal olunmuş əraziləri**

| | | |
|---|---|---|
| Xankəndi | 26 dekabr | 1991-ci il |
| Xocalı | 26 fevral | 1992-ci il |
| Şuşa | 8 may | 1992-ci il |
| Laçın | 18 may | 1992-ci il |
| Xocavənd | 2 oktyabr | 1992-ci il |
| Kəlbəcər | 2 aprel | 1993-cü il |
| Ağdərə | 7 iyul | 1993-cü il |
| Ağdam | 23 iyul | 1993-cü il |
| Cəbrayıl | 23 avqust | 1993-cü il |
| Füzuli | 23 avqust | 1993-cü il |
| Qubadlı | 31 avqust | 1993-cü il |
| Zəngilan | 29 oktyabr | 1993-cü il |

## Atəşkəs dövrü (1994–2020)

**1994-cü ilin mayı**

Azərbaycan və Ermənistan arasında atəşkəs razılaşması imzalanır.
(Rəsmi atəşkəs olsa da, təmas xəttindəki insanlar daimi təhlükə altında yaşayırdılar.)

**1994–2020-ci illər**

- Separatçılar tərəfindən atəşkəs tez-tez pozulur.
- 300-dən çox mülki şəxs həlak olmuş və ya yaralanmışdır.
- “Qrad” və minaatan silahlardan bir çox evlər, təsərrüfat obyektləri zərər görmüşdür.

## İşğal altında olan torpaqların azad edilməsi

**27 sentyabr 2020-ci il – 15 oktyabr 2023-cü il**

• İkinci Qarabağ müharibəsi: Azərbaycan Ordusu "Dəmir yumruq" adını alan planı həyata keçirməyə başladı.
• Ali Baş Komandan İlham Əliyev "Qarabağ Azərbaycandır!" şüarı ilə çağırış etdi.
• Azərbaycanın əks-hücuma keçməsi nəticəsində işğal altında olan bir çox ərazilər 44 gün ərzində azad edildi.
• 27 sentyabr Anım Günü, 8 noyabr isə Zəfər Günü kimi qeyd edilir.

**İşğal olunmuş ərazilərin azad olunması**

| | | |
|---|---|---|
| **Cəbrayıl** | **4 oktyabr** | **2020-ci il** |
| **Füzuli** | **17 oktyabr** | **2020-ci il** |
| **Zəngilan** | **20 oktyabr** | **2020-ci il** |
| **Qubadlı** | **25 oktyabr** | **2020-ci il** |
| **Şuşa** | **8 noyabr** | **2020-ci il** |
| **Ağdam** | **20 noyabr** | **2020-ci il** |
| **Kəlbəcər** | **25 noyabr** | **2020-ci il** |
| **Laçın** | **1 dekabr** | **2020-ci il** |
| **Ağdərə** | **20 sentyabr** | **2023-cü il** |
| **Xocalı** | **24 sentyabr** | **2023-cü il** |
| **Xocavənd** | **26 sentyabr** | **2023-cü il** |
| **Xankəndi** | **15 oktyabr** | **2023-cü il** |

## Nə anladın?

**b** **Aşağıdakı fikirlərin doğru və ya yanlış olduğunu müəyyən edin.**

**1.** Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları 1990-cı ildən başlamışdır.
**2.** Vətən müharibəsi 44 gün davam edib.
**3.** Cəbrayıl şəhəri müharibədə azad edilən ilk şəhərdir.
**4.** Şuşa 28 il 6 ay düşmən əsarəti altında olmuşdur.
**5.** Ağdərə, Xankəndi şəhərləri 44 günlük Vətən müharibəsi dövründə işğaldan azad edilib.
**6.** Zəngilan rayonu müharibənin ilk günündə azad olunub.

## Yazı

**c** **"İşğaldan azad olunan şəhərlər" mövzusunda 6–8 cümləlik qısa mətn yazın.**

## Yazı

**4 a** **Cümlələrdəki feillərin hansı zamana və şəxsə aid olduğunu müəyyən edin.**

**1.** Heç nədən çəkinmədin, heç kimdən qorxmadın, igid əsgər!
**2.** Uzaqdan sıldırım qayanın üstündə qədim bir qala görünür.
**3.** Mühəndislər burada yeni su-elektrik stansiyası tikəsidirlər.
**4.** Biz məktəbimizdə qazilərlə görüş keçirməliyik.
**5.** Qapınıza hər zaman xeyir işlərə gəlim.

**b** **Cümlələrdəki feilləri seçin və cədvəl üzrə qruplaşdırın.**

**1.** Ovçu tez-tez ayaq saxlayaraq ətrafı dinləyir, sonra irəliləyirdi.
**2.** Onlar kolluğun arası ilə uzanan qısa yolla kəndə getdilər.
**3.** O bu məsələ haqqında sakit düşünmək üçün otağına çəkildi.

| Şəxsə görə dəyişir | Şəxsə görə dəyişmir |
|---|---|
| | |

**Bunları bilməliyik** TƏSRİFLƏNƏN FEİLLƏR

Təsriflənən feillər müxtəlif şəkilçilər vasitəsilə danışanın hərəkətə münasibətini ifadə edir. Təsriflənən feil formaları feilin şəkilləri adlanır: **əmr, vacib, lazım, arzu, şərt** və **xəbər.**

**c** **Fərqləndirilmiş feillərdəki şəkilçilərə diqqət edin. Sizcə, bu feillərdə danışanın hərəkətə hansı münasibəti ifadə olunub? Uyğunluğu müəyyən edin.**

**1.** Arzu olunduğunu göstərir.
**2.** Əmr, xahiş, tövsiyə və s. ifadə edir.
**3.** Hərəkətin vacibliyini bildirir.
**4.** Müxtəlif zamanlarda icrası haqda xəbər verir.
**5.** Digər bir hərəkətin müəyyən şərtlə mümkünlüyünü bildirir.

**a.** Sözləri sətirdən sətrə düzgün ***keçirin*.**
**b.** Ətraf mühitə biganə ***qalmamalıyıq*.**
**c.** Həmişə uğur ***qazanasan*.**
**ç.** İşini tez ***bitirsən*,** gələrsən.
**d.** Bağın içi ilə gəzə-gəzə evə ***gedirdim*.**

**Bunları bilməliyik** FEİLİN XƏBƏR ŞƏKLİ

**Xəbər şəkli** feilin kökünə və ya başlanğıc formasına zaman və şəxs şəkilçilərini artırmaqla düzəlir. Məsələn: *güldüm, anlayır, gələcəyik* və s.

**ç** **Feilləri müvafiq zamana və şəxsə görə dəyişib cümlədə işlədin.**

püskürmək ***(indiki zaman, III şəxsin təki)***
doğrultmaq ***(keçmiş zaman, II şəxsin cəmi)***
bəzəmək ***(gələcək zaman, I şəxsin təki)***
saxlamaq ***(indiki zaman, II şəxsin təki)***
toxumaq ***(keçmiş zaman, I şəxsin cəmi)***
addımlamaq ***(gələcək zaman, III şəxsin təki)***

**d** **Xəbər şəklində olan feilləri seçin. Seçiminizi əsaslandırın.**

görəcəklər, oxusaq, bişirəsisiniz, görünmür, qürurlanırıq, qayıtmalıyam, barışdılar

**e** **Feilləri müvafiq zamanda işlətməklə cümlələri tamamlayın. Onların neçənci şəxsdə işləndiyini müəyyən edin.**

*tutmaq, qorumaq, demək, irəliləmək, ruhlandırmaq,*
*iz qoymaq, dəstək olmaq, unudulmaq*

**1.** Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru ... . ***(indiki zaman)***
**2.** Oğul, Vətənin adını uca ... , onu ləyaqətlə ... . ***(gələcək zaman)***
**3.** O, döyüş yoldaşlarına ... və onları ... . ***(keçmiş zaman)***
**4.** Qəhrəmanlar tarixdə ... və ... . ***(indiki zaman)***
**5.** Tənbəl həmişə “xəstəyəm” ... . ***(gələcək zaman)***

**5** **a** **Hansı cümlələrdə feil əmr mənasını ifadə edir?**

**1.** Kaş hər gün yağış yağa. **2.** Az danış, çox iş gör. **3.** Keçmişi unutmayın.

**Bunları bilməliyik** **FEİLİN ƏMR ŞƏKLİ**

**Feilin əmr şəkli** əmr, xahiş, nəsihət, tövsiyə və s. bildirir. Feilin kökünə və ya başlanğıc formasına şəxs şəkilçiləri artırmaqla düzəlir. 2-ci şəxsin təkində şəxs şəkilçisi olmur. Bu, feilin başlanğıc formasına uyğun gəlir.

| Şəxs | Tək | Cəm |
|---|---|---|
| I | Başını el içində uca ***görüm*.** | Xoş günlərinizi ***görək*.** |
| II | Cavanlıqda daş ***daşı*,** qocalıqda ***ye*** aşı. | Əsl dostluğun qiymətini ***bilin*.** |
| III | Çaparkən ağ-boz atın ***büdrəməsin*!** | İgidlər Vətən torpaqlarını ***qorusunlar*.** |

**b** **Əmr şəklində işlənən feillərdə şəxs şəkilçilərini müəyyən edin.**

**1.** Qoy cəngi çalınsın, igidlər döyüşə girsinlər.
**2.** Gərək heyvanları təhlükədən xilas edim.
**3.** Tibb bacıları yaralılara ilk yardım göstərsinlər.
**4.** Çətin vəziyyətdə qalan insanlara laqeyd qalmayaq, dəstək olaq.
**5.** Bax bir daha böyüyün sözündən çıxmayın.

**c** **Cümlələrdəki feillərin xəbər, yoxsa əmr şəklində işləndiyini müəyyənləşdirin.**

**1.** Tapşırığı yerinə yetirdikdən sonra cavablarınızı yoxlayın.
**2.** Problemin həlli üçün aidiyyəti orqanlara müraciət etdik.
**3.** Gəlin əvvəlcə layihənin şərtlərinə nəzər salaq.
**4.** Səhər yüngül tappıltı səsinə yuxudan oyandım.

**1 a Ağlı və cəsarəti ilə Azərbaycan tarixinə adını yazdırmış hansı qadınları tanıyırsınız? Onların həyatı və fəaliyyəti haqqında danışın.**

## ŞUŞA GÜLTƏKİNİ

Gültəkin balaca qızı Əminəni gözüyaşlı qoyub cəbhəyə yola düşdü. Bacıları və anası "körpə balanı qoyub getmə" desələr də, xeyri olmadı.

Gültəkin deyirdi:

– Mən orda gərəyəm, ana! Döyüşlərdə yaralanan igidlərə ilk yardımı kim göstərməlidir? Onları təhlükəli yerlərdən kim çıxarmalıdır?

Gültəkin çox istedadlı, qoçaq qız idi. Həm də çox qayğıkeş idi. Balacalıqdan köməyə ehtiyacı olanlara əl uzatmağa adət etmişdi. Universitetdə oxuya-oxuya hospitalda tibb bacısı işləyirdi.

***

Ermənistan Silahlı Qüvvələri Qarabağa hücum edir, Şuşanın ətrafındakı kəndlərimizi atəşə tuturdular. Həmin dövrdə Azərbaycanın öz ordusu yox idi. Mərd oğullarımız könüllülərdən ibarət dəstələr düzəldib düşmənlə ölüm-dirim savaşına qalxırdılar. Bu vaxt döyüşdə yaralanan igidlərə ilkin yardım göstərmək üçün tibb işçilərinə ehtiyac var idi. Yardıma tələsənlərdən biri mərd Gültəkin oldu. O, Şuşaya gəldi.

Yaz fəsli idi. Lakin Şuşanın başı üstündə qara buludlar dolaşırdı. Yamyaşıl bağ-bağatın, gül-çiçəkli **yamacların** gözəlliyi yox olmuşdu. **Qətl** və **qarətlər,** düşmən gülləri bu şəhərin sakitliyini pozurdu. İsa bulağı[1] **qan ağlayırdı.** Cıdır düzü[2] yasa batmışdı. Atışmalar ara vermirdi. Şəhər gündən-günə boşalırdı. Düşmən tanklarının vahiməli gurultusu lap yaxınlıqda eşidilirdi. Şuşa hospitalından axırıncı çıxan yoldaşları Gültəkini götürüb şəhəri tərk etdilər.



***

Gültəkin Şuşadan gətirilən yaralılara baş çəkmək üçün Bakıya, mərkəzi hospitala gəldi. Arada vaxt tapıb evlərinə getdi. Onun taqətsiz, yorğun görkəmi vardı. Əminə anasını görcək boynuna sarıldı. Ağlaya-ağlaya dedi:

– Anacan, daha səni heç yerə buraxmayacağam...

[1] *İsa bulağı – Şuşa şəhərindən iki kilometr aralı meşədə yerləşir.*

[2] *Cıdır düzü – Şuşa şəhəri yaxınlığında yerləşən, tarixən cıdır yarışlarının keçirildiyi ərazi.*

O, gec-gec gördüyü əziz balasını bağrına basıb, qara saçlarını sığalladı və söylədi:

– Mənim balam, axı sənin anan cəbhədə yaralanan əsgərlərimizə kömək edir...

Anası da Gültəkinin getməməsi üçün təkid edirdi:

– Bilirəm, sən cəbhədə lazımsan, Gülüş, çox gərəksən. Amma gəl bu **daşı ətəyindən tök**... Yeganə balana yazığın gəlsin... Bir az yanında qal, sonra gedərsən...

Gültəkin isə Şuşanın işğal olunmasından yana-yana danışıb deyirdi:

– Şuşanın azad olunacağı günü görsəm, ölmərəm, ana!

Gültəkin yenə cəbhəyə yollandı. O, həmkarlarının və həyata qaytardığı yaralıların dərin hörmətini qazanmışdı. Ona “Şuşa Gültəkini” deyirdilər. Gültəkin hospitalda qalmır, ön xəttə, **qaynar yerlərə** can atırdı; yaralı döyüşçüləri yenə odun-alovun içərisindən çəkib çıxarırdı.

***



...Aranzəmin kəndi qarşısındakı yüksəklik düşmən hədəfində idi. Gültəkin sanitar çantasını çiyninə keçirib yoxuşu xeyli qalxdı. Güllələr dolu kimi yağırdı; amansız döyüş **səngimək** bilmirdi. Hər iki tərəf itki verirdi. Zərif vücudlu, hərbi geyimli qadın güllə yağışı altında yaralılara tərəf sürünürdü. Birini, ikisini, üçünü güllə altından çəkib çıxara bildi. Yenidən ölüm-dirim meydanına qayıtdı. Arada isə avtomatını düşmən tərəfə boşaldırdı. Birdən düşmən nişançısı Gültəkini gördü. Atəş açıldı. Gültəkin yıxıldı. Qalxmaq istədi. Yenidən yıxıldı...

Onun qəhrəmancasına ölümünə **dağ-daş da ağladı.** Neçə-neçə cavanlar mərdliyi ondan öyrənirdilər. Onun cəsarətlə döyüşdüyü və qəhrəmancasına həlak olduğu yüksəkliyi “Gültəkin qayası” adlandırdılar.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün qorunmasında, yaralı əsgərlərin həyatının xilas edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə Gültəkin Əsgərovaya ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

*Zemfira Məhərrəmli*

**Söz mücrüsü**

- qətl • qarət • yamac
- səngimək • qan ağlamaq
- daşı ətəyindən tökmək

## Söz ehtiyatı

**b** **Mətndə fərqləndirilmiş "daşı ətəyindən tökmək" ifadəsinin kontekstə görə mənasını izah edin. Həmin ifadənin iştirakı ilə cümlələr qurun.**

**c** **Sübut edin ki, mətndə fərqləndirilmiş "qaynar" sözü məcazi mənada işlənib. Həmin ifadəni həqiqi mənada işlədin.**

**ç** **Müəllif "Dağ-daş da ağladı" deməklə nəyi vurğulamaq istəyib?**

## Düşün və cavab ver

**2 a** **Mətndə Azərbaycan tarixinin hansı səhifələri yer alıb? Mətnə əsasən, Gültəkinin həyatı və fəaliyyəti Azərbaycan tarixinin hansı dövrləri ilə bağlıdır?**

**b** **Sizcə, "Şuşa Gültəkini" mətni bədii mətndir, yoxsa qeyri-bədii?**

**Xatırla**

Qeyri-bədii mətnlərdə bəzən real hadisə və faktlar haqqında bədii, obrazlı şəkildə məlumat verilir. Müəllif belə mətnlərin bəzi epizodlarını öz təxəyyülünə uyğun təsvir edir. Bu mətnləri yazmaqda müəllifin məqsədi faktları oxucuya cəlbedici şəkildə çatdırmaqdır.

**c** **"Şuşa Gültəkini" mətnində müəllifin təxəyyülünə uyğun təsvir olunmuş epizodları danışın.**

**ç** **Mətni oxuyun və mətni yazmaqda müəllifin məqsədini müəyyən edin.**

### Gültəkin Əsgərova




Gültəkin Əsgərova Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhididir.

**Uşaqlığı və təhsili.** Gültəkin Əsgərova 20 noyabr 1960-cı ildə Bakıda anadan olmuşdur. O, orta təhsilini 200 saylı məktəbdə almış, daha sonra Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur.

**Peşə fəaliyyəti.** Təhsilini başa vurduqdan sonra müxtəlif səhiyyə müəssisələrində çalışmışdır. Əvvəlcə DİN-in hospitalında, sonra isə təcili yardım stansiyasında işləyən Gültəkin peşəkarlığı ilə seçilmişdir. Daha sonra uroloji klinik xəstəxanada anestezioloq-reanimatoloq kimi fəaliyyət göstərmişdir.

**I Qarabağ müharibəsində xidməti.** 1992-ci ildə Qarabağ döyüşləri başlayanda Gültəkin Əsgərova könüllü olaraq cəbhəyə yollanmışdır. O, Turşsu, Şuşa, Laçın və Qubadlı istiqamətlərində döyüşən əsgərlərə yardım göstərmiş, çox sayda yaralını xilas etmişdir.

**Şəhidlik zirvəsi.** 20 iyun 1992-ci ildə Ağdam bölgəsində gedən ağır döyüşlərdə Gültəkin Əsgərova qəhrəmancasına şəhid olmuşdur. O, Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir. 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

**Xatirəsi.** Oxuduğu məktəbə və Xəzərdə üzən bir gəmiyə onun adı verilmiş, həmçinin məktəbin həyətində büstü ucaldılmışdır. Gültəkin Əsgərova xalqın yaddaşında mərdliyi, insanlara olan sevgisi və fədakarlığı ilə əbədi yaşayacaq.

**d** **"Gültəkin Əsgərova" və "Şuşa Gültəkini" mətnlərini müqayisə edin. Aşağıdakı fikirlərin hansı mətnə aid olduğunu söyləyin.**

**1.** Faktlar sistemli şəkildə verilib və yarımbaşlıqlar altında qruplaşdırılıb.
**2.** Mətn müəllifin təxəyyülünə əsasən yazılıb.
**3.** Mətndə məcazi mənalı söz və ifadələr yer alıb.

## Dinləmə 06

**3 a** **Qeydlər götürməklə "Mən gərək oğul doğulaydım" mətnini dinləyin və suallara cavab verin.**

**1.** Salatının sənədində hansı məlumat səhv yazılmışdı?
**2.** Salatın uşaqlıqdan hansı sahə ilə maraqlanırdı?
**3.** O hansı imza ilə tanındı?
**4.** Onun jurnalist fəaliyyəti Azərbaycan tarixinin hansı dövrləri ilə bağlıdır?
**5.** Salatının son səfəri nə zaman və harada baş verdi?

**b** **Salatının xarakterindəki əsas xüsusiyyətlər haqqında danışın. Mətnə istinad etməklə fikrinizi əsaslandırın.**

**c** **Bu mətni ideya və obrazlar baxımından "Şuşa Gültəkini" mətni ilə müqayisə edin.**

**ç** **"Mən gərək oğul doğulaydım" mətnində verilmiş hansı məlumat təxəyyül deyil, faktdır?**

**1.** Salatın bacısı Zümrüd ilə söhbət edir.
**2.** O, jurnalistika sahəsində "Salatın Ceyhun" imzası ilə tanınırdı.
**3.** 1991-ci ilin yanvar ayında Salatının cəbhə xəttinə sonuncu səfəri oldu.
**4.** Laçın-Şuşa yolunda, Qaladərəsi deyilən yerdə Salatın Əsgərova şəhid oldu.
**5.** Salatının anası ona cəbhə bölgəsinə getməməsi üçün yalvarır.
**6.** Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.
**7.** Salatın Əsgərova Şəhidlər xiyabanında dəfn edildi.

**4 a** **Məlumat vərəqlərinə istinad edərək Azərbaycan qəhrəmanları haqqında qeyri-bədii mətn yazın. Bəzi real hadisə və faktları bədii, obrazlı şəkildə təqdim edin.**

**I qrup**

## ÇİNGİZ MUSTAFAYEV – QƏHRƏMAN JURNALİST

**Yaşadığı illər:** 29 avqust 1960 – 15 iyun 1992
**Təhsili:** Azərbaycan Dövlət Tibb İnstitutu
**Peşəsi:** həkim, müstəqil jurnalist, hərbi müxbir
**İş yeri:** 1991-ci ildən Azərbaycan Dövlət Televiziyasının reportyoru
**Fəaliyyət istiqaməti:** döyüş bölgələrindən operativ xəbərlər, ayrı-ayrı əsgərlər haqqında xüsusi reportajların hazırlanması






**Xocalı faciəsi haqqında reportaj:**
Çingiz Mustafayev və hərbi operator Seyidağa Mövsümlü Xocalı hadisələrinin görüntülərini lentə almışdır.

**Şəhidlik zirvəsi:**
1992-ci il iyun ayının 15-də Əsgəran rayonunun Naxçıvanik kəndində döyüş zamanı çəkiliş aparırdı. Bu zaman aldığı mərmi qəlpəsindən döyüş meydanında şəhid olmuşdur.

**Dəfn yeri:** Şəhidlər xiyabanı, Bakı
**Xatirəsinin əbədiləşdirilməsi:**
- Ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.
- Şahdağda 4062 metr hündürlükdə yerləşən zirvə qəhrəmanın şərəfinə “Çingiz zirvəsi” adlandırılmışdır.
- Ölümündən sonra yaradılmış Çingiz Mustafayev adına Fond Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına və təbliğinə xidmət edir.



## POLAD HƏŞİMOV – POLAD GENERAL



**Yaşadığı illər:** 2 yanvar 1975 – 14 iyul 2020

**Təhsili:**

- 1992–1995: Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi ("motoatıcı" ixtisası)
- 2014–2016: Silahlı Qüvvələrin Hərbi Akademiyası, magistr dərəcəsi (hərbi idarəetmə)

**Rütbəsi:** general-mayor

**Döyüş yolu:**

- Birinci Qarabağ müharibəsi
- Murovdağ əməliyyatları
- 2016 Aprel döyüşləri (4 günlük müharibə)
- 2017–2020: 3-cü Ordu Korpusunun komandir müavini, qərargah rəisi
- 2020 Tovuz döyüşləri

**Şəhidlik zirvəsi:** Ermənistan Silahlı Qüvvələrinin bölmələri 2020-ci il iyulun 14-ü səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini müxtəlif çaplı silahlardan atəşə tutaraq hücum etməyə cəhd göstərdi. Hücumun qarşısını qəhrəmanlıqla dəf edən zaman Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov şəhid oldu.

**Dəfn yeri:** II Fəxri xiyaban, Bakı



**Mükafatları:**

2009-cu il: "Vətən uğrunda" medalı

2014-cü il: 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni

2016-cı il: 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni

2020-ci il: "Azərbaycanın Milli Qəhrəmanı" (ölümündən sonra)

**Xatirəsi:** Bakı, Qəbələ, Sumqayıt, Bursa (Türkiyə) və daha bir neçə şəhərdə küçələr, parklar onun şərəfinə adlandırılmışdır.

## Yazı

**5 a Hansı cümlədəki feil hərəkətin lazım olduğunu bildirir?**

**a.** Biz yolun başlanğıcındayıq, hələ çox ***öyrənəsiyik.***
**b.** Kaş biz də zəhmətimizin bəhrəsini ***görək.***
**c.** Cücəni payızda ***sayarlar.*** *(Atalar sözü)*
**d.** Hər zaman böyüklərə ***hörmət et.***

**Bunları bilməliyik** FEİLİN LAZIM ŞƏKLİ

**Lazım şəkli** feilin kökünə və ya başlanğıc formasına ***-ası***$^2$ şəkilçisini və şəxs şəkilçilərini artırmaqla düzəlir: *yazasıyam, yazasısan, yazasıdır* və s.
Digər şəkillərdən fərqli olaraq, lazım şəklinin inkar forması yalnız ***"deyil"*** sözünün köməyi ilə düzəlir: *qaçası deyilik, gedəsi deyiləm* və s.

**b Verilmiş feilləri lazım şəklində tələbə uyğun işlədərək cümlələri tamamlayın.**

**1.** Mən bu kitabı sabaha qədər ... . *(oxumaq)* təsdiq
**2.** Sən onun hər sualına ... . *(cavab vermək)* inkar
**3.** Biz şənbə günü kitab sərgisinə ... . *(getmək)* təsdiq
**4.** Siz bu dəfə yarışda ... . *(iştirak etmək)* inkar
**5.** Qonaqlar səhər tezdən ... . *(yola düşmək)* təsdiq

**c Fonetik baxımdan eyni sonluğa malik olan sözləri qruplaşdırın və nümunəyə uyğun olaraq təhlil edin.**

***Nümunə***

qurtarasıdır: *qurtar* – sözün kökü, *-ası* – feilin lazım şəklinin şəkilçisi, *-dır* – şəxs şəkilçisi
sədasıdır: *səda* – sözün kökü, *-sı* – mənsubiyyət şəkilçisi, *-dır* – şəxs şəkilçisi

**1.** Kitabı sabah gətirəsidir.
**2.** Gələn il əsgərliyə gedəsisən.
**3.** Biz Xəzər Universitetinin tələbəsiyik.
**4.** Bakının ən qədim memarlıq abidələrindən biri də Qız qalasıdır.
**5.** Qonağımız bu gün mehmanxanada qalasıdır.
**6.** Bu, Zakirin qələbəsidir.

**ç Aşağıdakı feilləri lazım şəklində uyğun şəxsə görə dəyişib cümlədə işlədin.**

başlamaq *(III şəxsin təki)*
düzəltmək *(I şəxsin cəmi)*
gözləmək *(II şəxsin cəmi)*
yazmaq *(III şəxsin cəmi)*
düşünmək *(I şəxsin təki)*
yatmaq *(II şəxsin təki)*

**d** **Verilmiş nümunələrdə əmr şəklində olan feilləri seçin. Feillərin hansı şəxslərə aid olduğunu müəyyənləşdirin. Hansı feil inkardadır?**

Gətir sazını, qardaş,
Pozma yazını, qardaş.
Böyü, ol qoçaq igid,
Çəkim nazını, qardaş.
*(Bayatı)*

Laylay dedim adına,
Haqq yetişsin dadına.
Boya-başa çatanda
Məni də sal yadına.
*(Layla)*

**6** **a** **Hansı cümlədə nöqtələrin yerinə "kaş" sözünü artırmaq olar? Sizcə, hansı cümlədəki feil hərəkətin arzu olunduğunu bildirir?**

**a.** ... ağ günlü, ağ çörəkli olasan.
**b.** ... danışanların sözünü kəsmə.

**Bunları bilməliyik** FEİLİN ARZU ŞƏKLİ

**Arzu şəkli** feilin kökünə və ya başlanğıc formasına ***-a²*** şəkilçisini və şəxs şəkilçilərini artırmaqla düzəlir: *soruşam, soruşasan, soruşa* və s.
Feilin arzu şəkli çox vaxt ***kaş, gərək, təki, barı*** ədatları ilə işlənir: *kaş biləsən, gərək gedək, təki oxuya, barı görəsiniz* və s.

**b** **Arzu şəklində olan feillərin hansı şəxsə aid olduğunu müəyyən edin.**

Laylay dedim yatasan,
Dərdi, qəmi atasan.
Qızılgül bağın olsun,
Gül-çiçəyə batasan.

**c** **Nöqtələrin yerinə "qoy" və "kaş" ədatlarını yazaraq cümlələri tamamlayın. Cümlələrdəki feillərin şəklini müəyyən edin.**

**1.** ... biz də belə uğura çataq.
**2.** ... hamı bu xəbərə sevinsin.
**3.** ... sən xoşbəxt olasan.
**4.** ... bu xoş günlər heç vaxt bitməyə.
**5.** ... heç kim haqsızlıq qarşısında susmasın.

**Yadda saxla**

Feilin arzu və əmr şəkilləri I şəxsin cəmində forma etibarilə eynidir. Arzu şəklində iki (-a, -ə; -q, -k), əmr şəklində isə bir (-aq, -ək) qrammatik şəkilçi işlənir. Onları ədatların köməyi ilə və ya kontekstə görə fərqləndirmək olar:
Kaş gəl-ə-k. (arzu şəkli)
Qoy gəl-ək. (əmr şəkli)

**1 a Azərbaycan Respublikası Prezidentinin nüfuzlu beynəlxalq nəşrlərə, televiziya kanallarına verdiyi müsahibələrdən bir hissəni oxuyun. Jurnalistin sualına münasibət bildirin.**

***Jurnalist:*** Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar* var, yoxsa bu bir rəmzi məna daşıyır?
***Prezident:*** Elzas və Lotaringiya** sizin üçün önəmlidir?.. Bu bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada – Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.



***Resurs** – *hər hansı sahədə mövcud olan ehtiyat bazası, hələ istifadə edilməmiş imkanlar, mənbələr.*
****Elzas və Lotaringiya** – *Fransa ilə Almaniya sərhədində yerləşən tarixi bölgələr. Bu ərazilər uzun əsrlər boyu Fransa ilə Almaniya arasında mübahisəli torpaq olub.*

**Yadda saxla**

Müsahibədə əsas məqsəd qarşı tərəfdən mümkün qədər çox informasiya almaqdır. “Niyə”, “nə üçün”, “necə” əvəzliklərinin köməyi ilə qurulan sual cümlələri, adətən, müsahibi ətraflı danışmağa, daha çox informasiya verməyə sövq edir. “Bəli” və ya “xeyr” cavabı ilə kifayətlənən suallar verməkdən çəkinin.

**Məsələn:**

| Sual | Şərh |
|---|---|
| Döyüş zamanı qorxdunuzmu? | Qapalı sual olduğu üçün müsahib, adətən, “hə”, ya da “yox” cavabı verir. Beləliklə, müxbir kifayət qədər informasiya ala bilmir. |
| Döyüş zamanı qorxu hissinə necə qalib gəldiniz? | Müsahib “necə” sualına cavab vermək üçün ətraflı danışır. |

**b** **Qruplarla iş.** **II Qarabağ müharibəsi iştirakçıları ilə müsahibələri oxuyun. Müsahibin nitqinə əsasən müxbirin suallarını müəyyənləşdirin. Əlavə suallar hazırlayaraq müsahibəni səhnələşdirin.**

**Təlimat**

- Mövzu: Azad olan Vətən torpaqları
- Məqsəd: İşğal altında olan Vətən torpaqlarını azad edən qəhrəmanların keçirdiyi hissləri əks etdirmək, döyüş xatirələrini dinləmək, azad edilmiş torpaqlara dair plan və arzularını eşitmək və s.
- Sualları hazırladıqdan sonra bir daha nəzərdən keçirin.

**I qrup**

**Müsahibimiz 44 günlük Vətən müharibəsinin iştirakçısı Topçu Vüsal ləqəbi ilə məşhurlaşan Vüsal Şahkərimovdur.**



**Müxbirin sualı:** *Döyüşləri yad edəndə hansı hissləri keçirirsiniz?*
*– Həm kədər, həm də sevinc duyuram. Döyüşlərdə yoldaşlarımız qəhrəmancasına şəhid oldular, şəhidlik zirvəsinə ucaldılar. Torpaqlarımızın azad olunması, 30 illik həsrətin sona çatması isə böyük sevincdir. O sevincdə mənim də payım var və Azərbaycan əsgəri kimi iştirak etdiyim üçün qürur duyuram.*

***Müxbirin sualı:*** ______________________
*– Cəbrayıl və Qubadlı uğrunda döyüşlərdə iştirak etdim. Sonra hərbi hissəmiz Şuşaya köçürüldü. Döyüşlər başa çatdıqdan sonra hərbi xidmətimi davam etdirdim və 2021-ci il iyulun 1-də Şuşadan tərxis olundum. Ümumilikdə 24 ay, o cümlədən 6 ay əlavə hərbi xidmət göstərdim.*

***Müxbirin sualı:*** ______________________
*– Bu şəkil təsadüfi epizoddan yaranıb. Qubadlının Sarıyataq kəndində döyüş zamanı lentə alınıb. Həmin gün Müdafiə Nazirliyinin çəkiliş qrupu ərazidə həyata keçirilən döyüş taktikalarını çəkirdi.*

***Müxbirin sualı:*** ______________________
*– “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif olunmuşam.*

## II qrup

Müsahibimiz Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətlərə görə adını hərb tarixinə qızıl hərflərlə yazdıran qəhrəman **Zaur Sabir oğlu Cavanşirdir.**






**Müxbirin sualı:** *Soyadınız Pənahəli xan Cavanşiri xatırladır.*
*– Bəli, haqlısınız. Mən Qarabağ xanı Pənahəli xan nəslinin davamçısıyam.*

**Müxbirin sualı:** ______________________
*– Sentyabrın 27-də düşmənin hücumlarına qarşı əks-hücum əməliyyatlarında ön sırada döyüşmüşəm. Şuşa, Füzuli, Kəlbəcər, Qubadlı və Xocavəndin azad edilməsində iştirak etmişəm.*

**Müxbirin sualı:** ______________________
*– Real olaraq Şuşaya noyabrın 6-da gecə girdik, 7-si düşməndən təmizlədik, 8-i qələbəni məruzə etdim.*

**Müxbirin sualı:** ______________________
*– Şuşaya Zəfər Bayrağını sancmaq mənim üçün böyük şərəf idi. Həmin an həm sevinir, həm də qürur hissi keçirirdim.*

**Müxbirin sualı:** ______________________
*– Bizim gücümüz birliyimizdədir və gələcək nəsillər də bu yolda əzmlə irəliləməlidirlər. Vətən sevgisi hər şeydən üstündür və onu qorumaq bizim müqəddəs borcumuzdur.*

### III qrup

Müsahibimiz Aprel döyüşləri (2016-cı il) zamanı düşmənin 7 tankını, bir neçə döyüş maşınını heyəti ilə birlikdə məhv edən **Mirdamət Bağıyevdir.**



**Müxbirin sualı:** *Zəhmət olmasa, özünüz haqqında məlumat verin. Necə oldu ki, hərbçi oldunuz?*

*– Mən 1986-cı ildə Şamaxının Poladlı kəndində anadan olmuşam. Uşaqlıqdan hərbçi olmaq istəyirdim. Məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldum və artilleriyaçı ixtisası üzrə təhsil aldım.*

**Müxbirin sualı:** ____________________

*– 2016-cı ilin aprelində düşmən atəşkəsi pozdu. Ağır döyüşlər başladı. Mən həmin döyüşlərdə çiynimdən yaralansam da, bunu əsgərlərə bildirmədim. Onların ruhdan düşməsini istəmirdim. Sonrakı günlərdə düşmənin tank və texnikalarını məhv etdik. Hətta gözüm qəlpə ilə zədələnsə də, döyüşləri davam etdirdim. Atəşkəsə qədər mövqelərimizi qoruduq.*

**Müxbirin sualı:** ____________________

*– 44 günlük savaşda tabeliyimdəki şəxsi heyətlə Talış və Suqovuşanın azad edilməsi uğrunda döyüşlərə qatıldım. Bizim bölmənin iştirakı ilə düşmənin 32 tankı, 6 avtomobili məhv edildi.*

**Müxbirin sualı:** ____________________

*– Bu ad mənim üçün böyük məsuliyyət və qürurdur. Mənim qəhrəmanlığım təkcə mənim yox, çiyin-çiyinə döyüşdüyüm əsgərlərin, zabitlərin şücaətidir.*

**2 a** **Aşağıdakı cümlələri müqayisə edin. Hansı cümlədə hərəkətin vacibliyi bildirilir?**

**A.** Yeni kitabları ayırıb qabaqdakı rəflərə düzəcəyəm.
**B.** Yeni kitabları ayırıb qabaqdakı rəflərə düzməliyəm.

**Bunları bilməliyik** FEİLİN VACİB ŞƏKLİ

**Feilin vacib şəkli** hərəkətin icrasının vacibliyini bildirir. Feilin kökünə və ya başlanğıc formasına ***-malı***$^2$ şəkilçisini və şəxs şəkilçilərini artırmaqla düzəlir:
Təlimatı diqqətlə ***oxumalısınız.***
***Vacib şəklinin inkarı*** həm ***-ma***$^2$ şəkilçisi, həm də ***deyil*** sözü vasitəsilə yaranır:
*Bu alət tut ağacından* ***hazırlanmamalıdır.***
*Bu alət tut ağacından* ***hazırlanmalı deyil.***

**b** **Vacib şəklində olan feillərin şəxsini, təsdiq və ya inkarda işləndiyini müəyyən edin.**

**1.** Biz məktəbin qaydalarına əməl etməliyik.
**2.** Vətənin bir qarış torpağını da düşmənə verməməliyik.
**3.** Siz bu məsələyə qarışmalı deyilsiniz.
**4.** Uçuşa iki saat qalmış burada olmalısınız.
**5.** Xoş niyyətlə danışmağa çalışmalısan.

**c** **Əmr şəklində verilmiş feilləri vacib şəklə çevirərək cümlələri dəyişin.**

***Nümunə***

*Oturuşuna, danışığına, rəftarına diqqət et.*
*Oturuşuna, davranışına, rəftarına diqqət etməlisən.*

**1.** Özünü alim sayan nadandan uzaq gəz.
**2.** İstəyirsən ki, düşmən sirrini bilməsin, onu dosta demə.
**3.** Hər düşündüyünü etibarsız adama demə, lakin etibarlı adamdan da gizlətmə.
**4.** Tez-tez kədərlənmək istəmirsənsə, paxıl olma.
**5.** Sabah bütün uşaqlar iməciliyə gəlsinlər.

**ç** **Fərqləndirilmiş sözlərə sual verib vacib şəklində olan feilləri göstərin.**

**1.** Dilbər qonaqları gül-çiçəklə ***qarşılamalı*** idi.
**2.** Qumrunun ***sürməli*** gözləri hamını heyran edirdi.
**3.** Səbinə "***Çəkməli*** pişik" cizgi filmini çox sevir.
**4.** Sən bu gün keşik ***çəkməli*** deyilsən.
**5.** Başı ***çalmalı*** adam içəri daxil olanda hamı ayağa qalxdı.
**6.** Bu gün kiçik bacım məktəb tədbirində pianoda ***çalmalı*** idi.

**3 a** **Aşağıdakı cümlələrdə şərt mənası ifadə edən feilləri seçin.**

**1.** Düşmən zəif olsa da, ehtiyatı əldən vermə.
**2.** Qonşu paxıl olmasa, bağ çəpəri neylər?!
**3.** Od olmasa, tüstü çıxmaz.

**Bunları bilməliyik** **FEİLİN ŞƏRT ŞƏKLİ**

**Şərt şəkli** feilin kökünə və ya başlanğıc formasına ***-sa***$^2$ şəkilçisini və şəxs şəkilçilərini artırmaqla düzəlir. Məsələn*: Əzmlə **çalışsan,** uğur qazanacaqsan.*
Feilin şərt şəkli çox zaman *əgər, hərgah* bağlayıcıları ilə işlənir:
*Əgər insan keçmişindən **dərs almasa,** gələcəyini də itirər.*

**b** **Fərqləndirilmiş feilləri şərt şəklində işlədin.**

**1.** Sən **(çalışmaq),** nəticə yaxşı olacaq.
**2.** Onlar **(kömək etmək),** iş tez bitəcək.
**3.** Doğru **(danışmaq),** sonradan xəcalət çəkməzsən.
**4.** Siz mənə **(güvənmək),** mən daha çox çalışacağam.

**c** **Şərt şəklində olan feilləri tapın və hansı şəxslərə aid olduğunu deyin.**

**1.** Bacarsan, hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir kömək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər. *(Nizami Gəncəvi)*

**2.** Namərdi bir gördüm, bir də görsəm, namərdəm. *(Atalar sözü)*

**3.** Əziyyət çəkib yaxşılıq etsən, əziyyət keçər, yaxşılıq qalar.
Pislik edib ləzzət çəksən, ləzzət gedər, pislik qalar. *(Nəsirəddin Tusi)*

**4.** Don tiksən, ağı bizdən,
Belinin bağı bizdən.
Qoymayın yadellini
Almağa bağı bizdən.

**5.** Yazmaram, ürəyim sizi anmasa,
Sizin eşqinizlə alovlanmasa.
El kəsib qarşımı burdaca sordu:
Gözdən yaş çıxarmı, ürək yanmasa? *(M.Müşfiq)*

**ç** **Uyğunluğu müəyyən edin.**

**1.** El bir olsa, ...
**2.** Adam öz tayını tapmasa, ...
**3.** Baş-başa verməsən, ...
**4.** Qəlb də ayna kimidir, sınsa, ...

**a.** yapışdırmaqla düzəlməz.
**b.** dağ oynadar yerindən.
**c.** günü ah-vayla keçər.
**ç.** daş yerindən qalxmaz.

## Ümumiləşdirici təkrar

**1** **Təsriflənən feillərin neçənci şəxsə aid olduğunu müəyyən edin. Mötərizədə verilmiş şəxsə uyğun dəyişin.**

1. Gülləri hər gün ***sulamayın***. (II şəxsin təki)
2. Məktəbdə keçiriləcək bayram tədbirinə ***hazırlaşırıq***. (III şəxsin cəmi)
3. Bu gün ***gəlsəniz***, bu haqda söhbət edərik. (I şəxsin cəmi)
4. Layihəni vaxtında bitirmək üçün işlərini düzgün ***planlaşdırsınlar***. (III şəxsin təki)
5. Sabaha qədər qeydiyyatdan ***keçməlidir***. (I şəxsin təki)
6. Həftəsonu Şuşaya səfərə ***gedəsidir***. (II şəxsin cəmi)

**2** **Cümlələrdə fərqləndirilmiş feillərin hansı şəklə aid olduğunu müəyyən edin.**

1. Bu filmi illər əvvəl ***ekranlaşdırıblar***.
2. Həmişə belə xoşbəxt günlər ***görəsən***.
3. Dəniz bu gün dalğalıdır, çox uzağa ***üzmə***.
4. Bu əmanəti mütləq sahibinə ***çatdırmalısınız***.
5. Gələn həftə ekskursiyaya ***gedəsiyik***.
6. Əgər bu işi sizə ***təklif etsək***, razı olarsınızmı?

a. əmr şəkli
b. vacib şəkli
c. lazım şəkli
ç. arzu şəkli
d. şərt şəkli
e. xəbər şəkli

**3** **Xəbər şəklində olan feillər artırmaqla cümlələri tamamlayın. Onların neçənci şəxsdə işləndiyini müəyyən edin.**

*tumarlamaq, yaratmaq, ucaltmaq, açıqlamaq, anlamaq, bəyənmək*

1. Ekspertlər imtahanın nəticələrini ... .
2. Nənə nəvəsinin qumral saçlarını nəvazişlə ... .
3. Yeni texnologiyalar inanılmaz imkanlar və fürsətlər ... .
4. Əsgərlər zəfər bayrağını şəhərin mərkəzində ... .
5. Kəlağayının üzərindəki zərif naxışları çox ... .
6. İndi mən hər şeyi yaxşı ... .

**4** **Əmr şəklində işlənən feillərin hansı şəxsə aid olduğunu müəyyən edin.**

1. Gəlin tapşırığın şərtini əvvəlcədən diqqətlə müzakirə edək.
2. Qoy hər kəs öz vəzifəsini yerinə yetirsin.
3. Dediyiniz sözün üstündə möhkəm dayanın.
4. Səfərdən qabaq sənədləri bir daha yoxlasınlar.
5. Yaxşı dostu yaman gündə sına.
6. Gəlin mövzunu sizə yenidən izah edim.

**5** **Arzu şəklində olan feillərin hansı şəxsə aid olduğunu müəyyən edin.**

Beşiyini bəzəyəydim,
İçinə gül düzəydim.
Nə dedim ki, sən küsdün?
Kaş dilimi kəsəydim.

Laylay dedim, yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində
Şirin yuxu tapasan.

**6** **Verilmiş feilləri lazım şəklində şərtə uyğun işlədərək cümlələri tamamlayın.**

1. Səyahət zamanı yolumuz dağlıq ərazilərdən ... . *(keçmək)* təsdiq
2. Sən dərmanları hər gün ... . *(qəbul etmək)* inkar
3. Bu il qış çox sərt ... . *(keçmək)* təsdiq
4. Beşincilər bu debatda ... . *(iştirak etmək)* inkar
5. Biz alpinistləri sabah axşam ... . *(qarşılamaq)* təsdiq
6. Siz sabah kəşfiyyata ... . *(getmək)* təsdiq

**7** **Fərqləndirilmiş feilləri şərt şəklində işlədin.**

1. Siz **(mübarizə aparmaq),** qələbə qazanacaqsınız.
2. Qızım **(yardım etmək),** ev işlərini tez bitirəcəyəm.
3. Sən özünə **(inanmaq),** uğur qazanacaqsan.
4. Qaydaları **(öyrənmək),** yazıda səhv etməyəcəyik.
5. Gün **(çıxmaq),** hava isinəcək.

**8** **Fərqləndirilmiş feilləri uyğun qrammatik formada işlətməklə cümlələri tamamlayın.**

1. Təki müsabiqədən uğurla **keç**... . (arzu şəkli, təsdiq, I şəxsin cəmi)
2. Kitabı sabah **gətir**... . (lazım şəkli, inkar, I şəxsin təki)
3. Yaxşı olar ki, başqalarının işinə **qarış**... . (əmr şəkli, inkar, II şəxsin təki)
4. Gənc alimlər mütləq konfransda **iştirak et**... . (vacib şəkli, təsdiq, III şəxsin cəmi)
5. Bütün çıxışlardan sonra fikrini **bil**... . (xəbər şəkli, təsdiq, keçmiş zaman, III şəxsin təki)

**9** **Cümlələrdə işlənmiş feilləri seçin və cədvələ uyğun olaraq morfoloji tərkibini izah edin.**

1. Gərək hər bir işi vaxtında görəsən.
2. Dost dostun eybini gizlətməməlidir.
3. Hər deyilənə inanma.
4. Səlim hələ çox işlər görəsi idi.
5. Eyibli öz eybini bilsə, başına kilim örtər.
6. Sabah bütün işçilər iməciliyə gəlsinlər.
7. Boyuna baxmayın, bacarığına baxın.

| *Feil* | *İnkar şəkilçisi* | *Feil şəklinin əlaməti* | *Zaman şəkilçisi* | *Şəxs şəkilçisi* |
|---|---|---|---|---|
| *başlayasıdır* | - | *-yası* | - | *-dır* |
| | | | | |

# 6 bölmə Adlar və deyimlər

**a** **Yaşadığınız şəhərin (kəndin, qəsəbənin) adı haqqında nə bilirsiniz?**

- **Bu ad nə vaxt, necə yaranıb?**
- **Əvvəllər bu yerin başqa adı olubmu? Niyə dəyişdirilib?**

**b** **Aşağıdakı məlumatlarla tanış olun və sualları cavablandırın.**




*Füzuli şəhərinin adı 1403-cü ildən 1905-ci ilədək Qarabulaq olub. Sonralar çar polkovniki Pavel Karyaginin şərəfinə Karyagin adlanıb. 1959-cu ildə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin şərəfinə Füzuli adlandırılmışdır.*



*Laçın əvvəllər Abdallar adlanıb. “Laçın” sözü şəhər adı kimi xəritədə 1924-cü ildən qeyd olunmağa başlamışdır. Araşdırmalara görə, şəhərin adı Laçın dağının adından götürülmüşdür.*



*Oğuz qədim yaşayış məskənlərindən biridir. Eramızın əvvəllərində bu ərazi Qafqaz Albaniyasının tərkibində olmuşdur. Oğuz şəhərinin adı oğuz tayfa birliyinin adından yaranmışdır.*



*Göyçay şəhəri eyniadlı çayın – Göyçayın sahilində yerləşdiyinə görə bu adı almışdır. Çayın suyu həddindən artıq şəffafdır və göy rəngə çalır.*

**c** **Tanış olduğunuz şəhər adları necə yaranıb?**

- **Hansı adlar ərazidəki coğrafi obyektin adından götürülüb?**
- **Hansı ad görkəmli şəxsiyyətin adı ilə bağlıdır?**
- **Hansı ad həmin ərazidə məskunlaşmış tayfa adından yaranıb?**

**ç** **Adlarla bağlı dilçilik terminlərinin etimologiyası (mənşəyi) ilə tanış olun və terminoloji izahlarla uyğunlaşdırın.**

**1. toponim** – yun. *topos* (yer)
**2. oykonim** – yun. *oykos* (ev)
**3. urbanonim** – yun. *urbanus* (şəhər)
**4. hidronim** – yun. *hidro* (su)
**5. oronim** – yun. *oros* (dağ)

*onima* (ad)

**a.** su hövzələrinin (çay, dəniz, bulaq, göl və s.) adları
**b.** şəhərdaxili obyektlərin (küçə, meydan, park və s.) adları
**c.** təbii ərazinin (çay, dağ, göl) və ya insan tərəfindən yaradılmış obyektlərin (şəhər, küçə, bina və s.) adları
**d.** Yer səthinin relyefini bildirən coğrafi adlar: təpə, dərə, dağ və s.
**e.** yaşayış məntəqələrinin (kənd, rayon, şəhər və s.) adları

**d** **Coğrafi adları cədvəl üzrə qruplaşdırın.**

*Araz, Neftçilər prospekti, Lənkəran, Tufandağ, Girdimançay, Ordubad, Azadlıq meydanı, Şamaxı, Şahdağ, Nizami küçəsi, Kəpəz, Kür, Ağdam, Dağüstü park, Quba, Maralgöl, Sabir bağı, Arpaçay, Murovdağ, Beşbarmaq dağı*

| TOPONİMLƏR | | | |
|---|---|---|---|
| *oykonim* | *urbanonim* | *hidronim* | *oronim* |
| | | | |

# Şəhər və ölkə adları

**1 a** **Nə üçün keçmişdə şəhərlər möhkəm qala divarları ilə əhatə olunurdu?**

**b** **Dərbənd şəhəri haqqında nə bilirsiniz? Hazırda bu şəhər hansı ölkənin ərazisində yerləşir?**

## Dəmirqapı Dərbənd

Dərbənd Qafqaz Albaniyasının ən qədim şəhərlərindən biri olmuşdur. Arxeoloji qazıntılar onun eramızdan təxminən 4-5 min il əvvəl salındığını göstərir. Qədim mənbələrdə Dərbənd "Əzəmətli şəhər" adlandırılır, onun küçə və meydanlar sistemindən ibarət daxili planının olduğu qeyd edilir. Bu şəhər **sənətkarlıq** və ticarət mərkəzi olmuşdur.

"Dərbənd" adı farsca *"dər"* (qapı; ağac) və *"bənd"* (divar; bağlı, qapanan) sözlərinin birləşməsindən əmələ gəlmişdir ki, bu da *bağlı qapı,* yəni *möhkəm qorunan yer* deməkdir. Türk xalqları yaşayan ərazilərdə bu toponimlə adlandırılan yaşayış məntəqələrinə tez-tez rast gəlmək olur. Adətən, dar keçidlərdə – iki dağ, yaxud dağ və dəniz arasında salınan şəhər və kəndlər belə adlandırılırdı.



Qədim **əlyazmalarda** və şifahi xalq ədəbiyyatında Dərbənd şəhəri "Dəmirqapı Dərbənd" adlandırılır. Bu ad "Kitabi-Dədə Qorqud" dastanında dəfələrlə xatırlanır. Alman səyyahı Adam Oleari, türk səyyahı Övliya Çələbi və başqaları Dədə Qorqudun qəbrinin Dərbənddə olduğu barədə məlumat verirlər. Dərbənd şəhərinin keçmişinə dair başlıca yazılı mənbələrdən olan "Dərbəndnamə" adlı tarixi əsərdə də bununla bağlı məlumat vardır. Bu faktlar Dərbəndin eramızdan min illər əvvəl qədim türk mədəniyyətinin mərkəzlərindən biri olduğunu söyləməyə imkan verir. Bundan əlavə, bir vaxtlar bu şəhər qəhrəmanlıq rəmzi idi. "Koroğlu" dastanının qollarından birində Koroğlunun Dərbəndə səfərindən bəhs edilir.

Vaxtilə Dərbənd Azərbaycanın şimal qapısı idi. Xəzər dənizinin sahilindəki bu şəhər Şimali Qafqaza, Volqaboyuna, Avropaya və Türküstana (Orta Asiyaya) açılan qapı rolunu oynayırdı. Dərbənd Qafqaz dağları ilə Xəzər dənizi arasındakı ən dar keçiddə yerləşir. Bu keçid şimaldan cənuba hərəkət edən ordular, karvanlar üçün yeganə yol olub. Şəhəri əhatə edən qala divarları şimal-cənub yolunda keçilməz sədd idi və Azərbaycanı şimal tayfalarının **basqınlarından** qoruyurdu.

Qədim mənbələrdə Dərbənd qalasının Sasani hökmdarları (təxminən III–VII əsrlər) tərəfindən tikildiyi göstərilir. Qalanın divarları və qapıları bürclərlə möhkəmləndirilmişdi. Qalınlığı 4 metrə, hündürlüyü 20–25 metrə çatan möhtəşəm divarlar Dərbəndi alınmaz qalaya çevirirdi. Vaxtilə 40 km uzunluğunda olan bu sədd dağlardan başlayıb dənizin içərisinə qədər uzanırdı. Onun qədim dövrdə və orta əsrlərdə böyük hərbi-**strateji** əhəmiyyəti olmuşdur.

Qafqaz Albaniyası və ondan sonrakı dövrlərdə Dərbənd həmişə Azərbaycanın əsas şəhərlərindən biri olmuşdur. O, bir müddət Quba xanlığının **tabeliyində** olub. XVIII əsrin ikinci yarısında isə bu şəhər Dərbənd xanlığının mərkəzi idi. Şimali Azərbaycan Rusiyaya birləşdirildikdən sonra da bu şəhər Azərbaycan şəhəri olaraq qalmaqda idi. Şəhər 1921-ci ilədək Bakı **quberniyasına** daxil idi. Yalnız XX əsrin 30-cu illərində Dərbənd Azərbaycandan alınaraq Rusiyanın tərkibinə verilmişdir.

**Söz mücrüsü**

- sənətkarlıq • basqın
- əlyazma • strateji
- tabelik • quberniya

## Nə anladın?

**c Mətnə əsasən suallara cavab verin.**

**1.** “Dərbənd” toponiminin mənası nədir?
**2.** Şəhərə “Dəmirqapı” adı hansı səbəbdən verilib?

**ç Mətnə əsasən Dərbəndin tarixində baş vermiş hadisələri xronoloji ardıcıllıqla düzün.**

**1.** Dərbənd Quba xanlığının tabeliyində olub.
**2.** Qədim alban şəhəri olub.
**3.** Rusiyanın tərkibinə keçib.
**4.** Şəhər Dərbənd xanlığının mərkəzi olub.

## Düşün və cavab ver

**d “Dar keçid”, “qapı” mənaları ilə şəhərin coğrafi mövqeyi arasında hansı əlaqə var?**

**e Sizcə, nə üçün məhz Sasani hökmdarları Dərbənd şəhərinin ətrafında qala divarları tikdilər? Tarix fənnindən əldə etdiyiniz biliklərə istinad etməklə fikrinizi əsaslandırın.**

**ə** Mətni hissələrə bölüb məzmuna uyğun yarımbaşlıqlarla adlandırın.

**f** Mətndən tarixçilər və dilçilər üçün maraqlı olan məlumatları seçin.

## Dinləmə 07

**2 a** Sual işarəsinin yerində hansı şəhərin adı yazıla bilər?




**b** Qeydlər götürməklə “Əbədi şəhər” mətnini dinləyin.

**c** Nə üçün Roma “əbədi şəhər” adlandırılır? Mətndə göstərilən dəlilləri sadalayın.

**ç** Nə üçün romalılar şəhərin əbədi olacağına inanırdılar?

**d** Dinlədiyiniz mətndə Roma haqqında yadınızda qalanları bir neçə cümlə ilə yazın.

**e** “Dəmirqapı Dərbənd” və “Əbədi şəhər” mətnlərini müqayisə edin. Müəllifin məqsədini və mətnlərin növlərini müəyyənləşdirin.

**1.** Həm əfsanə, həm də tarixi faktlardan bəhs edilir.
**2.** Toponimin mənası izah olunur.
**3.** Şəhər böyük bir imperiyanın mərkəzi olub.
**4.** Şəhərin möhkəm qala divarları var.
**5.** Şəhərin adı onun əsasını qoymuş şəxsin adı ilə bağlıdır.
**6.** Şəhər keçmişdə qəhrəmanlıq rəmzi olub.
**7.** Şəhərin tarixi çox qədimdir.




**ə** “Bütün yollar Romaya aparır” ifadəsi ilə bağlı araşdırma aparın.

**3 a** Qruplarla iş. **Mətnləri oxuyun və qeydlər götürün.**

- **Qeydləriniz əsasında yaddaş xəritəsi hazırlayın və müvafiq ölkə haqqında məlumatları təqdim edin.**
- **Digər qrupların təqdimatlarına münasibət bildirin, anlaşıqlı və məzmuna uyğun olduğunu müəyyənləşdirin.**
- **Mətnlərə aid 3 sual hazırlayın və auditoriyaya ünvanlayın.**

I qrup

## DUMANLI ALBİON



Albion Böyük Britaniyanın qədim adıdır. Qədim yunan və Roma müəllifləri Britaniya adalarını “Albion” adlandırırdılar. Yunan alimi Klavdi Ptolemey (II əsr) öz əsərində “Albion adası (Britannia)” adlı yeri təsvir edib. Keltlərin – bu ölkənin ən qədim sakinlərinin dilində “Albion” hündür, dağlıq ada deməkdir.

Başqa bir versiyaya görə, bu söz latınca “ağ” mənasını verən “albus” sözündən yaranıb. Deyilənə görə, Qədim Roma əsgərləri gəmilərlə La-Manş tərəfdən adaya yaxınlaşarkən sahildəki **təbaşir** qayalıqlarının ağ rəngi onları **valeh edib,** buna görə də “albus” sözünə uyğun olaraq buranı “Albion” adlandırıblar.

**Söz mücrüsü**

• təbaşir • valeh etmək • sənaye



Böyük Britaniyada iqlim rütubətli və soyuqdur. Ada tez-tez dumanla örtüldüyünə görə Böyük Britaniya “Dumanlı Albion” da adlandırılır.

Maraqlıdır ki, “Dumanlı Albion” ifadəsi ilk dəfə XIX əsrdə rus şairlərinin əsərlərində istifadə edilib. İfadə ingilis dilində geniş yayılmasa da, XIX əsrin sonunda mətbuatda işlənmişdir.

Böyük Britaniyada, xüsusilə London kimi sənaye mərkəzlərində dumanın başqa bir səbəbi də vardı. Kömürlə işləyən çoxsaylı sobalardan çıxan tüstü London və digər şəhərlərdə **sənaye** dumanı yaradırdı ki, bu da, çox güman ki, adanın “dumanlı” adlandırılmasında rol oynayıb.

**b** **“Albion” sözünün həm latın, həm də kelt mənşəli izahını müqayisə edin. Hansı daha inandırıcı görünür? Səbəbini izah edin.**

**c** **Mətnə əsasən doğru fikri müəyyənləşdirin.**

**a.** "Dumanlı Albion" ifadəsinə ilk dəfə qədim yunan alimlərinin əsərlərində rast gəlinir.
**b.** "Albion" sözü kelt dilində rəng bildirən sözdür.
**c.** İngiltərənin La-Manş sahillərində təbaşirli qayalıqlar var.
**d.** "Dumanlı Albion" ifadəsi ingilis dilindən rus dilinə, sonra başqa dillərə keçmişdir.

II qrup

## QIRMIZI ƏJDAHA ÖLKƏSİ



Çini "Qırmızı əjdaha ölkəsi" adlandırırlar, çünki qırmızı əjdaha Çin mədəniyyətində güc, hakimiyyət, uğur, **tərəqqi** və sevinc rəmzidir. Çinlilər üçün əjdaha imperator hakimiyyəti ilə bağlı olan və xalqın **əcdadı** sayılan mifoloji varlıqdır. Qırmızı rəng isə ənənəvi olaraq xoşbəxtlik və firavanlıq deməkdir. Bəs niyə məhz əjdaha?

Qərb mifologiyasında əjdaha çox vaxt qorxulu, dağıdıcı **məxluq** kimi təqdim olunsa da, Çində o, xeyirxah və **müdrik** bir varlıq hesab olunur: yağış, məhsuldarlıq və bərəkət gətirir. Arxeoloji tapıntılar (e.ə. IV minilliyə aid əjdaha fiqurları) əjdahanın qədim Çin miflərində mühüm yer tutduğunu göstərir. Çin imperatorları özlərini "əjdahanın oğlu" adlandırırdılar. İmperator sarayının taxtı "Əjdaha taxtı" adlanırdı, imperator geyimində qızıl əjdaha təsvir olunurdu.

Bir çox çinli özünü əjdahanın nəslindən hesab edir. Buna görə də bu mifoloji varlıq onların mədəniyyətində mərkəzi yer tutur. Əjdaha Çinin himayədarı və sərvətlərin, məsələn, qiymətli daşların qoruyucusu sayılır. Vaxtilə qırmızı əjdaha Çində siyasi simvol kimi milli bayraq və gerbdə təsvir olunmuş, ölkənin qüdrətini və nüfuzunu ifadə etmişdir.

Beləliklə, müqəddəs əjdaha obrazı ilə qırmızı rəngin rəmzi mənasının **vəhdəti** "Qırmızı əjdaha ölkəsi" ifadəsinin yaranmasına səbəb olmuşdur.

**Söz mücrüsü**
- tərəqqi • əcdad
- məxluq • müdrik
- vəhdət

**ç** **Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** irəliləyiş, inkişaf | **a.** əcdad |
| **2.** ata-babalar, ulu babalar | **b.** vəhdət |
| **3.** canlı varlıq | **c.** tərəqqi |
| **4.** çox ağıllı | **ç.** məxluq |
| **5.** birlik, bütövlük | **d.** müdrik |

III qrup

## GÜNDOĞAR ÖLKƏ



Yaponiyanı, adətən, "Gündoğar ölkə" adlandırırlar. Bu poetik ad tamamilə məntiqli görünür, çünki yapon adalarında yaşayan insanlar Günəşin doğuşunu ilk qarşılayanlardandır. Amma bu ad yalnız ölkənin coğrafi mövqeyinə görəmi verilib?

"Yaponiya" sözü iki heroqliflə yazılır: 日 (*ni*) – günəş, 本 (*hon*) – başlanğıc, kök, mənbə mənasını verir. Yəni "Yaponiya" sözünün hərfi tərcüməsi "Günəşin mənbəyi" və ya "günəşin doğduğu yer" deməkdir. Bəs niyə Yaponiya məhz belə adlandırılıb?



Yaponiya başqa ölkələrlə diplomatik yazışmalarında özünü *Günəşin çıxdığı yer* adlandırırdı. Bu, ölkənin coğrafi mövqeyi ilə bağlıdır: digər ölkələrə görə Yaponiya Uzaq Şərqdə – günəşin doğduğu yerdə idi. Əfsanəyə görə, ilk yapon imperatoru "göylərin hakimi" titulunu daşıyırdı və Günəş **ilahəsinin** nəslindən idi. Bu səbəbdən günəş simvolu həm dini inanclarda, həm də dövlət **ideologiyasında** əsas yer tutur. Yaponiyanın milli bayrağında ağ fonda qırmızı günəş – "Gündoğar ölkə" adının təcəssümüdür. Beləliklə, günəş yaponlar üçün müqəddəs simvoldur, xoşbəxtliyi, gücü və tərəqqini ifadə edir.

**Söz mücrüsü**

• ideologiya • ilahə

**d** **Mətnin məzmununa uyğun fikri müəyyən edin.**

**a.** "Gündoğar ölkə" adı ilk dəfə Avropada işlənmişdir.
**b.** Yaponiyanın adı "günəşin mənbəyi" mənasını verir.
**c.** Yapon imperatorlarının hamısı hərbi titullar daşıyıb.
**d.** Yaponiyanın bayrağında mavi fon üzərində günəş təsvir olunub.

**e** **Mətnə istinad edərək cümlələri tamamlayın.**

**1.** Diplomatik sənədlərdə Yaponiya "Günəşin çıxdığı yer" adlanırdı, çünki ... .
**2.** Günəş yaponlar üçün müqəddəs simvoldur, çünki ... .

## Yazı

**4 a** **Sözləri kök və şəkilçiyə ayırın. Hansı sözdə şəkilçilərin sayı daha çoxdur? Hansı sözlər yalnız kökdən ibarətdir?**

*bacarıq, tapıntı, duyğu, barmaq, qayğıkeşlik, bulaq, şadlıq, adlandırmaq, yardım*

**b** **Aşağıdakı sözlərdə işlənən şəkilçilərin növünü (leksik, qrammatik) müəyyənləşdirin.**

*yataqxana, siniflərimiz, döyüşçülər, torpaqda, sakitlik, gücsüz, tamaşaçıya*

**c** **Verilmiş sözlərdə şəkilçiləri müəyyənləşdirin və nümunəyə əsasən izah edin.**

**Nümunə** ***yay-laq: -laq*** *– leksik şəkilçi, məkan bildirir*

*evimiz, mehribanlıq, ağaclar, küsəyən, gəlirəm, onuncu, dənizçi, məktəbdə*

**ç** **Sözlərin kökünü və başlanğıc formasını müəyyən edib cədvəlin uyğun xanalarına yazın.**

*çətinlikdən, yaşıllığın, yorğunam, utancaqdır, yeddincilərdən, dayanacaqda*

| Söz | Sözün kökü | Sözün başlanğıc forması |
|---|---|---|
| | | |

**d** **Nümunəyə əsasən sözdəki şəkilçilərin iki və ya dörd cür yazıldığını müəyyənləşdirin.**

**Nümunə** ***işlədi – iş / -la$^{2}$ / -dı$^{4}$***

*dərslərimizdən, tikiləcək, daşımışdır, işarələrinin, neftçilərə, sonuncusu*

**e** **Fərqləndirilmiş sözlərə diqqət edin. Sizcə, bu sözlərin kökü eynidir? Fikrinizi əsaslandırın.**

**1.** Ana unun hamısını **ələkdən** keçirdi.
**2.** Soyuqdan qorunmaq üçün qalın **əlcək** geyindim.

**Bunları bilməliyik** **EYNİKÖKLÜ SÖZLƏR**

Söz kökünə müxtəlif leksik şəkilçilər qoşula bilər. Bu zaman düzəltmə sözlər yaranır.
Eyni söz kökündən əmələ gələn düzəltmə sözlərə **eyniköklü sözlər** deyilir:

*Yaz* → *yazı*, *yazıçı*, *yazılı*

Qrammatik şəkilçilər artırdıqda eyni sözün müxtəlif formaları yaranır:

**Eyniköklü sözlər:**
sulu, susuz, suçu

**Eyni sözün müxtəlif formaları:**
sudan, suyun, suyumuz

**ə** **Düzgün variantı seçməklə eyniköklü sözlər sırasını tamamlayın.**

**1.** yoldaş, yolçu, ...
**a.** yoluq **b.** yoldur(maq) **c.** yolla(maq)

**2.** ovçu, ovlaq, ...
**a.** ovla(maq) **b.** ovuc **c.** ovmaq

**3.** güllü, gülçülük, ...
**a.** güldan **b.** gülüş **c.** gülünc

**4.** başçı, başlıq, ...
**a.** başmaq **b.** başlanğıc **c.** başqa

**5.** sağlam, sağal(maq), ...
**a.** sağdış **b.** sağıcı **c.** sağlıq

**5** **a** ***Bivəfa*** **və** ***vəfasız*** **sözlərini leksik və morfoloji baxımdan müqayisə edin.**

- **Sözlərin kökünü müəyyənləşdirin.**
- **Şəkilçilərin semantikasını müəyyənləşdirin.**

**Bunları bilməliyik** **SÖZÖNÜ VƏ SÖZSONU ŞƏKİLÇİLƏR**

Azərbaycan dilində şəkilçilər, adətən, ahəng qanununa uyğun olaraq sözün sonuna artırılır: *qardaş**lıq**, bilik**li**, baba**mın*** və s.
Elə şəkilçilər də var ki, Azərbaycan dilinə başqa dillərdən keçib. Sözdəki yerinə görə həmin şəkilçiləri iki qrupa bölmək olar:
- sözönü şəkilçilər: ***bi**xəbər, **ba**məzə, **na**dinc, **anti**faşist* və s.
- sözsonu şəkilçilər: *xəyal**pərvər**, xeyir**xah**, obyek**tiv**, tərəf**dar*** və s.

Alınma şəkilçilər leksik şəkilçilərdir. Onlar ahəng qanununa tabe olmur, ona görə də bir cür yazılan şəkilçilərdir: *qayğı**keş**, təmiz**kar**.*

**b** **Uyğunluğu müəyyən edin.**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **1.** əməkdar | a | b | c | **7.** sevincək | a | b | c |
| **2.** nainsaf | a | b | c | **8.** zəhmətkeş | a | b | c |
| **3.** qarmaq | a | b | c | **9.** təyyarəçi | a | b | c |
| **4.** bisavad | a | b | c | **10.** nazik | a | b | c |
| **5.** namaz | a | b | c | **11.** evcik | a | b | c |
| **6.** antivirus | a | b | c | **12.** asimmetrik | a | b | c |

**a.** Leksik mənalı sözlə sözönü şəkilçinin birləşməsindən yaranmışdır.
**b.** Leksik mənalı sözlə sözsonu şəkilçinin birləşməsindən yaranmışdır.
**c.** Söz yalnız kökdən ibarətdir.

**1 a** **Nöqtələrin yerinə uyğun gələn atalar sözü əlavə edin.**

**1.** Çox çalışdım, amma işin öhdəsindən gələ bilmədim. Axırda dostlarımı köməyə çağırdım. Bir daha əmin oldum ki, ...
**2.** Layihəyə başlayanda uğursuzluqlarım çox oldu. Ona görə də bir çoxları mənə inanmırdılar. Mən isə ruhdan düşmürdüm, həmişə onlara deyirdim: ...
**3.** Hər şeyi dəqiq planlaşdırmışdıq. Bircə bu məqamı nəzərə almamışdıq. O da planlarımızı alt-üst etdi. Düz deyirlər ki, ...

**a.** *Cücəni payızda sayarlar.*
**b.** *Yüz ölç, bir biç.*
**c.** *Tək əldən səs çıxmaz.*

**b** **Məcazi məna daşıyan atalar sözünü müəyyən edin.**

**A.** Güc birlikdədir.
**B.** Bu günün işini sabaha qoyma.
**C.** Qələm qılıncdan itidir.
**D.** Qocaya hörmət elə, sən də qocalarsan.
**E.** Dost dostu dar gündə sınayar.

**c** **Atalar sözlərindəki məcazi mənanı izah edin.**

**Nümunə** ***Atalar sözü:*** *Od olmasa, tüstü çıxmaz.*
***Məcazi mənası:*** *Əgər bir şey barədə çox söz-söhbət gəzirsə, deməli, doğrudan da, nə isə olub.*

- *Hər parıldayan qızıl deyil.*
- *İlanın ağına da lənət, qarasına da.*
- *Halva-halva deməklə ağız şirin olmaz.*
- *Dəmiri isti-isti döyərlər.*
- *Dəyirmanda doğulan siçan göy gurultusundan qorxmaz.*

**ç** **Qafiyəli sözlər işlənmiş atalar sözlərini müəyyən edin və həmin sözləri göstərin.**

**1.** Adam ağzında söz, qazan altında köz.
**2.** Birlik harda, dirilik orda!
**3.** Əl beş barmaqdır, hərəsi bir boyda.
**4.** Qorxursan pişikdən, niyə çıxırsan deşikdən?
**5.** Keçmə namərd körpüsündən, qoy aparsın sel səni.
**6.** Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.
**7.** Doğruya zaval yoxdur, çəksən də min divana.
**8.** İstəyirsən bal-çörək, al əlinə bel-kürək!

**Yadda saxla**

| | *Atalar sözləri* | *Məsəllər* |
|---|---|---|
| **Ümumi cəhətlər** | • Şifahi xalq ədəbiyyatı nümunələridir.<br>• Fikir yığcam ifadə olunur.<br>• Çox vaxt qafiyəli və ritmik olur. | |
| **Fərqli cəhətlər** | • Müdrik fikir ifadə edir.<br>• Fikir çox zaman məcazi mənada ifadə olunur. | • Hər hansı bir hadisə, rəvayət, lətifə əsasında yaranır.<br>• Müəyyən situasiyanı səciyyələndirmək üçün işlədilir. |
| **Nümunələr** | • *Ehtiyat igidin yaraşığıdır.*<br>• *Güc birlikdədir.* | • *Bişmiş toyuğun gülməyi gəlir.*<br>• *O vaxta ya xan ölər, ya eşşək.* |

**2 a Sizcə, "Dava yorğan davası imiş" ifadəsi atalar sözüdür, yoxsa məsəl? Fikrinizi əsaslandırın.**

### DAVA YORĞAN DAVASI İMİŞ

Gecələrin birində Mollanın evinin qabağında dava düşür. Molla səsə yuxudan oyanır, yorğanı çiyninə salıb çıxır ki, görsün nə olub. Kimsə elə o saat yorğanı onun çiynindən götürür. Qaranlıq olduğu üçün Molla yorğanı götürəni görmür. Ora yorğan, bura yorğan, bir də baxır ki, səs-səmir kəsildi. Savaşanlar elə bil ki Mollanı gözləyirmişlər. Küçədə heç kəs qalmır. Molla soyuqdan titrəyə-titrəyə evə qayıdır. Arvadı soruşur:

– A kişi, dava nə üstündə idi?

Molla deyir:

– Başa düşmədim. Deyəsən, dava yorğan davası imiş. Yorğanı apardılar, dava da qurtardı.

- **Məsələ uyğun situasiya düşünüb yazın və mətndə həmin ifadəni işlədin.**

**b Aşağıdakı məsəli və onunla bağlı şərhi oxuyun. Bu məsəlin yaranması ilə bağlı təxəyyülünüzə uyğun hadisə (rəvayət, lətifə və s.) düşünüb nəql edin.**

***Məsəl:*** *Tülkü tülkülüyünü sübut edincə dərisi boğazından çıxar.*
***Mənası:*** *Birisi günahsız olduğunu sübut edə bilməyəndə işlədilən ifadə.*

## Dinləmə 08

**c "Tülkü tülkülüyünü sübut edincə dərisi boğazından çıxar" lətifəsini dinləyin və öz variantınızla müqayisə edin.**

**3 a** **Mətnin başlığına diqqət edin. “O olmasın, bu olsun” filmindən bu ifadənin səsləndiyi epizodu izləyin. Sizcə, bu ifadə onu səsləndirən obrazı – Məşədi İbadı necə səciyyələndirir?**

# “TARİXİ-NADİR” KİTABINI YARISINA QƏDƏR OXUMUŞAM...

## “Tarixi-Nadir” – bədii ironiyadan tarixi gerçəkliyə



Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” operettası əsasında çəkilmiş eyniadlı filmdə əsərin qəhrəmanı Məşədi İbad deyir: “Mən “Tarixi-Nadir” kitabını yarısına qədər oxumuşam, ona görə **hikmət** elmindən yaxşı biliyim vardır”. Başqa bir epizodda isə belə deyir: “Mənim özüm “Tarixi-Nadir” kitabını yarısına qədər oxumuşam, amma sənin dilini anlamıram. Bu bisavadlar neyləsin?”

Əslində, bu ifadənin arxasında daha dərin məna vardır. XX əsrin əvvəllərində Azərbaycanda “Tarixi-Nadir” kitabı tədris materialı kimi istifadə olunmuş, onu oxuyub başa vurmaq “savadlılıq əlaməti” sayılmışdır. Məşədi İbad özünü savadlı kimi göstərməyə çalışsa da, əslində, bu **iddiası** gülüş doğurur. Bu yumor Məşədi İbadın özünü ziyalı kimi göstərmək istəyini ifşa edir. Üzeyir bəy bu cümlədən istifadə etməklə həm köhnə təhsil formasına istehza edir, həm də yeni təhsilin gəlişi ilə cəmiyyətdəki dəyişikliyə işarə edir.

O dövrdən “Mən “Tarixi-Nadir” kitabını yarısına qədər oxumuşam” cümləsi məşhur zərbi-məsələ çevrilmişdir. Bir adam yersiz olaraq çox qəliz danışdıqda ona müraciətlə bu ifadəni işlədirlər.

Bəs, görəsən, Məşədi İbadın adını çəkdiyi bu “Tarixi-Nadir” adlı kitab doğrudanmı mövcud idi və onun əhəmiyyəti nədən ibarət idi?



## “Tarixi-Nadir” tarixi mənbə kimi

“Tarixi-Nadir”, əslində, ciddi və **sanballı** bir tarixi mənbədir. Bu əsər Əfşarlar dövlətinin hökmdarı Nadirin (1688–1747) hakimiyyət dövrünü, hərbi **yürüşlərini** və o zamanın siyasi mənzərəsini əks etdirir. Kitab Nadir şahın şəxsi katibi Mirzə Məhəmməd Mehdi xan Astrabadi tərəfindən fars dilində yazılmış və 1851-ci ildə çap olunmuşdur.

Əsərin tam adı "Nadirin dünya fəthlərinin tarixi"dir. Lakin 147 səhifəlik bu əsərin dili və üslubu mürəkkəb olduğu üçün onu başa düşmək savad və hazırlıq tələb edirdi. Məhz buna görə də Məşədi İbad kimi bir savadsız **tacirin** bu əsəri oxuduğunu iddia etməsi gülüş doğururdu.

### Nadir şah Əfşar – Şərqin Napoleonu

"Tarixi-Nadir" əsərinin mərkəzində duran şəxsiyyət – Nadir şah Əfşar sadəcə bir hökmdar deyil, həm də hərbi strategiya və dövlət quruculuğu baxımından dünya tarixinin mühüm fiqurlarından biridir. O, oğuzların Əfşar **boyundan** idi. Nadir şah XVIII əsrdə Əfşarlar dövlətinin əsasını qoyan böyük **sərkərdə** və dövlət xadimi olmuşdur. O, Səfəvilərin son **çağlarında** dağılmaqda olan dövləti yenidən bərpa etmiş, ölkə torpaqlarını iki dəfə genişləndirmiş, qüdrətli bir imperiya yaratmışdır. Nadirin adı tarixə "Şərqin Napoleonu" və "İkinci İskəndər" kimi düşmüşdür.



Əfşarlar Oğuz türklərinin 24 boyundan biridir. Bu boyun adı bir çox tarixi mənbələrdə Əfşar, Avşar, Ovşar kimi qeyd olunub. Əfşarlar Orta Asiyada, Sırdərya bölgəsində yaşamışdılar. Sonradan Azərbaycana, bir qismi isə Anadoluya gəlmiş, eləcə də İrana, İraqa və Əfqanıstana yayılmışlar.

1688-ci ildə Xorasan vilayətində yoxsul bir ailədə doğulan Nadir uşaqlıqdan döyüşkənliyi ilə seçilmişdir. O, həyatı boyunca yüzdən çox döyüşdə iştirak etmiş, müasir artilleriyanın əsasını qoymuş, taktiki yeniliklər tətbiq etmiş, Hindistan və Orta Asiyada geniş əraziləri fəth etmişdi. Təsadüfi deyil ki, onun şəxsiyyəti yalnız tarixçilərin deyil, həm də **ədiblərin** və oxucuların maraq dairəsində olmuşdur.

**Söz mücrüsü**

• hikmət • iddia • sanballı
• yürüş • tacir • boy
• sərkərdə • çağ • ədib

## Söz ehtiyatı

**b** **Cümlələri oxuyun. Kontekstdən çıxış edərək "boy" sözünün mənalarını izah edin.**

**1.** Onun boyu yaşına görə çox hündür idi.
**2.** "Kitabi-Dədə Qorqud"un boylarından biri Bamsı Beyrək haqqındadır.
**3.** Dastanlara görə, Oğuz xanın altı oğlu və onların hər birinin 4 oğlundan meydana gələn 24 boyun hər birinin öz adı vardır.

## Nə anladın?

**c** **Mətnə əsasən suallara cavab verin.**

**1.** "Tarixi-Nadir" kitabını yarısına kimi oxumuşam" ifadəsi ilk dəfə hansı əsərdə işlənib?
**2.** Bu ifadə onu işlədən obrazı necə səciyyələndirir?
**3.** "Tarixi-Nadir" kitabında nədən danışılır?
**4.** Nadir hansı dövlətin hökmdarı olub?
**5.** Müasir dövrdə bu məsəl hansı situasiyada işlənir?

**ç** **Mətndə hansı tarixi faktlar yer alıb?**

## Düşün və cavab ver

**d** **Mətni yazmaqda müəllifin məqsədini müəyyən edin və seçiminizi əsaslandırın.**

**a.** Nadir şahı tanıtmaq
**b.** məşhur məsəlin yaranma tarixi haqqında məlumat vermək
**c.** Əfşar imperiyası haqqında məlumat vermək
**d.** "Tarixi-Nadir" kitabının xüsusiyyətlərini göstərmək

**e** **Sizcə, nə üçün Nadir şah məhz Makedoniyalı İskəndər və Napoleonla müqayisə olunur?**

**ə** **Məşədi İbadın "Tarixi-Nadir" kitabını yarısına qədər oxuması ilə bağlı iddiası niyə gülüş doğurur?**

**f** **Aşağıdakı cümlələri hansı abzaslara artırmaq olar?**

***1.*** *Bu böyük sərkərdəni Çingiz xan və Əmir Teymur kimi böyük sərkərdələrlə müqayisə edənlər də var.*
***2.*** *Görkəmli Azərbaycan yazıçısı Nəriman Nərimanovun "Nadir şah" pyesi bu sərkərdəyə həsr olunmuşdur.*
***3.*** *"Tarixi-Nadir" kitabını yarısına qədər oxumuşam" ifadəsində onu deyənin özünə qarşı ironiyası da var.*

**g** **Aşağıdakı fikirləri mətnin hansı yarımbaşlıqlarına aid etmək olar?**

**1.** Bu kitab Nadir şahın 11 illik şahlıq dövründən bəhs edir.
**2.** Nadir şahın ölümündən sonra Əfşarlar dövləti süqut etdi.
**3.** Üzeyir Hacıbəyli bu məşhur ifadə ilə heç də əsərin həcmini nəzərdə tutmurdu.

## Yazı

**4 a** **Altından xətt çəkilmiş hansı sözün yazılışı və tələffüzü fərqlənir?**

**1.** Qəzetdən maraqlı bir hekayə oxudum.
**2.** Telefondan çox istifadə etmək gözü yorur.

**Bunları bilməliyik** ÇIXIŞLIQ HAL ŞƏKİLÇİSİNİN DEYİLİŞİ VƏ YAZILIŞI

*M* və *n* samitləri ilə bitən sözlərə artırılan *-dan*$^2$ çıxışlıq hal şəkilçisi *[-nan*$^2$*]* kimi tələffüz olunur: *stadiondan [stadiyonnan], üzümdən [üzümnən]*

**b** **[-nan$^2$] hansı cümlələrdə çıxışlıq hal şəkilçisinin tələffüz formasıdır?**

**1.** Oyunnan sonra uşaqlar evə yollandılar.
**2.** Tərlannan ünvanı soruş.
**3.** Qardaşımnan bacım eyni universitetdə oxuyurlar.
**4.** Uşaq atasının əlinnən möhkəm tutmuşdu.
**5.** Kəndimiz dağlarnan əhatə olunub.

**c** **Transkripsiyada verilmiş sözlərdə şəkilçilər hansı funksiyanı yerinə yetirir?**

**1.** [Elmnən] ucalır həyatda insan.
**2.** [Elmnən] böyük güc yoxdur.
**3.** [Elmnən] təcrübə sərkərdə və əsgər kimidir.

**Bunları bilməliyik** *-LA*$^2$ ŞƏKİLÇİSİNİN FUNKSİYALARI

*-la*$^2$ şəkilçisi sözlərə qoşularaq müxtəlif funksiyalar yerinə yetirir:
**1.** *İlə* qoşması və bağlayıcısının ixtisar forması kimi çıxış edir:
*Hüseynlə danışdı (qoşma).*
*Müəllimlə şagirdlər gəzintiyə getdilər (bağlayıcı).*
**2.** Əsasən mücərrəd isimlərə qoşularaq zərf düzəldir: *Ehtiyatla sürdü. Fərəhlə baxdım.*
Hər bir halda *-la*$^2$ şəkilçisi [-nan$^2$] şəklində tələffüz olunur: *qatarla [qatarnan], inadla [inatnan].*

**ç** **Altından xətt çəkilmiş hansı sözdə *-la*$^2$ şəkilçisinin funksiyası fərqlidir?**

**a.** Hamı təəccüblə ətrafa baxırdı.
**b.** Qatar sürətlə ötüb keçdi.
**c.** Çayı konfetlə içəcəksən?
**d.** Mətni aramla oxumaq lazımdır.

**d** **Uyğunluğu müəyyən edin.**

**1.** zərf düzəldən şəkilçi
**2.** *ilə* bağlayıcısının ixtisar forması
**3.** *ilə* qoşmasının ixtisar forması

**a.** Bu məsələni ailəm**lə** müzakirə etmək istəyirəm.
**b.** Siz hər işə ürək**lə** yanaşırsınız.
**c.** Günel**lə** Banu birgə layihə hazırlayırlar.

**Bunları bilməliyik** SAİTLƏ BİTƏN SÖZLƏRDƏ *-LA²* ŞƏKİLÇİSİNİN DEYİLİŞİ VƏ YAZILIŞI

*İlə* qoşması və bağlayıcısı saitlə bitən sözlərə qoşulduqda ayrı yazılır və [-ynan], [-ynən] kimi tələffüz olunur: *təyyarə ilə [təyyarə**ynən**], səliqə ilə [səliqə**ynən**], atası ilə [atası**ynan**].*
*Etibarilə, məqsədilə, münasibətilə, vasitəsilə, vaxtilə* sözləri bitişik yazılır.

**e** **Fərqləndirilmiş sözləri düzgün yazın. Onların tələffüzü ilə yazılışı arasındakı fərqi izah edin.**

**1.** Müğənni konsertdə **fanatlarıynan** şəkil çəkdirdi.
**2.** O, **qardaşıynan** məktəbə gedəcək.
**3.** İnternet **vasitəsiynən** dünyanın hər yerindən məlumat almaq mümkündür.
**4.** Baba **nəvəsiynən** bağda gəzirdi.
**5.** Mən **vaxtıynan** burada yaşamışam.

**ə** **Hansı cümlələrdə fərqləndirilmiş söz səhv yazılıb?**
**Eyni cür yazılmış sözlərin leksik və qrammatik mənaları arasındakı fərqi izah edin.**

**1.** Onun **məqsədi ilə** fəaliyyəti arasında böyük fərq var.
**2.** Texniki avadanlığı yeniləmək **məqsədi ilə** məktəbə əlavə vəsait ayrıldı.

**1. Vaxtı ilə** bu ərazidə köhnə evlər vardı.
**2.** Bakı **vaxtı ilə** indi saat neçədir?

**1.** Mən onun işə olan **münasibəti ilə** razı deyiləm.
**2.** Bayram **münasibəti ilə** hamını təbrik edərsən.

# Tarixi ifadələr

**1 a Aşağıdakı dialoqu oxuyun və fərqləndirilmiş ifadə ilə bağlı suallara cavab verin.**

*– Kamal əmi ilə söhbət etmək çox maraqlıdır. Hər şeyi bilir, nədən deyirsən, oradan xəbər verir.*
*– Əlbəttə, o, köhnə kişilərdəndir,* ***Şah Abbası taxtda görüb, Nadiri qundaqda.***

- **Bu ifadəyə görə Kamal əmi haqqında nə demək olar? Cavabınızı əsaslandırın.**

**a.** Keçmişdə hökmdar olub.
**b.** Uzun ömür yaşamış təcrübəli adamdır.
**c.** Maraqlı həmsöhbətdir.
**d.** Yüksək vəzifələrdə işləyib.

**Sözlərin izahı**

**Taxt** – hökmdarların oturduqları zəngin bəzədilmiş kürsü, hökmranlıq simvolu.
**Qundaq** – körpə uşaqları bələmək üçün sarğı ləvazimatı, bələk.

**Bu, maraqlıdır**

**I Şah Abbas** – Azərbaycan hökmdarı, Səfəvilər dövlətinin 5-ci şahı.

**b Qruplarla iş. Mətnləri oxuyun və məlumatları təqdim edin.**

- Mətnlə bağlı sualları cavablandırın və mətni tam anladığınıza əmin olun.
- Təqdimat zamanı həmin sualları dinləyicilərə ünvanlayın.
- Təqdimatınızda diqqəti ilk növbədə ifadənin tarixi köklərinə yönəldin.
- Deyimin müasir mənasını izah edin və uyğun situasiya düşünüb kontekstdə işlədin.
- Bir-birinizin təqdimatına münasibət bildirin.

**I qrup**

## QILINC HƏMİN QILINCDIR, QOL O QOL DEYİL



İfadə böyük Azərbaycan hökmdarı və şairi Şah İsmayıl Xətai ilə bağlı bir rəvayətdən qaynaqlanır.

1514-cü ildə Osmanlı ordusu Azərbaycana hücum edir. Cənubi Azərbaycanda, Çaldıran düzündə qoşunlar üz-üzə gəlirlər. Üç gün çəkən bu döyüşdə Şah İsmayılın qoşunu Sultan Səlimin sayca çox olan və toplardan istifadə edən qoşununa məğlub olur.

Xalq arasında Şah İsmayıla sevgi o qədər böyük idi ki, Çaldıran döyüşündəki məğlubiyyət onun nüfuzuna xələl gətirmədi. Əksinə, bu döyüşlə bağlı xalq rəvayətlərində Şah İsmayılın igidliyi və mənəvi zənginliyi tərənnüm olunur.

Rəvayətlərdən birində deyilir ki, Çaldıran döyüşündə Şah İsmayılın həyat yoldaşı Taclı bəyim də iştirak edib və düşmənə əsir düşüb. (Əslində, bu, tarixi həqiqətə uyğundur.) Bundan xəbər tutan 27 yaşlı şah dərin kədərlə deyib:

– Böyük xəta işlətdim. Gərək Taclı bəyimi döyüşə buraxmayaydım.

Deyilənə görə, Şah İsmayıl məhz həmin sözlərdən sonra “Xətai” təxəllüsü ilə də tanınıb.

Başqa bir rəvayətdə isə Şah İsmayılın gücündən və şücaətindən bəhs olunur. Şah Çaldıran döyüşündə atını düşmən düşərgəsinə çapır və güclü qılınc zərbəsi ilə bir topun lüləsini iki yerə bölür. Savaşdan sonra bundan xəbər tutan Sultan Səlim ismarış göndərir ki, İsmayıl həmin qılıncı ona göndərsin. Şah İsmayıl qılıncını sultana göndərir. Osmanlı hökmdarı saray əyanlarını yığır və onların gözü qarşısında qılıncla topa zərbə vurur. Heç nə hasil olmur. Şah İsmayıla məktub yazırlar ki, o, sultanı aldadıb, həmin qılıncı göndərməyib, çünki bu qılınc dəmiri kəsmədi. Az sonra Şah İsmayıldan cavab gəlir: “Qılınc həmin qılıncdır, qol o qol deyil”.

**c** **Mətnə əsasən Şah İsmayılın doğum tarixini müəyyənləşdirin.**

**ç** **Xəta nə deməkdir? Sizcə, nə üçün Şah İsmayıl bu sözü təxəllüs kimi seçib? Fikirlərdən birini seçin və əsaslandırın.**

**1.** Taclı bəyimi döyüşə buraxmasını həyatında ən böyük “xəta” hesab edib.
**2.** Təvazökarlıq göstərib – böyük hökmdar olmasına baxmayaraq, öz səhvini etiraf etməkdən çəkinməyib.
**3.** “Xətai” təxəllüsünün Çaldıran döyüşü ilə əlaqəsi yoxdur; Şah İsmayıl bu təxəllüsü hökmdar kimi deyil, şair kimi qəbul etmişdir.

**d** **Sizcə, Şah İsmayılın cavabı (“Qılınc həmin qılıncdır, qol o qol deyil”) hansı mənanı daşıyır?**

**e** **“Qılınc həmin qılıncdır, qol o qol deyil” ifadəsi hansı məqamda işlənə bilər?**

**a.** asanlıqla uğur qazandıqda
**b.** kömək etmək istədikdə
**c.** çətinliyə qalib gəldikdə
**d.** işin öhdəsindən gələ bilmədikdə

**II qrup**

## SƏN DƏ, BRUT?

Tarixin yaddaşında Brut adlı iki şəxs qalıb. Onlardan birincisi – Lusius Brut Roma monarxını devirərək ölkədə respublika üsuli-idarəsinin əsasını qoyub. Digəri isə – Mark Brut Roma hökmdarı Qay Yuli Sezara qarşı sui-qəsddə iştirakına görə məşhurlaşıb.

Ömrünün son ilində Yuli Sezar özünü həmişəlik diktator elan edir. Bunu görən respublika tərəfdarları diktatora qarşı sui-qəsd təşkil edirlər. Sezarın ən çox etibar etdiyi dostu Mark Brut da onlara qoşulur. Miladdan öncə 44-cü il martın 15-də senatın iclas salonunda sui-qəsdçilər 56 yaşlı imperatora hücum çəkirlər.

Şekspirin “Yuli Sezar” pyesində ölüm ayağında olan Sezar özünə yaxın saydığı romalı senator Mark Brutu da sui-qəsdçilər arasında görüb dəhşət içində qışqırır: “Sən də, Brut?” Pyes tamaşaya qoyulduqdan sonra hamı bu səhnəni tarixi həqiqət kimi qəbul etdi. O vaxtdan etimad bəslədiyimiz insanlardan, dostlarımızdan xəyanət görəndə Sezarın bu sözlərini təkrarlayırıq.



Lakin tarixçilər qədim mənbələrin heç birində Şekspirin qələmə aldığı rəvayətin dəqiq təsdiqini tapmayıblar. Məsələn, Plutarx Sezarın həyatının son anını belə təsvir edir:

“Bütün sui-qəsdçilər... qılınclarını siyirib Sezarı əhatəyə aldılar: üzünü hansı tərəfə çevirirdisə, o, ovçuların mühasirəsinə düşmüş vəhşi heyvan kimi, sifətinə və gözlərinə yağan qılınc zərbələrinə tuş gəlirdi... Hücum çəkənlərdən qurtulmaq üçün Sezar çabalayır və qışqırırdı, amma Brutun da əlində silah görəndə dinməzcə toqasını (donabənzər Roma geyimi) başına çəkdi və daha müqavimət göstərmədi”.

Beləliklə, istər tarixi fakt olsun, istərsə də ədəbi fakt, amma “Sən də, Brut?” ifadəsi bir çox dillərdə zərbi-məsəl kimi geniş işlənir.

**ə Sezarın sui-qəsd qurbanı olmasının əsas səbəbi nə idi?**

**a.** siyasi motivlər **b.** şəxsi motivlər **c.** dostlarının xəyanəti

**f Sui-qəsddə Brutun iştirakı Sezar üçün niyə bu qədər sarsıdıcı oldu?**

**g Sizcə, tarixi dəqiqlik baxımından Plutarxın, yoxsa Şekspirin versiyası daha etibarlıdır?**

III qrup

## XANDAN GƏLMİŞ NÖKƏR

“Nökər” sözünün mənası, yəqin ki, hamıya məlumdur: “ağasına xidmət edən qulluqçu, ev xidmətçisi (oğlan)”. Lakin dilimizdə belə bir məsəl var: “Xandan gəlmiş nökərəm, dinmə, dişlərini tökərəm”. Bu ifadədən görünür ki, “xandan gəlmiş nökər” – arxasında güclü şəxs dayanan, qeyri-məhdud səlahiyyətlərə malik şəxsdir. Məsəlin tərkibində işlənən “nökər” sözü müasir mənada deyil, tarixən tam başqa mənada çıxış edir. İfadə səlcuq və monqol hərbi ənənələri ilə bağlı meydana gəlmişdir.

Monqol sözü olan “nökər”, əslində, “dost” deməkdir. Könüllü surətdə hərbi xidmətə daxil olan nökər sərbəst və müstəqil hərbçi kimi geniş səlahiyyətlərə malik idi. Hətta əsil-nəcabətli ailələrə mənsub gənclər belə nökər olmağa çox həvəslə razılıq verirdilər. Nökərlər xanların və sərkərdələrin ən yaxın adamları, silahdaşları idilər. (1)

XI əsrdə Səlcuq qvardiyasında seçmə gənclərdən ibarət hərbi xidmət dəstəsi yalnız nökərlərdən təşkil olunurdu. Qaraqoyunlu dövlətində də nökərlər hərbçilər idi. **(2)**

Müəyyən dövrdə nökərlər daha çox çapar, qasid, elçi vəzifəsini də yerinə yetirirdilər. Elçilik edən nökər öz ağasına – xana və ya sərkərdəyə güvənərək yerli bəylə qarşılaşanda özünü çox təkəbbürlü aparır, ona yuxarıdan aşağı baxırdı. Bəzən isə səlahiyyətlərindən sui-istifadə edib dinc əhalini incidirdi. **(3)**



Sonrakı dövrlərdə tədricən nökərlər ağalarının əmri ilə hərbi xidmətdən əlavə digər işlərlə də məşğul olmağa başlayırlar: ovda köməkçi olur, bəzi ev işləri ilə məşğul olur, təsərrüfatda çalışırdılar. **(4)**

**ğ** **Mətnə görə yanlış fikirdir:**

**a.** “Nökər” sözünün ilkin mənası “dost” deməkdir.
**b.** Söz hərbi ənənələrlə bağlı meydana gəlmişdir.
**c.** Nökərlər yalnız adi ailələrdən olan gənclərdən seçilirdi.
**d.** Söz, arxasında güclü bir şəxs dayanan adamı ifadə edir.

**h** **Aşağıdakı cümlələr hansı abzasların sonuna uyğun gəlir?**

**a.** Bu da Orta əsrlərdə Azərbaycanda monqol-səlcuq hərbi ənənələrinin mövcud olduğunu göstərir.
**b.** Beləliklə, “nökər” sözünün mənası getdikcə dəyişdi və indiki anlamda işlənməyə başladı.
**c.** Onların hörməti, nüfuzu böyük idi və kiçik hərbi bölük komandirləri də onlarla hesablaşmağa məcbur olurdular.
**d.** Görünür, “Xandan gəlmiş nökərəm...” məsəli də nökərlərin məhz bu davranışı ilə bağlı meydana çıxmışdır.

**IV qrup**

## KARFAGEN MƏHV EDİLMƏLİDİR

Miladdan öncə III-II əsrlərdə Roma ilə Karfagen arasında Aralıq dənizində hökmranlıq uğrunda müharibə gedirdi. Romalıların pun adlandırdıqları finikiyalılar qədimdən bəri ticarətdə çox mahir idilər. Finikiyada ən iri şəhər-dövlətlərdən biri olan Karfagen isə iqtisadi baxımdan Romanın əsas rəqibinə çevrilmişdi.

Tarixin yaddaşında Pun müharibələri kimi qalmış bu müharibə Miladdan öncə 264-cü ildə başlamışdır. Tarixçilər onu üç mərhələyə bölürlər: I, II və III Pun müharibələri.

I Pun müharibəsi romalıların müəyyən üstünlüyü ilə bitdi. Lakin sonradan – II Pun müharibəsi dövründə tarixin səhnəsinə Hannibal kimi yenilməz bir sərkərdə çıxdı. Onun başçılığı ilə Karfagen ordusu bir neçə döyüşdə romalılara qalib gəldi.



Bu dövrdə Roma Senatında ən fəal siyasi xadimlərdən biri Mark Katon idi. Tarixçilər onu eyni adı daşıyan nəticəsindən fərqləndirmək üçün "Böyük Katon" adlandırmışlar. Qədim yunan tarixçisi Plutarxın "Böyük Katonun həyatı" əsərində qeyd olunur ki, senator Katon ölkə üçün təhlükə mənbəyi saydığı Karfagenin barışmaz düşməni olmuşdur. O, senatda mövzusundan asılı olmayaraq bütün nitqlərini "Bundan əlavə, mən fikirləşirəm ki, Karfagen mütləq məhv edilməlidir" ifadəsi ilə bitirirmiş.

Nəhayət, m.ö. 146-cı ildə Roma həlledici qələbə qazandı; yarım milyonluq Karfagen şəhəri tamamilə dağıdıldı, əhalinin sağ qalan hissəsi kölə kimi satıldı. Şəhərin yerləşdiyi əraziyə duz səpildi ki, burada heç vaxt həyat dirçəlməsin. Lakin Romanın bu təntənəsini görmək Böyük Katona qismət olmadı: həmin hadisədən üç il əvvəl 85 yaşlı siyasi xadim dünyasını dəyişmişdi.

**x** **Mətndə qeyd edilən faktlara əsaslanaraq sübut edin ki, Pun müharibələri 100 ildən çox davam etmişdir.**

**ı** **Nə üçün Romanın Karfagenlə müharibəsi "Pun müharibələri" adlanır?**

**i** **Mark Katonun "Böyük" ləqəbi qazanması nə ilə bağlı idi?**

**j** **Mətnə əsasən Mark Katonun doğum tarixini müəyyənləşdirin.**

V qrup

## DOQQUZLUQ GƏLMƏK

Qədimdə türk xalqlarında 9 ən uğurlu, xeyirli rəqəm hesab olunurdu. Odur ki məşhur "doqquzlama" adəti geniş yayılmışdı. Həmin adətə görə, hörmətli şəxsə hədiyyə verərkən hər əşyadan 9 ədəd olması zəruri hesab edilirdi.

Rəvayətə görə, Əmir Teymurun Azərbaycana hücumu zamanı Şirvanşah İbrahim ona itaətkarlığını və sədaqətini nümayiş etdirmək üçün qiymətli hədiyyələrlə əmiri qarşılamağa çıxır. Teymurun düşərgəsinə gələn İbrahim hədiyyələrini ona təqdim edir: Qarabağ cinsindən olan doqquz at, daş-qaşla bəzədilmiş doqquz xəncər, gözəllikdə tayı-bərabəri olmayan doqquz kəniz və ... səkkiz qul. Qulların sayının əskik olduğunu görən Əmir Teymurun qanı qaralır, bunu hörmətsizlik kimi qəbul edir. Bu zaman İbrahim onun qarşısında təzim edib deyir:

– Böyük hökmdar, doqquzuncu qul mən özüməm.

Bu rəvayət Şirvanşah İbrahimin böyük diplomat olmasından xəbər verməklə yanaşı, doqquzlama adətinin qədim türk xalqları üçün nə qədər vacib olduğunu nümayiş etdirir.



XV əsrdə Azərbaycana gəlmiş İtaliya diplomatı Katerino Zeno öz ölkəsinə göndərdiyi məktubda Uzun Həsənin sarayında şahidi olduğu bir səhnə haqqında belə yazmışdı: "İyulun 12-də yazdığım kimi, bu şöhrətli hökmdarın yanına Tatar xanının səfiri gəlmişdi. Hədiyyə olaraq hökmdara doqquz qılınc, doqquz yəhər və xəz (dələ, sincab, samur, tülkü... dərisi) gətirmişdi...".

Zaman keçdikcə bu adət unudulmağa başladı. Bir çoxları hədiyyə göndərərkən onun sayına əhəmiyyət vermirdilər. Beləlari haqqında "doqquzluq gəlir" ifadəsini işlədirdilər.

**k** **Mətndə müəllif doqquzlama adəti ilə bağlı hansı mənbələrə istinad edir? Bunlardan hansı daha etibarlıdır?**

**q** **Uyğunluğu müəyyən edin.**

**1.** Sən də, Brut?
**2.** Xandan gəlmiş nökərəm...
**3.** Qılınc həmin qılıncdır, qol o qol deyil.
**4.** Karfagen məhv edilməlidir.
**5.** Doqquzluq gəlir.

**a.** Birisi hər hansı alətlə işləyə bilmədikdə və günahı alətdə gördükdə istehza ilə işlədilən ifadə.
**b.** Kimisə aldatmaq, yalan danışmaq, kələk gəlmək, hiylə işlətmək.
**c.** Yaxın dostun xəyanəti ilə qarşılaşdıqda işlədilən ifadə
**ç.** Birisi söhbətin mövzusundan asılı olmayaraq, daim öz düşündüyünü dilə gətirəndə işlədilən ifadə.
**d.** Kiməsə arxalanıb gücsüzləri incidən, onlara yuxarıdan aşağı baxanlar haqqında işlədilən ifadə.

**l** **Müzakirə. Tarixi deyimləri öyrənmək bizə nə verir?**

## Ümumiləşdirici təkrar

**1** **Eyniköklü sözləri cədvəl üzrə qruplaşdırın.**

*1. yağış* *2. yağsız* *3. yağıntı*
*4. yağlı* *5. yağışlı* *6. yağla(maq)*

| *Yağ (isim)* | *Yağ (feil)* |
|---|---|
| | |

**2** **Sözlərin tələffüzündəki [-nan²] hissəciyi ilə bağlı uyğunluğu müəyyən edin.**

1. *ilə* qoşmasının tələffüz forması
2. çıxışlıq hal şəkilçisinin tələffüz forması
3. *ilə* bağlayıcısının tələffüz forması
4. zərfin tələffüz forması

a. Kitabxanaçı [kitaplarnan] jurnalları rəflərə qoydu.
b. Şagirdlər dərsi [müəllimnən] müzakirə etdilər.
c. Bu yolu [dəfələrnən] getmişik.
ç. Yaxınlıqdakı [dükannan] bazarlıq edərik.

**3** **Fərqləndirilmiş hansı sözlərdə şəkilçinin yazılışı və tələffüzü eynidir? Səbəbini izah edin.**

1. Bu məsəl hansı **rəvayətdən** yaranıb?
2. **Romandan** bir hissəni oxu.
3. Toxun **acdan** nə xəbəri? *(Atalar sözü)*
4. Esseni yazanda atalar **sözlərindən** istifadə edərsən.

**4** **Transkripsiyada verilmiş sözləri düzgün yazın.**

1. [Dostumnan] mən bilet alıb teatra getdik.
2. Uşaqlar təzə [topnan] futbol oynayırdılar.
3. İndi mənə [diqqətnən] qulaq as.
4. Hamı onun [qəhrəmanlığınnan] danışır.

**5** **Verilmiş cümlələrdə səhv yazılan sözləri seçin və qaydalara əsasən izah edin.**

1. O öz zəhmətiynən uğur qazanmışdı.
2. Bu tədbir ətraf mühiti qorumaq məqsədi ilə təşkil olunub.
3. Zəfər Günü münasibətiynən şəhərdə parad olacaq.
4. Onlar köhnə qonşularıynan görüşdülər.
5. Səidəynən Günay bütün dərslərə birlikdə hazırlaşırlar.

# İZAHLI SÖZLÜK

İxtisarlar: *is. – isim; sif. – sifət; z. – zərf; f. – feil; fr. – frazeoloji birləşmə*

**axar** *sif.* – daim axan.
**axın-axın** *z.* – sel kimi bir-birinin ardınca, arasıkəsilməz axın kimi; aramsız.
**animasiya** *is.* – şəkilləri hərəkətə gətirməklə çəkilən film.
**arxipelaq** *is.* – bir-birinə yaxın adalar qrupu.
**azarkeş** *is.* – idman yarışlarında qarşı tərəflərdən birinə rəğbət göstərən, onu alqışlamaqla dəstəkləyən şəxs.
**basqın** *is.* – ani hücum; qəfil, gözlənilməz həmlə.
**bəxş etmək** *f.* – bağışlamaq, vermək.
**bələdləmək** *f.* – bir yeri, yolu və s.-ni öyrənmək, tanış olmaq, nişanlamaq, gözaltı eləmək.
**bərq vurmaq** *fr.* – parlamaq, par-par parıldamaq, işıldamaq.
**boy atmaq** *fr.* – böyümək, inkişaf etmək.
**boy** *is.* – qəbilə, nəsil, "birləşmə" deməkdir.
**buzlaq** *is.* – çoxlu buz yığılan yer.
**cansıxıcı** *sif.* – darıxdırıcı, bezdirici, üzücü, çox maraqsız.
**cürət etmək** *f.* – cəsarət göstərmək, qorxmamaq, çəkinməmək.
**cüzi** *z.* – az, azacıq, kiçik.
**çağ** *is.* – vaxt, zaman.
**çardaq** *is.* – Günəşdən, yağışdan qorunmaq üçün dirəklər üzərində qurulmuş üstüörtülü kölgəlik; talvar.
**daşı ətəyindən tökmək** *fr.* – fikrindən daşınmaq, inadından dönmək, tərsliyindən əl çəkmək.
**dərc etmək** *f.* – qəzetdə, ya məcmuədə çap etmək.
**ekosistem** *is.* – bir-biri ilə və ətraf mühitlə sıx qarşılıqlı əlaqədə olan növlərin əmələ gətirdiyi davamlı özünütənzimləmə sistemi.
**ekoturizm** *is.* – ətraf mühitə minimum təsir göstərən, təbiətin və yerli mədəniyyətin qorunmasına töhfə verən turizm növü.
**emal** *is.* – hazırlama, düzəltmə.
**əcdad** *is.* – ata-babalar, ulu babalar.
**ədib** *is.* – yazıçı, nasir.
**əqidə** *is.* – insanın həyat və cəmiyyət haqqında düşüncə və inamı.
**əldə etmək** *fr.* – tapmaq, nail olmaq.
**əlyazma** *is.* – əl ilə yazılmış mətn, kitab və s.; əlyazısı.
**ərköyün** *sif.* – həddindən artıq əzizlənmək nəticəsində xudbin böyümüş.
**əsarət** *is.* – əsirlik; məcazi mənada: qəfəs, zindan, dustaqlıq.
**ətraf mühit** – canlı orqanizmlərin yaşadığı və fəaliyyət göstərdiyi şərait, onları əhatə edən xarici aləm.
**fanat** *is.* – müəyyən sahəyə (sənət, idman, musiqi və s.), ideyaya və ya bu ideyanın daşıyıcısına böyük maraq və bağlılıq nümayiş etdirən şəxs.
**felyeton** *is.* – nöqsanları, çirkin əməlləri istehza edib pisləyən qəzet və ya jurnal məqaləsi.
**fürsət vermək** *fr.* – şərait yaratmaq, imkan vermək.
**güzəşt** *is.* – alış-verişdə qiyməti aşağı salma.
**heyrətləndirmək** *f.* – heyrət doğurmaq, heyrətə salmaq, təəccübləndirmək.
**həkk olunmaq** *f.* – yaddaşlarda həmişəlik qalmaq, unudulmamaq.
**həsəd aparmaq** *fr.* – qibtə etmək, paxıllıq etmək.
**həyat sürmək** *fr.* – yaşamaq.
**hikmət** *is.* – keçmişdə fəlsəfəyə, təbiət elmlərinə, xüsusən fizikaya verilən ad.

**hüquqi** *sif.* – hüquqa əsaslanan, hüquq normalarına uyğun olan.
**iddia** *is.* – 1) irəli sürülmüş fikir; 2) məhkəmə qarşısında qaldırılmış tələb.
**ideologiya** *is.* – həqiqətə münasibəti ifadə edən baxışlar və düşüncələr sistemi; siyasi prosesin vacib komponentlərindən biri.
**iftar** *is.* – oruc açma, oruc açdıqda yeyilən yemək.
**iqtisadi** *sif.* – iqtisadiyyatla bağlı olan, təsərrüfata aid olan.
**ilahə** *is.* – antik mifologiyada və bəzi dinlərdə qadın cinsli Tanrı.
**irs** *is.* – nəsildən nəslə ötürülən maddi və mənəvi dəyərlər.
**istehlakçı** *is.* – hər hansı istehsalatın məhsulundan istifadə edən, bu məhsulatı işlədən şəxs və ya təşkilat.
**kəsək** *is.* – quruyub bərkimiş palçıq kütləsi.
**kontuziya** *is.* – mərmi partlayışı, uçqun və s. nəticəsində insan orqanizmində baş verən dəyişiklik; halsızlıq, şikəstlik.
**qalxan** *is.* – qədimdə döyüş zamanı qılınc və s. zərbəsindən qorunmaq üçün əldə tutulan dairə və ya düzbucaq şəkilli sipər.
**qan ağlamaq** *fr.* – zülmə məruz qalmaq, əzab çəkmək.
**qapılmaq** *f.* – bir şeyə həddindən artıq aludə olmaq, bütün fikrini, duyğularını tamamilə bir şeyə həsr etmək.
**qarət** *is.* – var-yoxunu zorla əlindən alma; talan.
**qənaət etmək** *f.* – pulu, malı az-az sərf etmək.
**qənaət** *is.* – bir şeyin ehtiyatla, sərfəli işlənməsi, israf edilməməsi nəticəsində əldə edilən xeyir, fayda.
**qərib** *sif.* – yad, özgə, tanış olmayan.
**qətl** *is.* – öldürmə, öldürülmə.
**qoltuqağacı** *is.* – şikəst adamların gəzərkən qoltuqlarının altına qoyub dayaq kimi istifadə etdikləri ağac.
**qonorar** *is.* – yaradıcı iş üçün ödənilən əməkhaqqı.
**qrad** *is.* – düşmən obyektlərini və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulmuş reaktiv yaylım atəş sistemi.
**quberniya** *is.* – Rusiyada əsas inzibati ərazi vahidi; vilayət.
**qumru** *is.* – göyərçin cinsindən boz rəngli gözəl bir quş.
**laləzar** *is.* – laləlik, çiçəklik, güllük, çoxlu lalə bitən yer.
**maarifçilik** *is.* – maarifi yayma, maarif tərəfdarı olma; maarifpərvərlik.
**məxluq** *is.* – canlı varlıq, canlı vücud (insan, heyvan).
**mənbə** *is.* – elmi tədqiqatın əsaslandığı yazılı abidə, sənəd, əsər və s.
**mənşə** *is.* – əmələ gəlmə, törəmə, əsil.
**mətbuat** *is.* – dövri çıxan qəzet, jurnal və s.-nin ümumi adı.
**məzun** *is.* – hər hansı bir məktəbi bitirmiş tələbə, şagird.
**musiqişünas** *is.* – musiqi tarixi və nəzəriyyəsini, xalqların musiqi mədəniyyətini öyrənən mütəxəssis.
**müdrik** *sif.* – dərin dərrakəli, çox ağıllı, çox dərin düşünən; aqil, dünyagörmüş; anlayan, dərk edən.
**mükəmməl** *sif.* – heç bir qüsuru, kəsiri, nöqsanı olmayan; hər cəhəti dürüst olan; kəm-kəsirsiz, tam.
**nisyə** *is.* – bir şeyin əvvəlcədən ödəniş etmədən alınması və ya satılması.
**nişanə** *is.* – əsər, əlamət, iz.
**oduncaq** *is.* – ağacın, yaxud kolun qabıq altında olan ən sıx, bərk hissəsi.
**ovqat** *is.* – əhvali-ruhiyyə, ruhi vəziyyət, hal, kef.
**ovmaq** *f.* – ovulmuş hala salmaq, narın etmək, narınlaşdırmaq.
**pedaqoq** *is.* – sənəti müəllimlik və tərbiyəçilikdən ibarət olan adam, pedaqogika sahəsində mütəxəssis.
**peşəkar** *sif.* – seçdiyi peşə sahəsində yüksək səviyyəyə nail olan.
**piştaxta** *is.* – mağazada, dükanda satıcı ilə alıcını bir-birindən ayıran stol.
**publisist** *is.* – ictimai-siyasi mövzuda əsərlər yazan yazıçı.

**püskürmək** *f.* – **1.** Öz içərisindən şiddətlə bir şey sovurub atmaq. **2.** Məcazi mənada: saçmaq, buraxmaq.
**sahmana salmaq** *fr.* – səliqə yaratmaq, hər şeyi öz yerində düzgün yerləşdirmək.
**sanballı** *sif.* – əsaslı, böyük, dərin, ciddi.
**sarsıtmaq** *f.* – dəhşətə gətirmək, lərzəyə salmaq.
**savab** *is.* – yaxşı, xeyirli, xeyirxah iş.
**saziş** *is.* – qarşılıqlı razılıq, anlaşma; müqavilə.
**səciyyəvi** *sif.* – bir şəxsə, varlığa xas olan, onu başqasından fərqləndirən.
**sənaye** *is.* – yeraltı sərvətləri çıxaran və xammalı emal edən müəssisələri birləşdirən təsərrüfat sahəsi.
**sənətkarlıq** *is.* – öz sənətini yaxşı bilmə; ustalıq.
**səngimək** *f.* – yavaşımaq, azalmaq.
**sərkərdə** *is.* – ordu başçısı, qoşun rəisi.
**sığallamaq** *f.* – nəvaziş, mehribanlıq, riqqət, oxşama əlaməti olaraq əlini xəfifcə birinin başına və ya üstünə sürtmək, çəkmək.
**sınağa çəkmək** *fr.* – yoxlamaq, təcrübədən keçirmək.
**siyasi** *sif.* – siyasətlə bağlı, siyasətə aid olan.
**strateji** *sif.* – ümumi məqsədləri həyata keçirmək üçün əhəmiyyəti olan.
**süxur** *is.* – Yer qabığının tərkib hissəsini təşkil edən, müəyyən dərəcədə sabit tərkibli mineral.
**şiddət** *is.* – qüvvət, güc, kəskinlik, sərtlik.
**şumlamaq** *f.* – kotanla torpağı yumşaltmaq.
**tabelik** *is.* – tabe olma, asılılıq.
**tacir** *is.* – ticarətlə məşğul olan şəxs.
**tammetrajlı** *sif.* – bir seansda göstərilmək üçün kifayət qədər uzunluğu olan kinolent.
**tektonik** *sif.* – Yer qabığının quruluşu, hərəkəti və deformasiyasına aid olan, onun nəticəsi olan.
**təbaşir** *is.* – kimya sənayesində işlədilən əhəngdaşı; həmin daşın yazmaq üçün istifadə olunan parçası.
**təbliğat** *is.* – bir nəzəriyyəni, ideyanı, biliyi və s.-ni kütlə arasında yayma, təbliğ etmə.
**təcəssüm** *is.* – bir şeyin maddi, cismani ifadəsi, təzahürü.
**tələbat** *is.* – tələb, tələb etmə, tələb olunan şeylər.
**tələfat** *is.* – hərbi əməliyyat, təbii fəlakət, qəza və s. nəticəsində tələf olan adamlar, mülk və s.
**təməlini qoymaq** – yaratmaq, əsasını qoymaq.
**təravətli** *sif.* – təravəti olan; tər, təzə.
**tərəqqi** *is.* – irəliləmə, irəliləyiş, inkişaf.
**təsərrüfat** *is.* – idarədə, müəssisədə və s.-də lazım olan şeylərin məcmusu.
**təşəbbüs** *is.* – hər hansı bir işdə ilk dəfə edilən təklif, birincilik.
**töhfə** *is.* – pay, hədiyyə, bəxşiş.
**valeh etmək** *f.* – heyran etmək, məftun etmək.
**vəd etmək** *f.* – bir işi edəcəyinə söz vermək, öhdəsinə götürmək.
**vəhdət** *is.* – birlik, bütövlük, bölünməzlik.
**yamac** *is.* – dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya maili səthi.
**yırtıq** *sif.* – cırığı, deşiyi olan; yırtılmış, köhnəlib dağılmış.
**yırtılmaq** *f.* – köhnələrək, yaxud sürtülərək, bir şeyə ilişərək deşilmək, cırılmaq, köhnəlib dağılmaq.
**yürüş** *is.* – hücum, axın, hərbi əməliyyat.
**zilləmək** *f.* – gözlərini bir nöqtəyə dikmək, kirpiklərini qırpmadan diqqətlə bir nöqtəyə baxmaq.